Xalqın qəzeti!

# Xalq qəzeti

№ 227 (30343) 18 oktyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azad Füzulinin doğum günü

## Prezident İlham Əliyev "Füzuli Şəhəri Günü"ndə yeni sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.**

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

# Qız evində toydur, oğlan evinin xəbəri yoxdu

## *Brüssel raundu baş tutmaya bilər*

**Ermənistan baş naziri Nikol Paşinyan bir müddət əvvəl ölkənin İctimai televiziyasına müsahibəsində oktyabrın 5-də Avropa Siyasi Birliyinin Qranadadakı Zirvə toplantısı çərçivəsində özünün, Fransa prezidenti Emmanuel Makronun, Almaniya Kansleri Olaf Şoltsun və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin imzası ilə təsdiqlənmiş sənədləri ehkamlaşdıranda şübhələnmişdik. Məlum olduğu kimi, erməni iqtidarı həmin sənədləri az qala böyük uğur, Azərbaycan üzərində diplomatik qələbə kimi qiymətləndirmişdi. Halbuki, belə düşünməyə heç bir əsas yoxdur. Ən azı, ona görə ki, həmin sənədlərə Azərbaycan tərəfi imza atmayıb. Necə deyərlər, qız evində toydur, oğlan evinin xəbəri yoxdur.**

Bəli, sonrakı müddətdə də məlum oldu ki, Azərbaycan üçün Qranadada baş verənlər az önəmlidir. Ölkəmiz sözügedən sənədləri əhəmiyyətsiz saydığını açıq şəkildə bildirməsə də, ümumən nümayiş etdirdiyi mövqe onu deməyə əsas verdi ki, Bakı özünün iştirakı olmadan imzalanmış hansısa sənəddən irəli gələn məsələlərə ciddi yanaşmayacaq. Yəqin, elə məhz buna görə də Aİ Şurasının prezidenti Ş.Mişel Qranada sammiti bitər-bitməz, tələm-tələsik Azərbaycan və Ermənistan liderlərini Brüsselə çağırmaq qərarına gəldi. Görünür, imzaladığı müştərək sənədlərin mənasız kağız parçası olduğunu ən tez dərk edən odur.

Amma Ermənistan Qranada eyforiyasından ayılmaq bilmir və oktyabr ayının sonuna, yeni Ş.Mişelin görüş təşəbbüsünə doğru vaxt azaldıqca nələrisə reallıq kimi təqdim etmək əzmi göstərir. Əlbəttə, bunu əzm yox, acizlik və cığallıq kimi qiymətləndirmək daha doğru olardı. Fikrimizin təsdiqi baxımından ölkənin xarici işlər nazirinin müavini Vahan Kostanyanın dedikləri üzərində dayanmağı vacib sayırıq. Kostanyan bildirib ki, "hazırda Azərbaycan tərəfi ilə müzakirələr aparan tərəfdaşlarımız Ermənistanın maraqlarına zərər vurmaqla, öz ikitərəfli gündəmlərini təbliğ etməyə çalışmamalıdırlar".



Göründüyü kimi, erməni diplomatiyası qorxu içərisindədir. Çox güman, İrəvanda Qranada görüşünün mənasızlığını anlamağa başlayıblar. Ola bilər, onlara orada tamam başqa vədlər verilmişdi, amma indi həmin vədlərin icrasının mümkünsüzlüyü ortaya çıxır.

Yada salaq ki, baş nazir Paşinyan da ölkənin İctimai televiziyasına müsahibəsində Azərbaycanla danışıqların bazası olaraq Qranadadakı sənədləri göstərmiş və bu razılaşmaların korrektə istəklərinə qarşı çıxmışdı.

*(ardı 6-cı səhifədə)*

# Amerika jurnalı Qafqazda yeni toqquşma ehtimalı barədə



Səhifə ⇒ 7

# HƏMAS–İsrail savaşı: gərginlik günbəgün artır



**Bu gün bütün dünyanın diqqəti Qəzza zolağına yönəlib. Buranın isə əsl cəhənnəmə çevrildiyi göz önündədir. Fakt budur ki, Qəzza mühasirədədir və bombardmanlar davam edir.**

Ölən və yaralananların sayı artıq günbəgün deyil, saatbasat artır.

*(ardı 13-cü səhifədə)*

# Avropadan Asiyaya böyük yol

Səhifə ⇒ 9

18 Oktyabr – Müstəqilliyimizin Bərpası Günü



# Otuz ikinci ilin müstəqillik sevinci – suveren Azərbaycan qüruru

**Bu gün Azərbaycanda Müstəqilliyin Bərpası Günüdür. Yəni, ölkəmiz dövlət müstəqilliyinin bərpasının növbəti ildönümünü qeyd edir. Uzun illər Müstəqillik Günü kimi yaddaşımızda qalan bu tarix 2021-ci ilin payızından indiki adı ilə rəsmiləşib. Məlum olduğu kimi, həmin il oktyabrın 11-də Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə "Müstəqillik Günü haqqında" yeni qanunu təsdiqlədi ki, bu qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi.**

Qeyd edək ki, müstəqilliyimizin bərpasının ildönümündən söz açmaq onu əldə etdiyimiz gündən indiyədək heç vaxt bu qədər qürur və fəxarət hissi yaşatmamışdı. Hazırda bunu söyləmək üçün çox şeylər var. Azərbaycan indi tamdır, bütövdür, suveren haqlarına sahiblənib. Artıq 2020-ci ildə işğaldan azad olunmuş digər torpaqlarımız kimi, Xocalı, Xocavənd, Ağdərə, Əsgəran və nəhayət, Xankəndi də, sözün əsl mənasında, Azərbaycandır. Müstəqilliyimizi qazandığımız andan bəri dilədiyimiz arzular çin çıxıb. Deməli, bu günün sevincini tam könül rahatlığı ilə yaşamağa dəyər. Hərçənd, yaxın tariximizə nəzərən deyə bilərik ki, 1991-ci ilin oktyabrında heç də hər şey indiki qədər rəvan deyildi...

Bəli, 32 il əvvəl Azərbaycan Respublikasının Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bununla bağlı müzakirələr isə hələ oktyabrın 8-də başlamışdı. Həmin gün işə növbədənkənar sessiya məsələni dörd gün müzakirə etmişdi. Lakin nədənsə qərar verməyə tələsməmişdi. Yalnız bir həftə sonra – oktyabrın 18-də Ali Sovetin sessiyasında sənəd qəbul olunmuşdu. Ali Sovetin 360 deputatından 231-i ona səs vermişdi. Qalanları isə...

Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında göstərilib ki, müstəqil Azərbaycan dövləti 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir. Akt 6 fəsil, 32 maddədən ibarətdir. 1991-ci il dekabrın 29-da ümumxalq referendumunda məsələ müzakirəyə çıxarılmış və əhalinin 95 faizi səsvermədə iştirak edərək, ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs vermişdi. Müstəqilliyimizi ilk tanıyan ölkə isə qardaş Türkiyə olmuşdu. Bu, 1991-ci il noyabrın 9-da baş vermişdi. Ardınca Rumıniya, Pakistan, İsveçrə, İran, Rusiya və başqa dövlətlər də müstəqilliyimizi tanımışdılar.

O da məlumdur ki, müstəqilliyini elan edən Azərbaycan çətin və mürəkkəb mərhələyə qədəm qoymuşdu. Xalq əyani şəkildə görmüşdü ki, müstəqilliyi qorumaq onu qazanmaqdan daha çətindir. Axı, bu böyük nemətə sahiblənməyimizdən cəmi iki il sonra onu yenidən itirmək təhlükəsi yaşanmışdı. Bir tərəfdən erməni təcavüzü, digər yandan dövlət rəhbərliyində olan səriştəsizlik fonunda daxili çəkişmələr müstəqilliyimizin beşiyindəcə boğulması təhlükəsini yaratmışdı. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıtması nəticəsində təhlükə sovuşmuşdu. Dayağını xalqdan alan Heydər Əliyev ağır günlərdə qətiyyət və iradə nümayiş etdirməklə müstəqil dövlətçiliyimizi qorumuşdu.

Onu da vurğulamaq lazımdır ki, əslində, Azərbaycanın müasir dövrdəki dövlət müstəqilliyinə gedən yolunun əsasını ilk dəfə Ümummilli lider Heydər Əliyev qoymuşdu. Ulu öndər üçrəngli bayrağımızı Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdı. Sovet İttifaqının mövcud olduğu bir şəraitdə belə cəsarətli addımın atılması dahi şəxsiyyətin xalqına, dövlətinə yüksək bağlılığını, bu yolda nə qədər cəsarətli, dönməz olduğunu bir daha göstərmişdi.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırmış, möhkəm əsaslar üzərində yeni inkişaf xəttini müəyyənləşdirmişdi. Ümummilli liderin idarəçilik kursunu davam etdirmiş Prezident İlham Əliyev suverenliyimizin möhkəmləndirilməsi istiqamətində yorulmaz səylər göstərmiş, müstəqillik sözünün gerçək anlamını praktiki müstəviyə çıxarmağı bacarmışdı. Nəticə etibarilə, Azərbaycan dünyada öz mövqeyi və prinsipləri olan ölkə kimi tanınmış və hörmət qazanmışdı. İlham Əliyevin ötən 20 illik prezidentlik fəaliyyəti Ulu öndərin "Biz azadıq, müstəqilik, sərbəstik. Biz heç kəsdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik" kəlamının bütün mənalarda doğrulduğunun təsdiqidir.

Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi müstəqil Azərbaycan Respublikası yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilib. Dövlətimizin başçısının müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyası nəticəsində milli maraqlarımıza uyğun beynəlxalq faydalı əməkdaşlıq həyata keçirilir, ölkəmiz günü-gündən çiçəklənir. Qətiyyətlə demək mümkündür ki, İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan, eyni zamanda, rifah ölkəsidir.

Əlbəttə, rifah və əmin-amanlıq ərazi bütövlüyünün, suverenliyin bərpası olmadan yarımçıq xarakterə malik olardı. Buna görə də Prezident İlham Əliyev 2003-cü il oktyabrın 15-də dövlət başçısı seçilən gündən Qarabağı azad etmək hədəfini müəyyənləşdirdi. O, Ulu öndərin Qarabağ ideoloji xəttini zənginləşdirərək, onu müstəqil dövlətçiliyimizin məfkurə davası halına gətirdi, illər ərzində bu dava üçün möhkəm zəmin formalaşdırdı. İndi dövlət müstəqilliyimizin bərpasının 32-ci ildönümünü qeyd etdiyimiz gündə İlham Əliyev şəxsiyyətinin davasının tam qələbə ilə başa çatdığını görmək, hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır.

Ulu öndər Heydər Əliyev deyirdi ki, Azərbaycan Respublikası milli dövlətçilik quruculuğu yolunda müvəffəqiyyətlər qazanaraq, şərəfli gələcək istiqamətində inamla addımlayır. Bəli, dahi liderin fikirləri hər zaman olduğu kimi, yenə də aktualdır. Bu gün dövlət müstəqilliyinin bərpasının 32-ci ildönümünü qeyd edən Vətənimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə nəinki şərəfli gələcəyə doğru addımlayır, eyni zamanda, o gələcəyi özü yaradır. Hesab edirik ki, əsl müstəqillik də elə bu yaradıcılıq xüsusiyyətinə malik olmaqdadır. Yaşasın müstəqil Azərbaycan!

***XQ***

# Prezident İlham Əliyev "Füzuli Şəhəri Günü"ndə yeni sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb

*(əvvəli 1-ci səhifədə)*



## Prezident İlham Əliyevin çıxışı

**Prezident İlham Əliyev:** Salam-əleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz. Sizi görməyimizə çox şadıq.

**Şəhid bacısı:** Salam, xoş gəlmisiniz.

**Kişi sakin:** Təbrik edirik, cənab Prezident. Var olasınız. Allaha şükür ki, Füzulidə də görüşə bildik.

**Prezident İlham Əliyev:** Əlbəttə. Sağ olun.

**Qadın sakin:** Təşəkkür edirik, Sizi xoş gördük.

**Prezident İlham Əliyev:** Salam. Siz də xoş gəlmisiniz.

**Sakinlər:** Hər şey üçün minnətdarıq. Qürurumuzsunuz.

**Kişi sakin:** Salam, cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Necə də gözəl bir gündür. Siz mənə "Xoş gəlmisiniz!" deyirsiniz. Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə "Xoş gəlmisiniz!" deyəcəksiniz və bu gün gəldi. Bu gün Füzulidə bayram günüdür, şəhər günüdür və eyni zamanda, Füzuli şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümüdür. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident, təşəkkür edirik. Sağ olun.

**Prezident İlham Əliyev:** Arzu edirəm ki, Füzulidə - doğma Vətəndə rahat yaşayasınız, firavanlıq, rifah içində yaşayasınız.

Şadam ki, gənc nəsil də - füzulililərin gənc nəsli də öz doğma torpağına gəlməyə qərar verdi. Bu, doğrudan da böyük hadisədir, çünki uşaqlar, yeniyetmələr, gənc nəsil bu torpaqları görməyiblər. Onlar bu torpaqlar barədə ancaq sizin onlara danışdıqlarınızı ürəklərində saxlamışdılar. Bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, biz öz doğma diyarımıza bağlı olan xalqıq.





İşğal dövründə bəziləri, xüsusilə xaricdəki bəzi dairələr hesab edirdilər ki, illər keçdikcə Azərbaycan xalqı öz torpaqlarını unudacaq, gənc nəsil, ümumiyyətlə, tam başqa bir tərzdə tərbiyə alacaq. Qloballaşan dünya haqqında bir çox fərziyyələr irəli sürülürdü. Ancaq o təhlilçilər və eyni zamanda, siyasi müstəvidə olanlar bir şeyi anlaya bilməmişlər ki, Azərbaycan xalqının öz doğma diyarına nə qədər böyük sevgisi var, biz nə qədər doğma diyara bağlıyıq.

Mənim yadımdadır, füzulililərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngülləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, bu gün gəldi, artıq bu, gerçəkdir, bu, reallıqdır. Füzulinin yeni siması göz oxşayır.

Onu da bildirməliyəm ki, bu gün həm Füzulidə, həm bütün başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələr dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit edir və bunu təkcə mən yox, bir çox beynəlxalq ekspertlər qeyd edir. Xüsusilə, bildiyiniz kimi, Azərbaycanda iki dəfə Milli Şəhərsalma Forumu keçirilmişdir, Ağdamda və Zəngilanda və orada bizim bütün layihələrimiz təqdim edilmişdir. Beynəlxalq təşkilatlar bunu çox yüksək qiymətləndirirlər, çünki doğrudan da burada yaşayış üçün ən gözəl şərait yaradılıb, həm binaların daxili quruluşu, həm mənzillərin daxili dizaynı, həm mərtəbəlilik prinsipi, binaların bir-birindən aralı olması, məsafə, hər şey gözlənilib. Yəni, rahat yaşamaq üçün bütün infrastruktur, şərait var. Bizim bütün şəhərlərimiz, bax, Füzuli kimi olacaq. Çünki Füzulidə biz birinci şəhərsalma layihəsini icra edirik. Düzdür, laçınlılar füzulililərdən bir qədər tez öz doğma yurduna qayıtmışlar. Amma Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma apardıqları üçün orada binaların bəziləri qalmışdı və biz o evləri sadəcə olaraq bərpa etdik, ən gözəl şərait yaratdıq. Deməli, Laçının əvvəlki şəhərsalma mənzərəsi yerindədir. Burada isə şəhər tamamilə yenidən qurulur.

Füzulinin timsalında, eyni zamanda, bütün dünya, hətta bunu görmək istəməyənlər görürlər və görməlidirlər ki, erməni vəhşiliyi nədən ibarətdir. Biz uzun illər Qarabağ dərdimizin həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmağa çalışanda bəziləri inanmırdı, elələri də var idi ki, inanmaq istəmirdi. Bizim əlimizdə o qədər də böyük sübutlar yox idi. Biz bilirdik ki, hər şey dağıdılıb, viran qoyulub, ancaq bu dərəcədə hətta biz təsəvvür edə bilmirdik. Çünki işğalçı dövlət heç kimi o vaxt bu bölgəyə buraxmırdı, qadağan etmişdi. Nə üçün? Çünki buraya gələn hər bir insan görəcəkdi, erməni vəhşiliyi nədən ibarətdir. Onun təzahürləri hər yerdə görünür.

Mən bunu dəfələrlə demişəm, indi bir çoxları bunu bilir, bir daha demək istəyirəm, Füzuli azad olunanda bir salamat bina tapa bilmədik ki, Bayrağımızı qaldıraq, bir hərbi hissədən başqa. Onun da həyətində dirəkdə Bayrağımızı ucaltdıq və buraya ilk dəfə gələndə, vallah, hər bir azərbaycanlı kimi adamın ürəyi ağrıyırdı, məəttəl qalırdı, dəhşətə gəlirdi insan ki, bu dərəcədə düşmənçiliyin mənbəyi nədir?! Axı biz ermənilərə nə etmişdik?! Biz onlarla yanbayan yaşamışdıq. Onlar bizim çörəyimizi yeyiblər, bizim hesabımıza onlar üçün şəhərlər, kəndlər qurulmuşdu, infrastruktur yaradılmışdı. Sovet dövründə bütün bu işlərin hamısı Azərbaycan büdcəsi hesabına görülmüşdür. İnsanlara zülm etmək, onlara işgəncə vermək, Azərbaycan xalqına qarşı etnik təmizləmə aparmaq, görünür, onların ürəyində olan o qara ləkələr idi. Biz onu bilməmişik o vaxt. Biz bir növ sadəlövh olmuşuq. Ona görə mən deyirəm, biz heç vaxt işğalı, əzab-əziyyəti unutmamalıyıq. Gənc nəsil də bunu bilməlidir. Bu gün bu məktəbdə oxuyan uşaqlar da bunu bilməlidir. Bilməlidir ki, bizim xalqımız hansı çətin sınaqlardan çıxıb, əyilməyib, sınmayıb, özünə inanıb, ordusuna inanıb. İnanıb ki, bu gün gələcək, biz burada durub sizinlə bu bayram gününü qeyd edəcəyik.

Füzuli indi tamamilə yenidən qurulur. Dünən burada olarkən bir neçə önəmli obyektin təməlini qoyduq. İki kəndin, uşaq bağçasının, idman kompleksinin, yeni yaşayış məhəllələrinin, inzibati mərkəzin təməli qoyuldu. Yəni, aylar keçdikcə burada yaşayanların sayı da təbii ki, artacaq. Mənə dünən məlumat verildi ki, 800-dən çox insan artıq yerləşib. İlin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaqdır. Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni, bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər. Məsələn, mən həm Zəngilanda, həm Laçında uşaqlarla söhbət əsnasında maraqlanırdım. Yəni, Bakıda doğulmuş, böyümüş, necə deyərlər, böyük şəhərin ab-havasına öyrəşmiş uşaq, yeniyetmə gəlib indi bir qədər uzaqda yerləşən şəhər və kənddə necə yaşayır? Onlar ürəkdən deyirdilər ki, bu, böyük xoşbəxtlikdir. Bu, o cümlədən sizin, yəni, böyük nəslin tərbiyəsidir. Çünki onlar evlərdə də, məktəblərdə də bu tərbiyəni görüblər. Ona görə məktəb və ailə bizim buraya qayıtmağımızın vacib amilidir. Çünki qoymadıq ki, gənclər unutsun. Qoymadıq ki, Qarabağ mövzusu silinsin. Halbuki bunu bizə aşılamaq istəyən bir çox ölkələr, qüvvələr var idi, yəni, barışmaq lazımdır, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Bir çoxları təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Biz göstərdik ki, var və bu yaxınlarda bir daha göstərdik, bu mövzu bağlandı! Qarabağ münaqişəsi mövzusu bağlandı birdəfəlik! Separatçıların kitabı bağlandı birdəfəlik! Bu, böyük xoşbəxtlikdir.

İndi isə qalıb ki, insanlar burada rahat yaşasınlar. Onu da bildirməliyəm ki, biz bütün layihələri icra edərkən, o cümlədən məşğulluq məsələlərinə də böyük diqqət yetiririk. Aidiyyəti dövlət qurumları bu məsələ ilə də bağlı ciddi addımlar atır ki, burada yerləşən insanların məşğulluq imkanları da olsun. Şəhərin özünəməxsus məşğulluq imkanları var. Əlbəttə ki, kəndlərdə yerləşən və yerləşəcək vətəndaşlar, ənənəvi məşğulluqla məşğul olacaqlar, dövlət isə öz tərəfindən onlara kömək göstərəcək – texnika ilə, mal-qara ilə, bütün lazımi vasitələri onlara təqdim etməklə. Özünüməşğulluq proqramı icra ediləcək ki, burada həyat qaynasın. Əminəm ki, müəyyən müddətdən sonra Qarabağ Azərbaycan iqtisadiyyatında bir təkanverici qüvvəyə çevriləcək. Çünki bizim iqtisadiyyatımızın, bax, buradan qalxması ümumi inkişafa da böyük töhfə olacaqdır.

Bu gün bu bayram gününü qeyd edərkən, təbii ki, əziz şəhidlərimizin xatirəsinə hamımız bir daha öz dərin ehtiramımızı ifadə edirik. Mən iki gün əvvəl Xankəndinin əsas, mərkəzi meydanında xalqa müraciət edərkən demişdim ki, bu günə görə biz onlara borcluyuq. Bu, həqiqətdir. Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və Bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək. Bu gün onların ruhu şaddır ki, biz buradayıq, siz buradasınız və nə qədər acı olsa da, onların yaxınları üçün, doğmaları üçün bir təsəlli var. O da odur ki, onlar canlarını fəda edərək tarixi Zəfər çalıblar. Biz Birinci Qarabağ müharibəsində 15 minə yaxın şəhid verdik, amma torpaqlar da getdi. Əlbəttə, həlak olan hər bir insan əvəzolunmazdır. Ancaq İkinci Qarabağ müharibəsində əməliyyatlar elə planlaşdırılırdı ki, itkiləri minimuma endirək və buna da nail olduq.

Bir daha demək istəyirəm ki, biz hər zaman, onlara borclu olmalıyıq. Gənc nəsil də daim bu ruhda tərbiyə almalıdır. Onların qəhrəmanlığı unudulmazdır, belə ağır coğrafi məkanda bu tarixi Qələbəni qazanmağın misli-bərabəri yoxdur. Düşmən bütün yüksəklikləri götürmüşdü. Buradan istənilən istiqamətə getsən görərsən ki, hər təpədə demək olar ki, onların postları, döyüş məntəqələri, bir neçə müdafiə xətti, tikanlı məftil və minalar, bunu yarmaq, atəş altında qabağa getmək nə qədər böyük cəsarət tələb edir. Bu, bəlkə də dünya hərb tarixində olmayıb. Olubsa, qoy, bizə desinlər harada olub. Olmayıb, bunu Azərbaycan xalqı göstərmişdir. Biz işğal dövründə elə gənc nəsil yetişdirdik ki, onlar Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdilər.

Əziz bacılar, qardaşlar, dostlar, bir daha təbrik edirəm. Bu gün həm sevincli, həm kədərli gündür. Qızımızın göz yaşları da təbii ki, heç vaxt dayanmayacaq. Bunu biz bilməliyik, 10 il keçsə də, 20 il keçsə də. Hamımız göz yaşları tökmüşük və tökürük.

Təbrik edirəm, cansağlığı arzulayıram, uşaqlara yaxşı baxın, yetişdirin, vətənpərvər olsunlar, Vətənə bağlı olsunlar, bizim qəhrəmanlar kimi olsunlar, şöhrətimizi göylərə qaldırsınlar. Sağ olun.

***

Sonra dövlətimizin başçısı tədbir iştirakçıları ilə xatirə şəkilləri çəkdirdi, onlarla söhbət etdi.

***

**Kişi sakin:** Çox sağ olun. Allah Sizi var eləsin, cənab Prezident.

**Qadın sakin:** Allah Sizi qorusun, Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Sağ olun. Bütün kəndlərə gedəcəyik. Füzuli rayonunun artıq 5-6 kəndinin təməli də qoyulub.

**Sakinlər:** Çox şükür.

**Kişi sakin:** Cənab Prezident, ən əsası odur ki, Xankəndi, Xocalı, Xocavənd, Ağdərə sevincini bizə yaşatdınız.

**Prezident İlham Əliyev:** Bəli.

**Sakin:** Ən böyük fəxr etdiyimiz odur ki, bizim Prezidentimiz dünyada məşhurdur, onu dünya qəbul edir, dünya onun sözünü eşidir.

**Prezident İlham Əliyev:** Bilirsiniz, dünya belədir ki, bəziləri qəbul edir, bəziləri.

**Sakin:** Edə bilmir.

**Prezident İlham Əliyev:** Etmir. Amma əsas odur ki, biz istədiyimizi edək. Çünki biz haqq yolundayıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur.

**Qadın sakin:** Artıq yol Zəngəzuradır.

**Prezident İlham Əliyev:** Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə çalışırlar, mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Necə ola bilər, bizim əsrlər boyu qurduğumuz məkandır. Amma bu gün.

Kişi sakin: Ruhu şad olsun, Ulu Öndər deyirdi, mən fəxr edirəm ki, azərbaycanlıyam. İndi hər bir azərbaycanlı fəxr edir ki, sözün həqiqi mənasında, biz azərbaycanlıyıq.

**Prezident İlham Əliyev:** Bəli, elədir.

**Sakin:** Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var, cənab Prezident.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev "Füzuli Şəhəri Günü"ndə yeni sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb





*(əvvəli 2-ci səhifədə)*

**Prezident İlham Əliyev:** Ulu Öndər bunu deyəndə tam haqlı idi. Ancaq bilirsiniz, o vaxt işğal dövrü idi və bəziləri hesab edirdi ki, azərbaycanlılar bu işğalla barışacaq. Bəziləri belə çirkin təbliğat aparırdı xüsusilə xarici dairələrdə ki, biz bunu unutmuşuq, biz vəziyyətlə barışmışıq. O isə heç vaxt barışmırdı bu vəziyyətlə və bizə qoyduğu, necə deyərlər, bu yol da məhz azadlıq yolu idi, qurtuluş yolu idi. Ona görə biz bu tarixi Zəfəri çalandan sonra artıq bütün dünya gördü ki, O, o vaxt, o ağır dövrdə nə qədər haqlı idi.

**Sakin:** Uzaqgörən idi, haqlı idi.

**Prezident İlham Əliyev:** Bəli, bilirdi, xalqın, necə deyərlər, qəlbini, qəlbindəki bütün duyğularını bilirdi və əlbəttə ki, həm sevinirik, həm heyfsilənirik ki, O və onun kimi yüz minlərlə insan bu həyatdan getdi, bu günü görmədi.

**Sakinlər:** Ruhları şaddır.

**Prezident İlham Əliyev:** Əlbəttə, ruhları şaddır. Buna inanıram və inanmaq lazımdır, onların - həyatdan getmiş, bu günü görməmiş yüz minlərlə keçmiş köçkünün, şəhidlərimizin ruhları şaddır.

**Sakin:** Hörmətli Prezidentimiz, biz füzulililər üçün çox qürurvericidir ki, Qarabağın azad olunması 30 il öncə Ulu Öndərin Prezidentliyi dövründə - 1994-cü ildə Horadiz əməliyyatı ilə başlayıb.

keçmiş köçkünlər artıq şəhərə yerləşəcəklər. Bizdə bütövlükdə 8 şəhər, 92 kənd və qəsəbə Birinci Qayıdış Planına salınıb. Onların da böyük əksəriyyəti 2026-cı ilin sonuna qədər başa çatacaq. Yəni, üç ildən sonra azad edilmiş ərazilərdə minimum, - biz belə təxmin edirik, - 140 min insan yaşayacaq.

**Sakin:** Çox böyük göstəricidir.

**Qadın sakin:** Üç ildir. Amma onlar otuz ildə bir mismar belə çalmamışdılar. Bilirdilər ki, onların deyil.

**Sakin:** Onlar dağıdırdılar.

**Prezident İlham Əliyev:** Bəli, onlar nəinki, buraları dağıtmışlar, vaxtilə yaşadıqları yaşayış məntəqələrində də heç bir iş görülməyib, sovet vaxtında necə var idisə, elə də qalıb. Mən oranın hər tərəfini dəfələrlə gəzmişəm. Adam o kəndlərin vəziyyətinə baxanda, özünə sual verir ki, bəs, bunlar hər il yüz milyonlarla dollar pul yığırdılar, telemarafon düzəldirdilər, Los-Ancelesdə, Fransada, bəs, o pulları hara xərcləyiblər? Onlardan gərək soruşsunlar.

**Sakin:** Serjik Sarkisyanın cibindədir, Robert Köçəryan xərcləyibdir.

**Prezident İlham Əliyev:** Orada bir dənə də daş-daş üstə qoyulmayıb, indi yəqin ki, insanlar oraya gedib görəcəklər, elə necə var idi, dağılmış, Hesabatdan hər şey görünür, hər şey bilinir. Sizin apardığınız siyasətin ən kulminasiya nöqtəsi erməni separatizminin belini qırmağınızdır. Bütün dünya ermənilərinə "dəmir yumruğu" göstərdiniz ki, yadınızda saxlayın, hamınızın beli burada qırılar Azərbaycanda başqa bir şey olsa. Artıq bu gün yoldaşlar dedilər, biz iki il bundan qabaq Sizinlə burada görüşəndə, binanın təməli qoyulanda biz deyirdik ki, yəqin bir on ilə burada bir bina tikilər-tikilməz. Ancaq bu gün bu binalar tikilib. Bu, bizim üçün çox qürurvericidir. Artıq Füzulidə yenidənqurma işlərinə, quruculuq işlərinə böyük start verilib. Biz bayaqdan camaatla söhbət edirik, deyirik ki, bu quruculuq işləri kosmik sürətlə gedir, Allah xalqımızı xatadan-bəladan uzaq eləsin, Sizə cansağlığı versin.

**Sakinlər:** Amin.

**Sakin:** Biz Sizin ətrafınızda çox sıx birləşmişik. Biz Sizin apardığınız siyasəti dəstəkləyirik. Füzulidə bugünkü bayram - "Füzuli Şəhəri Günü" münasibətilə biz Füzuli camaatı adından Sizi təbrik edirik və Sizin apardığınız siyasətdə uğurlar arzu edirik. Allah Sizi qorusun!

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Bu gün Füzulidə, Qarabağın digər bölgələrində və Şərqi Zəngəzurda yerləşən şəhərlərdə gedən işlər, doğrudan da genişmiqyaslı işlərdir. İndi bizi ittiham etməyə heç kimin haqqı yoxdur. Düzdür, cəhdlər var, yəqin ki, siz də izləyirsiniz, olub və olacaq.

**Sakin:** Özlərini ifşa edirlər.

**Prezident İlham Əliyev:** İfşa edirlər, əlbəttə, biabır edirlər özlərini. Ona görə biz indi öz yolumuza davam edəcəyik. Yenə də deyirəm, biz bütün doğma torpaqlarımızı yenidən quracağıq. Buradan o dağlara baxanda belə bir gözəl mənzərə açılır, kənd təsərrüfatı üçün çox yaxşı imkanlar var. Yəqin ki, ilin sonunda Köndələnçay su anbarları artıq istifadəyə veriləcək. İki gün əvvəl Sərsəng su anbarının üstündə idim. Onu da atam o vaxt inşa etdirib.

**Sakinlər:** Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Allah ölənlərinizə rəhmət eləsin. İnşa etdirib ki, yüz min hektar sahə, altı rayon - azərbaycanlıların yaşadıqları rayonlar su ilə təmin edilsin. Amma ermənilər nə etdilər, suyumuzu kəsdilər. Qışda açırdı ki, bütün yeri su bassın, yayda kəsirdi. Bax, erməni xisləti budur. Onu görsünlər, bu gün onların yanında yer alanlar, qoy görsünlər onlar nə ediblər. Biz indi bir kanal çəkmişik, ikinci sağ kanal da çəkiləcək, yəqin ki, maksimum ilyarım ərzində. Biz 100 min hektar torpağa su verəcəyik. İndi suyumuza da sahib olduq.



**Prezident İlham Əliyev:** Bəli.

**Sakin:** Bizim üçün qürurvericidir ki, Böyük Qayıdışın ilk addımı da Sizin Prezidentliyə başladığınız dövrdə Horadiz qəsəbəsinin böyük şəhərə çevrilməsi, Haramıda, Zobucuqda abad qəsəbələrin inşa edilməsi sayəsində baş veribdir.

**Prezident İlham Əliyev:** Düzdür.

**Sakin:** İki il öncə biz burada - Füzulidə təməlqoyma mərasimində iştirak edəndə burada heç nə yox idi. Doğrudan da hər yan xaraba idi. İndi çox şükür, var olun, böyük, abad bir şəhərə çevrilibdir, qürurvericidir. Özü də təkcə Füzuli yox, bütün Qarabağ tikinti meydanıdır, hər yerdə yollar çəkilir, şəhərlər salınır, kəndlərin bünövrəsi qoyulur, infrastruktur layihələri icra edilir.

**Prezident İlham Əliyev:** Elədir.

**Sakin:** Cənab Prezident, nağıllarımızda Qarabağa "Cənnətməkan Qarabağ" deyirlər, Sizin sayənizdə doğrudan cənnətə çevrilir. Allah canınızı sağ eləsin, işiniz avand olsun. Biz Sizə bu böyük işdə uğurlar diləyirik.

**Prezident İlham Əliyev:** Çox sağ olun, indi bütün şəhərlərdə ya tikinti gedir, ya da tikintiyə hazırlıq gedir. Mən əminəm ki, gələn il Cəbrayılda şəhər günü qeyd ediləcək. Bu il qeyd edilmədi, çünki orada hələ ki, vətəndaşlar yerləşməyib. Amma gələn ilin oktyabr ayına qədər, - çünki birinci azad olunmuş şəhər Cəbrayıl olmuşdu, - oktyabrın 4-də orada da şəhər günü keçiriləcək, hər yerdə - Şuşada birinci yaşayış məhəlləsi yəqin ki, 5-6 aya hazır olacaq. Birinci qrup keçmiş köçkünlər qayıdacaq. Ağdam da böyük tikinti meydançasıdır. Bu yaxınlarda Zəngilanda olarkən orada da, Qubadlıda, Kəlbəcərdə gələn ilin sonuna qədər çox bərbad vəziyyətdə.

**Qadın müəllim:** Cənab Prezident, bu gün - oktyabrın 17-si Füzuli bayramı – "Füzuli Şəhəri Günü" biz füzulililər üçün həqiqətən də həm sevindirici, həm də qürurverici bir gündür. Bu gün Füzulimizin – 30 il işğal altında olan, erməni vandalizminə məruz qalan gözəl Füzulimizin yenidən daha gözəl, daha müasir şəkildə qurulması həqiqətən də bizim üçün çox xoşbəxt anlardır. Artıq biz Füzuli sakiniyik, artıq burada daimi yaşayırıq və Sizi, eyni zamanda, Mirzə Uluqbəy adına 1 nömrəli məktəbin kollektivi adından salamlayırıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

Qadın müəllim: Mən otuz il bundan öncə 13-14 yaşlarında bir yeniyetmə məktəbli kimi çıxdığım Füzulimə bu gün müəllim kimi qayıtmışam. Buna görə, əlbəttə ki, Sizə, başda Siz Ali Baş Komandanımız olmaqla, bütün Azərbaycan Ordusuna minnətdarıq. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Məhz onların qanı-canı bahasına, - özünüz gözəl dediyiniz kimi, - qazilərimizin şücaəti bahasına biz bu gün öz doğma yurdumuzdayıq. Buna görə bir daha Sizə cansağlığı, uzun, sağlam ömür arzu edirik, Allah Sizi və Ordumuzu qorusun!

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sakin:** Cənab Prezident, bu gün Siz çıxışınıza bayram əhvali-ruhiyyəsi ilə başladınız. Çünki 2023-cü il Azərbaycanda bayramlar ilidir. Birincisi, "Heydər Əliyev İli" elan olunması, bununla bağlı respublikanın bütün regionlarında keçirilən tədbirlər, Heydər Əliyev irsinin öyrənilməsi və gənclərə öyrədilməsi bir bayram əhvali-ruhiyyəsidir. İkincisi, Azərbaycan xalqının dəstəyi ilə Sizin apardığınız 20 illik ardıcıl siyasətin bu gün hesabat günüdür. Bunun mənbəyi də Azərbaycan mənbəyidir, yəni, biz heç kimdən bir manat kömək istəməmişik. Sağ olsun özbək qardaşlarımız gözəl məktəb tikdirdilər və qazax qardaşlarımız da indi Yaradıcılıq Mərkəzini inşa edirlər. Ondan başqa bizə bir dənə də mismar da hədiyyə edilməyib.

Biz bu illər ərzində həm iqtisadiyyatı qurduq, həm ehtiyatlar yığdıq. Nə üçün? Bilirdik ki, bu gün gələcək, o vəsait bizə lazım olacaq və biz haraya xərcləyirdik - orduya. Birinci yerdə ordu xərcləridir, ikinci təhsil xərcləridir. Həmişə bizim büdcəmizdə, bu iki əsas prioritet var idi. İndi ordu xərclərinə biz yenə də vəsait ayırmalıyıq. Çünki yumruq daim yerində olmalıdır. Ancaq, eyni zamanda, indi vəsaitin əsas hissəsi Qarabağın bərpasına gedir.

Ona görə heç kimdən asılı deyilik, heç kimdən heç nə istəmirik. Ona görə bəlkə də bəzi böyük dövlətlər bizdən narazıdırlar. Çünki onlar öyrəşiblər ki, gəlsinlər onların qabağında baş əysinlər, o da icazə versin, verməsin. Bəziləri hesab edirdilər ki, biz antiterror tədbirlərini apararkən heç kimdən soruşmamışıq. Yəni, biz kimdən soruşmalıyıq?! Nəyi soruşmalıyıq?! Bəziləri indi deyirlər ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq. Bu da qəribədir ki, bir qrup ölkə özünü beynəlxalq ictimaiyyət sayır. Axı, beynəlxalq ictimaiyyət deyəndə, 200-dən çox ölkə var, 20-30 ölkə beynəlxalq ictimaiyyət sayıla bilməz. Onlar elə öyrəşiblər, özlərindən başqa heç kimi ictimaiyyət saymırlar və belə bir ittiham indi irəli sürülür ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq, antiterror tədbirləri keçirməklə onları aldatmışıq. Bu, çox zərərli məntiqdir. Biz öz doğma torpağımızda suverenliyi bərpa etmişik haqlı olaraq, bütün norma və prinsiplərə, beynəlxalq müstəvidə təsbit olunan prinsiplərə uyğun şəkildə. Bizim su mənbələrimizin 25 faizi Qarabağ və Kəlbəcər-Laçın zonasında formalaşır. İndi Köndələnçay qayıtdı, Sərsəng, Suqovuşan qayıtdı, Xaçınçay qayıtdı, Həkəri suyu, indi Zabuxçay su anbarı inşa edilir, bir ilə hazır olacaq.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Bəli, suvarma ilə bağlı başqa layihələr də icra edilir. Onsuz da burada torpaqlar münbitdir.

**Sakin:** Çox bərəkətlidir.

**Prezident İlham Əliyev:** Bərəkətlidir, özü də Füzuli torpağı xüsusilə. Amma su olandan sonra bura cənnət olacaq, gülüstan olacaq.

**Sakinlər:** İnşallah. Allah Sizi var eləsin. Sizə uzun ömür, cansağlığı arzulayırıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Cənab Prezident, Vətən üçün üç oğul böyütdüm. Böyük oğlum Nicat Zalov Füzuli rayonu uğrunda gedən döyüşlərdə yaralanıb. Kiçik oğlum Fəqan Zalov 44 gün yaralı olaraq döyüşdü, müharibənin qurtarmasına saatlar qalmış Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Sakin:** Cənab Prezident, mən Sizə dərin təşəkkürümü bildirirəm ki, mənim oğullarımın şücaətini, qəhrəmanlığını yüksək qiymətləndirmisiniz. Bir də cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm, biz şəhid ailələrinə diqqət və qayğı göstərdiyinizə görə çox sağ olun, minnətdaram. Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Salamat qalın.

**Sakinlər:** Sağ olun.

***AZƏRTAC***

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050, № 12, maddə 1939; 2020, № 5, maddə 551; 2021, № 3, maddə 224, № 6 (I kitab), maddə 576, № 9, maddə 976, № 12, maddə 1435; 2022, № 3, maddə 210) ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Şura sədr də daxil olmaqla 9 üzvdən – Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirindən, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (1 nəfər), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (1 nəfər), Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin (1 nəfər) və yerli fermerlər assosiasiyasının (1 nəfər) nümayəndələrindən ibarətdir.".

**2.** 3.3-cü bənd ləğv edilsin.

**3.** 3.14-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Məhsul subsidiyası ilə bağlı hər il fermerlər Nazirliyin təsdiq etdiyi reqlamentlərlə müəyyən edilmiş müddətlərdə bu Qaydanın 3.8.1-ci yarımbəndində nəzərdə tutulan elektron bəyannaməni (müraciəti) və məhsulun tədarükçüyə təhvil verilməsi barədə sənədləri (məhsulun qəbul qəbzlərini və (və ya) Azərbaycan Respublikası Vergi Məcəlləsinin 71-1-ci və 71-2-ci maddələrinə uyğun olaraq tərtib edilmiş elektron qaimə-fakturaları və ya malların alış aktlarını), tədarükçülər isə təhvil aldıqları kənd təsərrüfatı məhsulunun növü və miqdarı barədə məlumatları SİS-ə daxil etməlidirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 480; 2023, № 3, maddə 374) ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi"nin 5.2-ci bəndində "bir" sözü "iki" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 oktyabr 2023-cü il**

## "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının yeni tərkibinin təsdiqi və "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 noyabr tarixli 657 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 dekabr tarixli 3642 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi"nin 5.3-cü bəndinə uyğun olaraq **qərara alıram:**

"Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının yeni tərkibinin təsdiqi və "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 noyabr tarixli 657 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 dekabr tarixli 3642 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1474) 1-ci hissəsinin on birinci abzasının sonundan nöqtə işarəsi çıxarılsın və həmin abzasdan sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Axundova Elmira Hüseyn qızı.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Zati-alinizin rəhbərliyi altında tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan ötən 20 il ərzində böyük inkişaf və tərəqqi yolu keçmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" sözləri öz həqiqi təsdiqini tapmışdır. Sizin müdrik uzaqgörənliklə yaratdığınız bugünkü müasir Azərbaycan on illər ərzində həllini gözləyən problemləri geridə qoyaraq öz suverenliyinə və ərazi bütövlüyünə qovuşmuş, dünya birliyində öz layiqli yerinə ucalmışdır.

Ölkəmizdə bütün sahələrdə əldə olunan tarixi uğurların hər biri Zati-alinizin gərgin zəhmətinin və titanik əməyinin bəhrəsi olmuşdur. Regionların sosial-iqtisadi inkişafından başlayan yol Azərbaycanın təkcə bölgələrinin tərəqqisinə deyil, hər bir azərbaycanlının rifahının yaxşılaşmasına, onun mənəvi baxımdan yenilənməsinə, zənginləşməsinə və nəhayət qalib dövlətin vətəndaşına çevrilməsinə gətirib çıxarmışdır.

Son illərə qədər bir milyondan artıq qaçqın və məcburi köçkünün vətəni olan Azərbaycan rəhbərliyiniz altında qüdrətli dövlət kimi öz çətinliklərinin öhdəsindən gələ bilmiş və ərazi bütövlüyünə qovuşmaq, hər bir vətəndaşının hüquqlarını təmin etmək üçün başlanan haqq savaşını Zəfərlə sona çatdırmışdır. Bunun nəticəsində yüz minlərlə vətəndaşımızın doğma vətənə qovuşmaq arzusu reallaşmışdır.

Uzun müddət ərzində Qarabağda mövcud olmuş cinayətkar xunta rejimi zamanında verdiyiniz müdrik qərarla həyata keçirilən antiterror tədbirləri nəticəsində məhv edilmiş və Azərbaycanın ay-ulduzlu bayrağı Zati-aliniz tərəfindən Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə ucaldılmışdır.

**Möhtərəm cənab Prezident,**

Zati-aliniz ölkənin iqtisadiyyatını, sənayesini, ordusunu, insan potensialını davamlı şəkildə inkişaf etdirərək məqsədyönlü şəkildə bizi bugünkü əzəmətli Azərbaycanın vətəndaşı olmağa hazırlamışdır. Siz Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixi və dövləti üçün olduqca böyük əhəmiyyət kəsb edən vəsiyyətini yerinə yetirərək ölkəmiz və insanlarımız üçün yeni yol xəritəsi müəyyənləşdirmisiniz.

Əminik ki, Ermənistan tərəfindən onilliklər boyu soyqırımı, deportasiya və təhdidlərə məruz qalmış, bu gün təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində yaşayan yüz minlərlə azərbaycanlının doğma vətəninə qayıtmaq hüququnun təmin edilməsi üçün başlatdığınız yeni haqq savaşı bizi daha böyük hədəflərə çatdıracaqdır. Zati-alinizin Müzəffər Ali Baş Komandan kimi bu məsələdə ortaya qoyduğu prinsipial mövqe, xüsusilə 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasında icma üzvləri ilə keçirdiyi görüş məsələnin önəmindən xəbər verir.

Siz Qərbi azərbaycanlıların hüquqlarının bərpa olunmasına və onların öz doğma torpaqlarına qayıtmasına möhkəm və birmənalı dəstəyinizi ifadə edərək hər bir azərbaycanlının Prezidenti olduğunuzu bir daha isbat etmisiniz. İdeyanız əsasında hazırlanan Qərbi Azərbaycana Qayıdış Konsepsiyası bu gün planlı şəkildə həyata keçirilir və bizi öz vətənimizə qayıdacağımız müqəddəs günə yaxınlaşdırır.

Rəhbərliyiniz altında ölkəmizin regionun önəmli güc mərkəzinə çevrilməsi, əldə edilən nailiyyətlərin miqyasının böyüklüyü, dünya birliyində davamlı yüksələn mövqeyimiz bizi daha işıqlı və xoşbəxt gələcək gözlədiyindən xəbər verir. Biz gələcəyə Prezident, Qalib Sərkərdə və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında getməkdən böyük qürur və fəxarət duyuruq.

**Dərin hörmətlə,**

***Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz ƏLƏKBƏROV,***

***Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü Misir MƏRDANOV,***

***Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid NOVRUZOV,***

***Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik Əhliman ƏMİRASLANOV,***

***Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İBRAHİMQIZI,***

***Ziyalılar Şurasının sədri, professor Elxan HÜSEYNOV,***

***Gənclər Birliyinin sədri, Milli Məclisin deputatı Ramin MƏMMƏDOV,***

***Qəyyumlar Şurasının sədri Mürvət HƏSƏNLİ.***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və bütün xalqınızı Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi, çoxdan gözlənilən tarixi ədalətin bərqərar olması münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu mühüm siyasi hadisənin məhz Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin banisi, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd edildiyi və Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətinizin 20 illiyinin tamam olduğu ildə baş verməsi həqiqətən böyük rəmzi məna kəsb edir.

Siz ən mürəkkəb və çətin məsələlərin həll edilməsi, sözünüzlə əməlinizin üst-üstə düşməsi, Vətənə, xalqa və onun tarixinə dərin məhəbbətinizlə müasir siyasətçilərin bir çoxu üçün nümunəvi siyasi xadimsiniz.

Uca Yaradan bundan sonra da Sizə yar olsun, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və tərəqqi nəsib etsin!

**Dərin hörmətlə,**

***Ruslan AUŞEV***
***Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı***

# Füzulidə "Füzuli Şəhəri Günü" təntənələri



**17 Oktyabr Füzuli Şəhəri Günüdür. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə həmin gün Füzulidə təntənəli bayram tədbiri keçirilib.**



Tədbirdə dövlət və hökumət rəsmiləri, millət vəkilləri, diplomatik korpusun nümayəndələri və digər qonaqlar iştirak ediblər.




Füzuli şəhərinə səfər edən Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələri tədbir çərçivəsində açılan sərgilərlə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, mədəniyyət naziri Adil Kərimli, diplomatik korpusun nümayəndələri, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov və qonaqlar əvvəlcə dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr olunmuş "Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!" adlı sərgiyə baxıblar.

Tədbir məkanında "100 tar" adlı kompozisiya təqdim olunub. Ustad tarzənlər, uşaq, yeniyetmə və gənclərdən ibarət 100 nəfər tarzənin ifası maraqla qarşılanıb.

Füzuli Şəhəri Gününün geniş qala-konserti təqdim edilib.

***XQ***

# Azərbaycan–Türkiyə hüquqi əlaqələri genişlənir



**Oktyabrın 17-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarçanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq özünü doğma Vətənindəki kimi hiss etdiyini, səfərin Ulu öndərin yubiley ilinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü ərəfəsinə təsadüf etdiyini bildirib, xalqlarımızın vahid millət olaraq bir-birini daim dəstəklədiyini qeyd edərək Qarabağ zəfəri və Xankəndidə Azərbaycan Bayrağının ucaldılması ilə bağlı təbrikini ifadə edib, sevincini bölüşüb.

Söhbət zamanı Azərbaycan və Türkiyənin həm ikitərəfli, həm beynəlxalq qurumlar, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığı, dövlətlərimizin başçılarının səyləri sayəsində Türk dünyasının getdikcə inkişaf etdiyi bildirilib.

F.Məmmədov bu əlaqələrin hüquqi sahəni də əhatə etdiyini, artıq Ədliyyə akademiyalarının türk şəbəkəsinin təsis olunduğunu qeyd edib, cari ayın əvvəlində Ankarada Türk Dünyası Notariuslar Birliyinin yaradılması ilə bağlı tədbirdə iştirakını və həmkarı Y.Tunc ilə məhsuldar görüşünü xatırladıb, Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada keçiriləcək türk dövlətlərin ali məhkəmələrinin təsis konfransının əhəmiyyətinə toxunub.

M.Akarça ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən hüquqi sahədə ciddi irəliləyişə nail olunduğunu vurğulayıb, Azərbaycanın Qarabağ Zəfərinin türk dünyasına yeni bir güvən və ortaq əməkdaşlıq imkanı yaratdığını söyləyib. Şuşada keçiriləcək konfransda Türk Dövlətləri Təşkilatı Ali Məhkəmələrinin Birliyinin yaradılmasının qarşılıqlı fəaliyyətə mühüm töhfə verəcəyini söyləyib.

***XQ***

# “Bütün sənədlərə veto qoyuram...”

## ATƏT-in tarixində Heydər Əliyev səhifəsi




**“Heydər Əliyev xatirələr işığında” layihəmizin qonağı tanınmış ictimai-siyasi xadim Həsən Həsənovla söhbətimiz davam edir.**

**IX SÖHBƏT**

**– Beynəlxalq aləmə səs salan 1996-cı il Lissabon zirvə görüşü. Yəqin söhbətin nədən getdiyini dərhal xatırladınız. Heydər Əliyev qətiyyətinin və siyasi uzaqgörənliyinin sərhədsiz miqyasının üzə çıxdığı həmin tədbiri necə xatırlayırsınız? Pərdəarxası məqamlar barədə yəqin indi danışmaq mümkündür...**

– 1996-cı il noyabrın 6-da Prezident Heydər Əliyev Ermənistan–Azərbaycan münaqişəsinin həlli və qarşıdan gələn Lissabon zirvə toplantısında qərarların qəbul edilməsinin zəruriliyi ilə bağlı ATƏT-ə üzv ölkələrin dövlət başçılarına müraciət ünvanladı. Məktubda nizamlanmanın əsası kimi sənədə fundamental prinsiplərin daxil edilməsinin vacibliyi qeyd edilmişdi. Əsas şərtlər belə idi – **a)** Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət, **b)** Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa geniş muxtariyyətin verilməsi və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin bütün əhalisi üçün təhlükəsizliyin təmin edilməsi. Bir sıra ölkələrdən dəstək aldıq.

Həmin illərdə ATƏT-in Minsk qrupunda sədr Finlandiya idi. 1996-cı il noyabrın 18-22-də Helsinkidə Minsk qrupu çərçivəsində aparılan danışıqlarda Ermənistan Respublikası son dərəcə mənfi mövqe tutdu və irəli sürülən təklifləri qəbul etməkdən imtina etdi. Bu toplantıda Azərbaycanı xarici işlər nazirinin müavini Tofiq Zülfüqarov təmsil edirdi.

Toplantı başa çatandan dərhal sonra Tofiq Zülfüqarov oradan birbaşa Vəfa Quluzadəyə zəng vurub bildirmişdi ki, mən burada heç bir sənədin qəbul edilməsinə nail ola bilmədim. Vəfa Quluzadə də ona deyib ki, bunu mənə niyə deyirsən, sənin nazirin var, ona de. O da mənə zəng etdi və bildirdi ki, vəziyyət belədir, Lissabon sammitinə çıxarılacaq, bizə məqbul olası heç bir sənədin qəbul edilməsinə nail ola bilmədim. Təbii ki, mən də vəziyyətin xoşagəlməz olduğunu nəzərə alaraq bunu təcili Heydər Əliyevə məruzə etdim. Vəziyyət ona görə gərgin idi ki, qısa müddətdən sonra Lissabona zirvə toplantısına getməliydik. Heydər Əliyev dedi: “Aydındır. Tofiq Zülfüqarov bizə məqbul sənədi əldə etməyibsə, sən özün get və lazımi qərarla qayıt”.

Təcili Helsinkiyə yollandım. Finlandiyanın xarici işlər naziri Tarja Halonen qadın idi və Azərbaycana açıq simpatiyası olduğunu əvvəllər də hiss etmişdim. Sonra Tarja Halonen Finlandiyanın prezidenti oldu. Helsinkidə onunla təkbətək görüşdüm və geniş söhbətimiz oldu. Hətta tarixi qohumluğumuzla bağlı da danışdım. Bu, hər hansı danışıqlarda mənim ən sevimli üsulumdur.




...1983-cü ildə Finlandiyanın Baş naziri Taysto Kalevi Sorsani Bakıya qonaq gələndə onu müşayiət etmək mənə tapşırılmışdı. O Finlandiyanın Sovet İttifaqı ilə sıx əlaqələrinin tərəfdarı idi və qonaq qismində gəlmişdi. Baş nazir təyyarədən düşən kimi mənə dedi: “Cənab Həsənov, siz bilirsinizmi ki, bizim xalqlar qohum xalqlardır?” Mən təəccüblənmədim, sevindim. Dedim: “Bilirəm”. Onunla türk və uqro-fin xalqları arasında tarixi qohumluq kökləri haqqında danışdıq. Amma Tarja Halonenə Sorsa ilə Bakıdakı söhbətlərimiz haqqında heç nə demədim, çünki o fərqli partiyanın üzvü idi .

Tarixi qohumluğumuz haqqında bir qədər söhbət etdikdən sonra gəlişimin səbəbini Tarja Halonenə söylədim. Qayıtdı ki, “cənab Həsənov, açıq deyin, nə lazımdır?” Dedim: “Xahişimi açıq deməzdən əvvəl onu bildirməliyəm ki, sizin müavininiz Hikki Talvitie, nə öz Vətəninə, nə də məsul olduğu Qarabağ probleminin həllinə işləmir”. Dedi: “Ola bilməz”. Dedim: “Sizdə keçirilən Minsk qrupunun toplantısında Lissabon sammiti üçün heç bir qərara nail olmamaq, heç də Finlandiya diplomatiyasına başucalığı gətirmir. Minsk qrupunun sədri Finlandiyadır. Lissabon zirvə görüşünə siz əliboş gedəcəksiniz, biz yox. Bizdən sənəd təqdim etmək tələb olunmur, sizdən tələb olunur. Siz etiraf etməli olacaqsınız ki, Minsk qrupuna Finlandiyanın rəhbərliyi uğursuzdur”. Mənim bu sözlərim bir anlıq onu ciddi düşündürdü və qayıtdı ki: “Mən indi neyləməliyəm?” Dedim: “Müavininizi çağırın, mən təklifimi verim”. Xarici işlər nazirinin müavini və həmçinin Minsk qrupunun sədri Hikki Talvitie gəldi. Nazir ona dedi: “Azərbaycanın xarici işlər naziri Həsən Həsənov bizdə keçirilən Minsk qrupu toplantısının nəticələrindən narazıdır. Mən səbəblər haqda sorğu-sual aparmayacam, gedin sənədin üzərində birgə işləyin və gətirin, mən imzalayım”. Müavin dedi: “Axı ermənilər yoxdular?” Nazir dedi: “Fərq etməz. Siz gərək ermənilər olanda bunu edəydiniz. O zaman etməmisiniz, indi etməlisiz. Günah sizin özünüzdədir”. Bu da çox inad etmədi və sakitcə razılaşdı.

Başqa otağa keçdik və mən onunla oturub istədiyimi diktə etdim. Tofiq Zülfüqarova da tapşırdım ki, mətni birlikdə qələmə alsınlar. Bir müddətdən sonra onlar hazır olduqlarını bildirdilər. Biz yenidən nazirin yanında toplaşıb sənədlə tanış olduq. Nazir mənim fikrimi soruşdu. Mən razılığımı bildirdim. Göstəriş verdi ki, sənədi müvafiq şəkildə çap edib imzalamaq üçün ona təqdim etsinlər. Səhərisi gün nazir məni Dövlət Rəsm Qalereyasına dəvət etdi. Sonra isə birlikdə opera tamaşasını seyr etdik. Ertəsi gün nazir mənə xəbər verdi ki, sənədi imzalayıb və ATƏT-in katibliyinə göndərib.

Əlbəttə, mən də, öz növbəmdə, Helsinkidən Heydər Əliyevə telefon açıb ölkəmizin marağına müvafiq sənədin imzalanması və ATƏT-ə göndərilməsi haqqında məruzə etdim. Heydər Əliyev razılığını bildirdi və elə həmin gün Bakıya qayıtdım.

Helsinki sənədi Lissabon sammitinin dəftərxanasına çatan kimi, Ermənistan Respublikası Prezidentinin baş müşaviri C.Liparidyan noyabrın 25-də keçirilən mətbuat konfransında rəsmi İrəvanın bu təklifə cavabını səsləndirdi. O, açıq bildirdi ki, Ermənistan Respublikası təqdim edilmiş təklifə münasibətdə veto hüququndan istifadə etmək niyyətindədir. Buna cavab olaraq biz 27 noyabrda Azərbaycan Respublikası XİN-in Bəyanatını yaydıq və bəyan etdik ki, “Azərbaycan tərəfi belə hesab edir ki, Ermənistan rəhbərliyi bu cür hərəkətlərin mümkün nəticələrini ciddi dəyərləndirməlidir, bu isə onların ölkələrinin beynəlxalq ictimaiyyətin rəyinə faktiki müxalif çıxması deməkdir.

***

Açığını deyim ki, mənim Helsinkiyə səfərim və burada mənim təkidimlə Lissabon sammiti üçün hazırlanan sənəd diplomatik fəaliyyətim dövründə baş verən ən yaddaqalan hadisələrdən biri idi. Tofiq Zülfüqarovun mənə və Vəfa Quluzadəyə Helsinkidən telefonla: “Lazımi sənəd alınmadı” xəbəri sözsüz ki, bizi çox çətin vəziyyətdə qoyurdu, çünki Lissabon sammitinə çox az vaxt qalmışdı. Bizim zirvə görüşünə əliboş getməyimiz məğlubiyyətə bərabər idi.

Bu hadisə tək mənə deyil, həmçinin Vəfa Quluzadəyə də elə təsir etmişdi. O sonralar bu haqda xatirələrində çox konkret yazırdı: “Lissabon Bəyanatının əsasını təşkil edən üç prinsipin işlənib hazırlanmasında Finlandiya rəhbərliyinin böyük köməyini qeyd etmək istərdim. Lissabon sammiti ərəfəsində Minsk qrupunun işinə böyük əhəmiyyət verən Prezident Heydər Əliyev o vaxtkı xarici işlər naziri Həsən Həsənovu müvafiq göstərişlərlə Helsinkiyə səfərə göndərdi və o da özünəməxsus enerji ilə maraqlarımıza cavab verəcək bir sənədin hazırlanması üçün hər şeyi etdi”.

Mənim 1996-cı ilin payızında Helsinkiyə bu səfərim və nümayiş etdirdiyim iş üslubu, hətta o zaman Finlandiya xarici işlər nazirinin müavini və eyni vaxtda Minsk qrupunun sədri, sonralar isə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi olan Hikki Talvitieyə də təsir etmişdi. Axı ermənilərlə birlikdə sənədin qəbulu mümkün olmadığı halda, onlar gedəndən sonra, mənim təkidim və Finlandiya xarici işlər naziri Tarja Halonenin gözlənilməz cəsarəti nəticəsində bizim üçün tarixi əhəmiyyət daşıyan sənəd qəbul olunmuşdu. Harvard Universitetində çıxış edəndə Hikki Talvitieyə belə demişdi: “Düz, açıq və səmimi danışıq aparmaq tərzi ilə, istər yaxşı, istərsə də pis mənada, heç kəsi biganə qoymayan xarici işlər naziri Həsən Həsənov idi. 1996-cı ilin payızında o, Finlandiyaya səfər etdi”. (“Foreign Minister Hasan Hasanov's straightforward negotiation style left no one could either in good or bad. He visited Finland in autumn 1996”. Çıxış “Harvard Black Sea security program 2005”-də çap olunub).

**– Bəs nümayəndə heyətimiz Lissabona gələndən sonra bu sənəd nə dərəcədə yararlı oldu, vəziyyət necə inkişaf etdi?**

– Əvvəlcə sualınıza birbaşa cavab vermək, sonra isə vəziyyətin inkişafını ardıcıllıqla söyləmək istərdim. Helsinkidə mənim və Finlandiya xarici işlər nazirinin iştirakı ilə hazırlanan sənədin əhəmiyyəti ondan ibarət oldu ki, o, məlum və məşhur Lissabon sammitində qəbul olunan Bəyanatın məzmununun əsasını təşkil etdi. Nəticəyə gəldikdə isə proses belə oldu: Mən Helsinki səfərimdən qayıdandan bir müddət sonra, Prezident Heydər Əliyevin rəhbərliyi ilə Lissabona yola düşdük. Şəhərə çatan kimi Araz Əzimov mənə dedi ki, ermənilər Helsinkidən gələn sənədi gördülər və ciddi narazılıqlarını bildirdilər. Ardınca Ermənistanın xarici işlər naziri görüşə gəlib mənə dedi: “Bəlkə o sənədi geri götürəsiniz? Əgər o sənəd qəbul edilsə, bizi yıxacaqlar. Bizdən sonra gələnlər də sizə yaxşı partnyor olmayacaqlar”. Dedim: “Sənədi biz yox, Minsk qrupuna sədrlik edən Finlandiya təqdim edib, bu, onların səlahiyyəti çərçivəsindədir”. Mən gözlədim ki, nazir mənim Helsinkiyə səfərimin və Azərbaycanla Finlandiyanın Ermənistansız qəbul etdikləri sənədin “qeyri-legitim” olduğunu deyəcək, amma demədi. Axı Helsinki sənədinin tərkibində nə Rusiya, nə də Ermənistan iştirak etməmişdilər. Amma nazir bu məsələlərə toxunmadı. Bundan sonra əlavə etdim: “Biz heç sizdən də konstruktiv münasibət görmürük”. Söhbətimiz erməni tərəfi üçün nəticəsiz başa çatdı.

Bir müddət sonra ATƏT-in katibliyindən xəbər gəldi ki, Ermənistan rəsmi şəkildə bildirib ki, Finlandiyanın təqdim etdiyi sənədə qarşı özünün veto hüququnu tətbiq edəcək. Bu, artıq çox ciddi xəbər idi və mən təcili Ermənistanın qərarı barədə Heydər Əliyevə məruzə etdim.

Heydər Əliyev nümayəndə heyətimizi topladı və üzünü mənə tutaraq soruşdu: “Həsən, bu veto əvvəllər olubmu, onun hüquqi əsası və mahiyyəti nədir?” Dedim: “Düzü, heç maraqlanmamışam ki, belə hal əvvəl olub, ya yox. Vetonun mahiyyətinə gəldikdə isə ATƏT-in Nizamnaməsində qeyd olunmuşdur ki, onun bütün qərarları yalnız konsensusla qəbul oluna bilər. Yəni əgər hətta bir ölkə belə hər hansı sənədlə razı deyilsə, o sənəd qəbul oluna bilməz”. Heydər Əliyev bunları diqqətlə dinləyəndən sonra qayıtdı: “Deməli, hər bir ölkə hər hansı sənədə veto qoya bilər?” Dedim: “Bəli!”. Dedi: “Onda hər hansı sənədə biz də veto qoya bilərik?” Dedim: “Bəli!”. Dedi: “Neçə sənəd qəbul edilir?” Dedim: “45”. Dedi: “Lap yaxşı. Onda biz toplum şəkildə ATƏT Sammitinə təklif olunan 45 sənədin hamısına veto qoyuruq”. Heydər Əliyevin bu fikrindən sonra Prezidentin katibliyinin rəisi Eldar Namazov dərhal reaksiya verdi: “Bu demokratik olmur. Demokratiya pozulur. Bizə münasibət dəyişəcək”. Heydər Əliyev buna məhəl qoymadı. Mən dərhal dedim: “Biz müharibə vəziyyətindəyik, böhran yaşayırıq, veto hüququ demokratiyanı pozmur, əksinə, bu elə özü demokratiyanın təzahürüdür”. Vəfa Quluzadə də bu fikri dəstəklədi. Heydər Əliyev sorğunu davam etdirmədi və açıq bəyan etdi: “Mənim qərarım qətidir. Gedin katibliyə çatdırın”. Hamımız otaqdan çıxdıq. Mən, o zaman Azərbaycanın ATƏT-də səfiri olan Vaqif Sadıqova tapşırdım ki, təcili Heydər Əliyevin qərarını katibliyə çatdırsın. Çox keçmədi ki, Vaqif qayıdıb dedi, “katiblik bir-birinə dəyib, təşvişdədirlər. Dedilər, “siz nə edirsiniz, tarixdə belə şey olmayıb ki, bütün sənədlərə veto qoyulsun”. Mən də güləgülə dedim: “Olmayıb, indi olacaq. Bu tarixi Heydər Əliyev yazır” və Vaqifə tapşırdım ki, katibliklə əlaqəni davam etsin.

**– Elə başa düşürəm ki, bundan sonra zirvə görüşündə vəziyyət son dərəcə gərginləşib. Sammitə toplaşan üzv ölkələrin başçıları buna necə reaksiya verdilər?**

– Lissabonda 50-dən çox ölkənin Prezidenti, Baş naziri və xarici işlər naziri toplaşmışdı. Azərbaycan nümayəndə heyətinin qərarı, sözsüz ki, onlar üçün gözlənilməz oldu. Çıxılmaz bir vəziyyət yarandı. Səhər Vaqif Sadıqov xəbər verdi ki, ATƏT üzvü olan 53 dövlətdən 32-nin rəhbəri Heydər Əliyevin qəbuluna yazılıb. Hamımız bir-birimizə baxdıq. Əslində, bu, Heydər Əliyevə təzyiq etmək istəyi idi. Məlumatı Heydər Əliyevə çatdırdım. Gülümsəyib dedi: “Lap yaxşı, bu əla fürsətdir. Bunlara dərdimizi, problemimizi deməyə yaxşı imkan yaranıb”. Təbii ki, mən də bütün görüşlərdə iştirak edirdim.

Əksər görüşlər adi normal danışıqlar şəraitində keçdi. Diplomatik partnyorlarımız müxtəlif şəkildə Heydər Əliyevi bu qərardan çəkinməyə çağırdılar. Amma ABŞ-ın vitse-prezidenti Albert Qorla görüş bir qədər gərgin keçdi. Əslində, Albert Qor çox müsbət bir insandır. Amma o, kəskin danışdı: “Vetonu geri götürün” deyərək təzyiq göstərəndə, Heydər Əliyev ona çox sərt şəkildə cavab verdi: “Bizə göstəriş vermək lazım deyil. Mən öz ölkəmi, torpağımı qoruyuram”. Qor özünü super güc olan bir dövlətin rəhbərlərindən biri kimi göstərmək istədi, amma Heydər Əliyev özünü ondan da yüksək tutdu və lazımi cavabı verdi. Bununla da söhbət bitdi. Tanımayanlar, bilməyənlər başa düşdülər ki, Heydər Əliyevə təzyiq göstərib, onu yolundan döndərmək mümkün deyil. Görüşlər Azərbaycanın mövqeyini, demək olar, leqallaşdırdı.

Amma xüsusi qeyd etməliyəm ki, məhşur ikili standart dediyimiz diplomatik üsul burada açıq-aydın özünü nümayiş etdirirdi. Axı veto təşəbbüskarı biz deyildik, Ermənistan idi. Amma bizə təsir etmək üçün hücum çəkən çoxluq təşkil edən əksər ölkələr, eyni şəkildə Ermənistana qarşı təzyiq nümayiş etdirmirdilər...

Axşam bütün nümayəndələrin iştirakı ilə rəsmi qəbul oldu. Rusiyanın xarici işlər naziri Yevgeni Primakov Heydər Əliyevə yaxınlaşıb xoş məramla dedi: “Heydər Əliyeviç, axı belə olmaz. Bunun xətası çıxacaq. Bir kompromis olmalıdır”. Mən də diqqətlə onların söhbətinə qulaq asırdım. Əslində, Primakov ermənilərin hayında deyildi. Sadəcə, bu zirvə görüşündə Minsk qrupunun sədrliyi Rusiyaya keçirdi deyə, əl-ayağa düşmüşdü. Rusiya bu sədrliyi çoxdan gözləyirdi və Heydər Əliyevin qərarının bütün bu işləri poza biləcəyindən ehtiyat edirdi. Heydər Əliyev Primakovu dinlədi və çox təmkinlə, soyuqqanlı şəkildə cavab verdi: “Hansı kompromisdən danışırsan? Bir də mənə niyə deyirsən, get onlara (yəni Ermənistan rəhbərliyinə) de kompromisə getsinlər”. Primakov dedi: “Mənim bir ideyam var”. Heydər Əliyev Primakovun ideyasını dinləmədən dedi: “Bu Həsən Həsənov, bu da sən, get ideyanı ona de”.

Biz Primakovla kənara çəkildik. O, öz ideyasını açıqlayıb bildirdi ki, ATƏT-in sənədinə veto qoymağınız əsaslıdır. Amma 54 üzv ölkədən, Ermənistandan başqa 53-ü Sizi dəstəkləyən birgə bəyanat qəbul edə bilər. Dedim: “Siz qarant verirsiniz ki, 53 ölkə bəyanata “hə” deyəcək?” Dedi: “Verirəm”. Soruşdum: “Nədi o qarant?” Dedi: “53 dövlətin rəhbəri hamısı Heydər Əliyevin qəbuluna gəlib də. Bu sizə bəs etmir?” Bu, o demək idi ki, o nümayəndələr də ölkələrinə əliboş qayıda bilməzlər. Dedi: “Bu təşəbbüsü nə Rusiya, nə biz, yalnız Finlandiya etməlidir”. İşçilərimizə tapşırdım ki, təcili Finlandiyanın xarici işlər nazirini tapsınlar. Qısa müddətdə onu tapdılar. Üçümüz birgə Primakovun təklifini müzakirə etdik. Nazir Tarja Halonen boynuna götürdü ki, bu məsələni yoluna qoyacaq və lazım olsa 53 dövlətin hər biri ilə danışıb bəyanatı qəbul etməyə razı salacaq. Yəni bu artıq ATƏT-in qərarı deyil, ATƏT-in 53 üzv dövlətinin bəyanatı olacaq. Bu, bizi qane edirdi, çünki gözlənilən məzmunda Avropanın 53 ölkəsinin birgə mövqeyini əks etdirən sənəd hələ olmamışdı və danışıqlar prosesində bu, əlverişli sənəd ola bilərdi.

Təbii ki, dərhal Heydər Əliyevə məlumat verdim. Dedi: “Mən bəyanatı görüm, sonra fikrimi deyərəm”. Mən Vəfa Quluzadənin iştirakı ilə Araz Əzimova, Tofiq Zülfüqarova və Vaqif Sadıqova Primakovla söhbətini söylədim və tapşırdım ki, Helsinkidə mənim iştirakımla hazırlanan sənədin prinsipləri əsasında Bəyanat hazırlansın. Təxminən səhər saat 5-6-da sənəd hazır oldu. Gətirib Heydər Əliyevə təqdim etdim. Oxudu, tanış oldu və bəyənəndən sonra dedi: “Həsən, sən inanırsan ki, indi onlar bizim bu sənədi qəbul edəcəklər?” Dedim: “Heydər Əliyeviç, onların başqa yolu yoxdur. Çünki qəbul etməsələr, bu beynəlxalq qalmaqal olacaq”. Heydər Əliyev bir də Primakovla görüşmək istədi. Təşkil etdik. Görüşdən sonra Heydər Əliyev razılıq verdi ki, biz artıq Bəyanatın rəsmiləşməsi ətrafında işləyək. Səhər tezdən sənədin bir nüsxəsini Finlandiyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədrinə, birini Primakova, birini də sammitin katibliyinə çatdırdıq. Vaqifə tapşırdım ki, sənədin gedişini nəzarətdə saxlasın. İclas da saat 10-da olacaqdı. Amma biz səhər saat 5-dən işləyirdik. Toplantıya yarım saat qalmış sammitə sədrlik edənlə görüşdüm. O mənə dedi: “Bütün ölkələrin razılığını aldım, bəyanat veriləcək”. İclas iştirakçıları toplanarkən, mən təkrar Finlandiya xarici işlər naziri ilə görüşdüm və Heydər Əliyevlə Albert Qorun danışığının gərginliyini nəzərə alaraq, ondan Albert Qorla danışıb-danışmadığını soruşdum. Nazir dedi: “Hər şey qaydasındadır. Albert Qor hətta söz verdi ki, çıxış edib gecə hazırlanan Bəyanatı dəstəkləsin”. Bu məlumatı da Heydər Əliyevə çatdırdım. Toplantıya artıq ümidlə gedirdik.

*(ardı var)*

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Tomas de Vallın da “quyruğu” göründü

## Qarabağdan kitab yazan ingilis ekspert Bakıya erməni ilə necə davranmaq “yol”u göstərir

**“Azərbaycan Prezidenti İlham Əliyevin “işğal edilmiş Stepanakertdəki” (?) çıxışı Ermənistan üçün yaxşı heç nə vəd eləmir”. Karneqi Avropa Mərkəzinin eksperti, Qafqaz məsələləri üzrə mütəxəssis, Qarabağ münaqişəsindən bəhs edən “Qara Bağ” kitabının müəllifi, britaniyalı jurnalist Tomas de Vall özünün X bloqunda yazdığı şərhi “news.am” saytı böyük səxavətlə dərc edib. Baş vermiş hadisəyə və real siyasi situasiyaya aşkar ermənipərəst mövqedən yanaşan ingilis jurnalist dövlət başçımızın çıxışında yalnız keçmişdəki umu-küsüləri yada saldığını, gələcək və barışıq barədə heç nə demədiyini yazır.**





O, öz ağlı və məntiqi ilə cənab Prezidentin Xankəndinin boşalmış meydan və küçələrində tək gəzməsini “Azərbaycan xalqına “ermənisiz Qarabağ” ismarıcını ötürməsinə çox bənzədiyi” versiyasını irəli sürür. Prezidentin çıxışında işlətdiyi “Azərbaycanın bütün sakinləri Allaha şükür edirlər” cümləsindəki “sakinlər” sözünə üç həftə əvvəl Qarabağı könüllü tərk etmiş ermənilərin daxil olmadığını və geri qayıtmaları üçün onlara heç bir çağırışın edilmədiyini” az qala “düşünülmüş siyasi gediş” kimi interpretasiya etməyə çalışır.

De Vallın xəstə qənaətinə görə, “İlham Əliyev sanki ermənilərin bölgədə dominantlıq etdiyi 17 il ərzində (dövlət başçımızın Vətən müharibəsinə qədərki prezidentlik dövrü nəzərdə tutulur - red) yaşadıqları aşağılamaya görə hələ də onlarla haqq-hesab çəkmək istəyir”. Bu fərziyənin ardınca “Qafqaz məsələləri üzrə ekspert “indi Azərbaycan həbsxanalarında çay içə-içə məhkəmənin hökmünü gözləyən Qarabağ ermənilərinin ələ salındığını” bəyan edir.

Nəhayət, ingilis yazarın paylaşımındakı bu tezis onun əsas məqsədinin nədən ibarət olduğunu üzə çıxarır: “Bu çıxışda Qərb ölkələrinin çağırış etdiyi məsələlərdən əsər-əlamət yoxdur. İlham Əliyev gərək Ermənistana və Nikol Paşinyana məğlub olmuş düşmən kimi deyil, tərəfdaş kimi münasibət göstərməlidir”.

Azərbaycan rəhbərliyi son üç ildə İrəvanı qonşuluq münasibətlərini bərpa etməyə, kommunikasiyaları açaraq iqtisadi-ticari əməkdaşlığa, hətta transmilli layihələrdə iştiraka dəvət edib-etməyib? Dəfələrlə edib! Bəs Qarabağ ermənilərini vətəndaşlığımızı qəbul edərək, ölkəmizin bərabərhüquqlu vətəndaşları kimi bütün imtiyazlardan yararlanmaqla qalıb yaşamağa çağırıb-çağırmayıb? Dəfələrlə çağırıb! Paşinyanın və Ermənistanın ondan əvvəlki separatçı rəhbərlərinin danışıqlarda rəsmi Bakının elçiləri ilə necə davrandıqlarından da ingilis “ekspertin” xəbəri olmamış deyil. Bunu çoxlarından yaxşı bilən və Bakıya ermənilərlə necə davranmağın “yolunu” göstərməyə cürət edən De Vallın təhrif, yalan və böhtan dolu şərhə imza atmasının səbəbi bizim üçün aydındır. Onun və onun kimi “müstəqil ekspertlərin quyruqlarının” nəyin əvəzində məlum lobbistlər və diaspor təşkilatları tərəfindən “yonulduğu” da heç kəsə sirr deyil.

* * *

Hələ altı il bundan əvvəl həmin Tomas de Vall bölgədəki durumla bağlı qələmə aldığı məqaləsində müharibə başlayacağı təqdirdə ermənilərin Azərbaycan ərazisinə “İsgəndər” raketləri ata biləcəkləri barədə belə yazırdı: “Ermənistanın 2015-ci ildə qəbul edilmiş hərbi doktrinasına görə, İrəvan Azərbaycanı çəkindirmək üçün önləyici zərbə endirə bilər”. Amma Qarabağı yaxşı tanıyan de Vall, nədənsə, 44 günlük müharibədə erməni vandalların cəbhə xəttindən uzaqdakı dinc Gəncəyə və Bərdəyə raket atmalarına, bu zaman çoxlu sayda qoca, qadın və azyaşlının həlak olmasına reaksiya verməmişdi.

Ermənistanın sabiq prezidenti, Xocalı qatili Serj Sarkisyanla müsahibəsində ona dediklərini Tomas de Vallın yadına salmağımız yerinə düşür: “Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, biz mülki əhaliyə əl qaldırmayacağıq, biz bu stereotipi sındıra bildik...”.

Təxminən on il əvvəl “Qarabağa görə önləyici zorakılığın baş qaldırmaması üçün önləyici diplomatiyaya ehtiyac var”, – yazan britaniyalı jurnalist, yəqin ki, Zori Balayanın Xocalı soyqırımı ilə bağlı qeydləri ilə də tanışdır. Əgər unudubsa, xatırladırıq: “Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq”.

* * *

Son günlər rəsmi İrəvanın və onu dəstəkləyən qüvvələrin tam gücü ilə işə saldıqları təbliğat maşını Azərbaycanın, guya, Ermənistanın cənubuna hərbi təcavüz edəcəyi barədə feyk-xəbərləri tirajlamaqla məşğuldur. Onların məqsəd və niyyətləri bəllidir: beynəlxalq ictimaiyyətin gözündə Azərbaycanın “təcavüzkar, işğalçı” obrazını yaratmaq və “sabitliyi təmin etrməkdən ötrü” bölgəyə Qərbin mülki və hərbi missiyalarını cəlb etmək. Ermənistan və onun havadarları məhz bu yolla yeni siyasi şou yaratmaq niyyətindədirlər.

“Əslində, İlham Əliyev Xankəndidə bayraq qaldırmaqla yeni oyun qurmaq istəyən tərəfləri qabaqlamış oldu”. ***Bu fikrin müəllifi, siyasi şərhçi Asif Nərimanlı hesab edir ki,*** Azərbaycan suverenliyini bərpa etdikdən sonra da erməni amili üzərindən bölgədəki maraqlarını tətbiq etməyə çalışan qüvvələr planlarından əl çəkmək istəmirlər: “Onlar növbəti, həm də son hesab edilə biləcək kartı oynamaq istəyirlər: Ermənistana gedən ermənilərin yenidən geri qaytarılması. Bu məsələdə Rusiyanın öz, Qərbin öz maraqları var. Amma hər iki tərəf siyasi oyunu eyni alətdən yararlanmaq üzərində qurur. Yəni, bölgəyə daha çox erməninin qayıtması Moskva üçün burada sülhməramlı kontingentə ehtiyacın olması deməkdir. Qərb ölkələri, xüsusilə Fransanın başçılıq etdiyi cəbhə “beynəlxalq missiya” adı altında Qarabağa daxil olmaq, rusların yerini tutmaq istəyir. Fransa “Ermənilərin Qarabağa qayıtması” məsələsini BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarmağa, bununla bağlı qətnamənin qəbul edilməsinə hazırlaşır. Bu ölkənin xarici işlər naziri Ketrin Kolonna da açıq şəkildə bildirdi ki, “ermənilərin qayıda bilməsi üçün daimi beynəlxalq iştirak lazımdır və Fransanın əsas məqsədi də budur”.

A.Nərimanlı qarşıdakı dövrdə ermənilərin Qarabağa qayıtması məsələsi üzərindən Azərbaycana qarşı kampaniyanın genişlənəcəyini istisna etmir: “Amma bu planların perspektivi yoxdur. Birincisi, işğal dövründə yaşadıqları ərazilərdə Azərbaycan Bayrağının dalğalanmasını görən ermənilərin böyük əksəriyyəti geri qayıtmaq istəməyəcək. İkincisi, çox az hissəsi geri qayıtmaq istəsə də onlar Azərbaycan Bayrağı altında bizim vətəndaşımız olaraq yaşamalı olacaqlar. Bu isə erməni sakinləri vasitəsilə separatizm planlarının beynəlxalq hüquq və yerli qanunvericilik çərçivəsində qarşısını almağa imkan verəcək”.

* * *

Azərbaycanın heç vaxt özgəsinin torpağında gözü olmayıb. Biz öz halalımız olan tarixi yurdumuza sahib çıxmışıq. Daim haqqı və ədaləti prioritet kimi qəbul edən suveren dövlətimizə “təcavüzkar”, “işğalçı” kimi yamaqlar qətiyyən yapışmaz. ABŞ Senatının ermənipərəst üzvlərinin Azərbaycanın Ermənistana (onlar Zəngəzuru nəzərdə tuturlar –red.) hərbi təcavüzə hazırlaşdığı ilə bağlı yalan və böhtan dolu açıqlamalarına cavabı Azərbaycan Prezidenti İlham Əliyev dünən “Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə verdi: “Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə çalışırlar. Mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq”.

Cənab Prezidentin bu ismarıcını daşnak-revanşist haylara “züy tutmaqda” davam edən xarici güclər, mərkəzlər, konqresmenlər də eşitdilər. Eşitmək azdır, eyni zamanda qulaqlarında sırğa etsinlər ki, bundan sonra heç nəyə nail ola bilməyəcəklər.

Biz sadəcə doğma yurdumuzu yadellilərin işğalından qurtarmamışıq, eyni zamanda, erməni separatizmi və faşizmi, eləcə də hayları müdafiə edənlərin üzərində diplomatik qələbə çalmışıq. Biz həmin qələbəmizlə həm də xaricdəki ermənipərəst dairələrin ölkəmizə qarşı mümkün təzyiq cəhdlərinin, Cənubi Qafqazda suyu bulandırmaq ssenarilərinin qarşısını almışıq.

***İmran BƏDİRXANLI***
***XQ***

# Qara çadralı casusun “ağ yalanı”

**Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsi və 24 saatdan az müddətdə həyata keçirdiyi antiterror tədbirləri nəticəsində özünün 30 ildən bəri pozulmuş ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra dost ölkələri sevindirdiyi kimi, düşmənləri, o cümlədən Fransanı kədərləndirdi. Eyni zamanda, ermənipərəst siyasətçilər, jurnalistlər, blogerlər də bu qələbələrimizdən yasa batdılar.**

Bu gün Ermənistanın ayrı-ayrı saytlarında belə blogerlərin təxribatçı, şantaj xarakterli çıxışları yayılmaqdadır. Elə Ermənistanın “News.am” saytında tez-tez yalan statusları yayılan ABŞ-li jurnalist Lindsi Snell kimi. Budur, xanım Snell X sosial şəbəkəsində yazır ki, oktyabrın 13-də İsraildən silah yüklənmiş növbəti təyyarə Azərbaycana enib: “Bu silahlar Ermənistana hücum üçün nəzərdə tutulub”.



İlk cümlədəncə “xoruzun quyruğu” görünür. Birincisi, silahların göndərilməsi ilə bağlı məxfi informasiyalar xanım Lindsinin əlinə belə asanlıqla keçə bilməz. Dünyada hər gün nə qədər silah-sursat satışı həyata keçirilir, amma bunlar dövlətlər tərəfindən məxfi saxlanılır. İkincisi də, xanım Lindsi lap təyyarənin yanında dayanıb o silahların yükləndiyini görsə də, onların Azərbaycanda yerə endiyini bilməsi mümkün deyil. Odur ki, bu yalan məlumatın ona erməni dostları tərəfindən göndərildiyi şübhə doğurmur.

Daha sonra o yazır: “Amerikalı vergi ödəyiciləri İsrailə silah göndərir ki, Qəzzaya hücum etsin. Öz ərazisində müharibə getdiyinə baxmayaraq, İsrail özünün müqavilə öhdəliklərini yerinə yetirir”.

Bax, bu sətirlərdə xanım yazarın niyyəti tam aydın olur: ABŞ İsrailə silah göndərir ki, Qəzzaya hücum edilsin. Amma İsrail Azərbaycana silah göndərir. Belə çıxır ki, xanım Lindsinin fikrincə, Qəzzaya hücum normal, amma Ermənistana hücum qeyri-normaldır. Niyə? Bəs bu xanım üçün haqq-ədalət adlı bir ölçü yoxdurmu? Yəni, Ermənistan 30 il ərzində Azərbaycana hücum edib onun ərazisinin 20 faizini işğal edə, əhalisinə qarşı etnik təmizləmə, soyqırımı həyata keçirə bilər, amma Azərbaycan kimdənsə silah alıb Ermənistanı özünün tarixi torpaqlarından qovub çıxara, haqqı, ədaləti, beynəlxalq hüququ bərpa edə bilməz. Maraqlıdır, niyə? Budur ikili standartların real nümunəsi!

Lindsi Snell həmin saytda verilmiş başqa bir statusunda bəyan edir ki, Azərbaycan Silahlı Qüvvələri tərəfindən gördüyü “qəddarlıq və zorakılığı” heç vaxt görməyib: “Mən Suriyada oluram. İraqda, Liviyada, Fələstində, Ukraynada ... reportajlar hazırlamışam. Amma Azərbaycandakı qəddarlığı heç yerdə görməmişəm”.

Görünür, erməni dostları ona da ABŞ prezidentliyinə uğursuz namizədə göndərdikləri Gəncəyə, Tərtərə və digər Azərbaycan ərazilərinə Ermənistanın hücumları əks olunmuş videoları təqdim ediblər. Bu barədə Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını qəbul edərkən danışıb: “Dünən mənə bir videosüjet təqdim etdilər. Həmin videoda ABŞ prezidentliyinə namizəd Azərbaycana qarşı ittihamlarla çıxış edir və bu zaman ermənilər tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı kadrları nümayiş etdirir. Belə saxtakarlığa və həyasızlığa yol verəcək qədər simasızlaşmaq qeyri-mümkündür. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan münaqişə zonasından yüz kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi uzaqmənzilli artilleriyadan, o cümlədən ballistik raketlərdən atəşə tutdu. Bunun nəticəsində bizim uşaqlar da daxil olmaqla, yüzdən artıq mülki vətəndaşımız həyatını itirdi. Məhz sözügedən həmin namizəd Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücumlarının kadrlarını nümayiş etdirir. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar? Onlar heç nə eşitmək istəmirlər. Onlar mərkəzdən verilən təlimata uyğun hərəkət edirlər. Ona görə də biz indi Azərbaycana qarşı aparılan misli görünməmiş informasiya müharibəsi ilə üz-üzə qalmışıq. Biz, əlbəttə, öz gücümüzlə buna müqavimət göstəririk, baş verənlərlə bağlı həqiqətləri çatdırmağa çalışırıq və çatdırırıq”.

Tamamilə aydındır ki, xanım Lindsi də “mərkəzdən verilən təlimata uyğun” hərəkət edir. Onun Qarabağ ermənilərinin Ermənistana könüllü getməsi ilə bağlı bir azca da olsa məlumatı olsaydı, yaxud bununla bağlı videokadrlara baxmış olsaydı, heç zaman belə bir status yayıb özünü bədnam etməzdi. Onun bu statusu isə bütünlüklə biabırçılıq, Prezidenin sözü ilə desək, simasızlıqdır. İndi bu xanıma nə deyəsən, nə başa salasan?! Əmrini “mərkəzdən”, çox ehtimal ki, erməni lobbilərindən almış bu yazara nəyisə başa salmağın faydası olacaqmı?!..

Bir qədər də xanım Lindsi Snellin şəxsiyyəti haqqında. İnternetdə axtarış verən kimi, bu xanımın bu ilin avqustunda Suriyadan Türkiyəyə keçərkən hərbi zona qaydalarını pozmaqda, Türkiyə ərazisinə qanunsuz, casus kimi daxil olmaqda ittiham edilərək həbs olunduğu üzə çıxır. Bununla bağlı böyük hay-küy qalxıb, məsələyə Dövlət Departamentinin rəsmisi Con Kirbi münasibət bildirib. Əsasən ara qarışdırmaqla məşğul olan bu xanım hətta sosial şəbəkələrdə paylaşdığı fotolarda müsəlman olduğunu bildirib. O, Türkiyəyə keçərkən Suriyadakı ABŞ hərbi təyyarələri tərəfindən axtarılıb, lakin tapılmayıb. Sonra Türkiyə mətbuatı, o cümlədən “Hüriyyət” onun, sadəcə, bir casus olduğu barədə yazıb. Bu fakt da sübut edir ki, ondan yalnız təxribatçı yazılar gözləmək olar. Başqa heç nə. Digər tərəfdən, onun Ermənistanın məğlubiyyətdən sonra yeni başladığı informasiya müharibəsinə cəlb olunduğu da istisna deyil.

Sonda Azərbaycan Prezidentinin söylədiyi bir həqiqəti xatırlatmağı vacib hesab edirik. Bəlkə gələcəkdə bu hədyan yazanlardan kimsə haqqı, həqiqəti dərk etdi. Prezident İlham Əliyev deyib: “Azərbaycan həm işğal müddətində, həm İkinci Qarabağ müharibəsində, həm də antiterror tədbirləri zamanı bütün humanitar normalara riayət edib. Beynəlxalq ekspertlər bunun şahididirlər. Yeri gəlmişkən, bu yaxınlarda azad edilmiş ərazilərdə səfərdə olan BMT missiyası dünən və bundan, təxminən, bir həftə əvvəl artıq iki dəfə məhz bunu vurğulayıb ki, bütün humanitar normalara əməl olunub. Bununla belə, Qərbdəki erməni havadarları Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl ataraq hər şeydə bizi ittiham edirlər. Burada əsas skripkanı çalan Fransadır və bu, həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir. Azərbaycan işğalçı kimi təqdim edilir, Ermənistan isə qurban kimi qələmə verilir”.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Qız evində toydur, oğlan evinin xəbəri yoxdu

**(əvvəli 1-ci səhifədə)**

Yeri gəlmişkən, Nikol Qranadada Azərbaycanın 86,6 min kvadratkilometr ərazidə suveren hüquqlarını tanısa da, Azərbaycan Ermənistanın ərazisinin 29,8 min kvadratkilometr göstərildiyi bəyannaməyə imza atmamış durumdadır. N.Paşinyan isə sözügedən müsahibəsində dördtərəfli görüşü şərh edərkən bildirmişdi ki, toplantının əhəmiyyəti iki mühüm bəyanatla səciyyələndirilə bilər. İlk bəyanatı prezident Makron, Kansler Şolts, Ş.Mişel və onun özü imzalayıblar. Sənəd Aİ-nin Ermənistanla münasibətlərin dərinləşməsinə dair konsensusunu vurğulayır. Avropa Komissiyasının sədri Ursula fon der Lyayen tərəfindən də imzalanmış ikinci bəyanat isə özündə regiondakı sülhün əsas sütunlarını ehtiva edir. Hər halda, Ermənistanın baş naziri belə deyir. Onun söylədiklərindən bu anlaşılır ki, həmin sütunlara Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün qarşılıqlı tanınması, 1991-ci il tarixli Alma-Ata sazişi əsasında sərhədlərin delimitasiyası, suverenliyə hörmətlə yanaşılmaqla regional kommunikasiyaların açılması daxildir.

Əsas məsələlərdən biri də budur ki, ikinci sənəddə Qarabağa qarşı güc tətbiqi pislənilib, region əhalisinin məcburi köçürüldüyü vurğulanıb, həmçinin humanitar vəziyyətin idarə olunmasında Aİ və ABŞ-ın Ermənistanı dəstəkləməyə hazır olduğu əksini tapıb. Bəyanatda, eyni zamanda, Qarabağ ermənilərinin ilkin şərt olmadan geri qayıtmaq hüququ da diqqətə çatdırılıb. Paşinyanın onu da bildirmişdi ki, sənədin məxsusiliyi onun dördtərəfliliyidir, lakin Azərbaycanın imzasının olmaması ilin sonuna qədər sülh sazişinin imzalanması ehtimalı ilə bağlı suallar yaradır. Baş nazirin fikrincə, Bakı bu bəyanatı imzalasaydı, sülh sazişi ehtimalı yetmiş faizdən çox olardı.

***

Hazırda Kostanyanın narahatlığı isə onu göstərir ki, tərəfdaşları Ermənistanı aldadıblar. Hər halda, XİN rəhbərinin müavini elə-belədən deməz ki, kimlərsə özlərinin ikitərəfli gündəmlərini təbliğ etməsinlər. Görəsən, ikitərəfli gündəm nə deməkdir? Suala cavab vermək o qədər də çətin deyil. Birincisi, Kostanyan tərəfdaş dedikdə, çox güman böyük ölçüdə Avropa İttifaqını nəzərdə tutur. İkitərəfli gündəmə gəldikdə, bu, Aİ-nin Azərbaycanla enerji sahəsindəki əməkdaşlığıdır. Yəni, Kostanyan demək istəyir ki, Bakı-İrəvan münasibətləri baxımından bu əməkdaşlığın prioritetləri əsas götürülməsin.

Sual olunur: Əsas götürülməli olan nədir? Qranadada Azərbaycanın iştirakı olmadan qəbul edilən sənədlər? O sənədlər ki, orada Azərbaycan Qarabağdan erməni köçünə görə, az qala, müqəssir kimi qələmə verilir? Əlbəttə, bu məntiq keçərsizdir. Ancaq hər şeyi əvvəldən düşünmək lazım idi. Yəni, sözügedən sənədləri böyük qalibiyyət kimi təqdim edəndə. Əlbəttə, İrəvanın Bakı üzərində hansısa formalı qələbəyə, bir növ, tamarzı qaldığını anlamaq mümkündür. Ancaq reallıqlardan uzaq düşmək yolverilməzdir.

***

V.Kostanyan hava limanında Azərbaycan və Ermənistan liderlərinin gözlənilən növbəti Brüssel raundu kontekstində jurnalistlərə onu da bildirib ki, Ermənistan Ş.Mişelin dəvətini qəbul edib, Belçikanın paytaxtında keçiriləcək görüşdə iştiraka hazırdır və mövcud istiqamətdə avropalı tərəfdaşlarla iş aparılır. İşin mahiyyətinə gəlincə, o, məsələyə Brüsseldə hansısa sənədin imzalanması gözləntisinə dair suala cavabı ilə aydınlıq gətirməyə çalışıb. Qranadadakı sənədlər üzərində dayanan nazir müavini deyib: “İndi, guya, Azərbaycan tərəfi müəyyən mövqe tutmalı və Qranada bəyannaməsində qeyd olunan təlimatlarla bağlı öz mövqeyini açıq şəkildə bildirməlidir”.

***

Sonda bir daha vurğulayaq ki, Azərbaycanın mövqeyi bəllidir. Ölkəmiz özünün iştirakı olmadan ərsəyə gəlmiş heç bir sənədin prioritetliyini qəbul etmir. Həm nazir müavini Kostanyanın, həm də baş nazir Paşinyanın fikirlərindən anlaşılan isə budur ki, Ermənistan üçün ehkamlaşmış mahiyyət daşıyan Qranada sənədləri əsas götürülməsə, növbəti Brüssel raundu alınmaya bilər. Şübhəsiz, hadisələr buna doğru getsə, məsələ İrəvanın sülhdən yayınması kimi qiymətləndiriləcək. Ancaq sual olunur ki, duruma görə günahkar yalnız Paşinyanın administrasiyasımı olacaq? Xeyr.

Eyni dərəcədə Kostanyanın tərəfdaşlarımız məntiqindəki qütblər də məsuliyyət daşıyırlar. Onlar Qranadada “sülhsevərlik şousu” düzəltməməli, öz imzalarına hörmətlə yanaşmalı idilər. Nəzərə almalı idilər ki, siyasi həyasızlıq yolu tutan Ermənistan hakimiyyəti həmin sənədlərdə göstərilənlər reallaşmayacağı təqdirdə, onları beynəlxalq ictimai rəyə ittiham kimi sırıyacaq. Artıq Kostanyan ittiham yağdırmağa start verib. Belə getsə, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və baş nazir N.Paşinyan da, belə demək mümkünsə, ittiham trendinə qoşulacaqlar. Nəticə etibarilə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını yenə də gözləmək lazım gələcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Amerika jurnalı Qafqazda yeni toqquşma ehtimalı barədə

**ABŞ-ın Kuinsi Məsuliyyətli Hökumət İnstitutunun "Responsible Statecraft" jurnalında Azərbaycan-Ermənistan münasibətlərinə, ölkəmizin suverenliyini tam bərpa etdikdən sonra Cənubi Qafqazda münasibətlərə həsr olunmuş analitik məqalə yayımlanıb. Məqalədə bir sıra maraqlı məqamlar yer alıb ki, onları dəyərli oxucularımızla bölüşməyi vacib sayırıq.**



İlk vurğulanmalı məqam Azərbaycanın Qarabağ münaqişəsində son qələbəsinə təsir göstərən amillərin sadalanmasıdır. Yazıda həmin amillərin Cənubi Qafqaz regionunun mürəkkəb tarixindən qaynaqlandığı önə çəkilib. Məqalə müəllifinin fikrincə, Ermənistan və Azərbaycan arasında ölçü, əhali və resurslar baxımından bərabərsizliklər də ikincinin üstünlüyünü şərtləndirməkdədir. "Təbii resursları az olan Ermənistandan fərqli olaraq, Azərbaycan enerji ilə zəngin ölkədir və buna görə silah-sursat alınmasına böyük məbləğdə vəsait xərcləməyə qadirdir. Əlavə amillərə gəlincə, bura Ermənistanda ölkənin xarici siyasət istiqaməti ilə bağlı davamlı daxili siyasi fikir ayrılıqları, həmçinin Ermənistan və Qarabağın siyasi elitaları arasında rəqabət və fikir ayrılıqları daxildir", – deyə İrəvanı Bakı qarşısında zəif salan cəhətlərə nəzər salınıb.

Digər tərəfdən, məqalədə bildirilib ki, Ermənistan Sovet İttifaqının dağılması nəticəsində müstəqillik əldə etdikdən sonra böyük ölçüdə Rusiyanın dəstəyindən asılı hala düşdü. Lakin, əsasən, Ukraynadakı müharibə səbəbindən, Moskvanın prioritetləri dəyişdi. Həm Türkiyə, həm də Azərbaycan onun üçün daha çox əhəmiyyət kəsb etdi. Ukrayna müharibəsi fonunda Azərbaycanın Qərb üçün də önəmi artdı. Bu isə o demək idi ki, nə Avropa, nə də ABŞ Bakını cilovlamaq üçün ciddi riskə getməyə razı olmadı.

"Nəhayət, beynəlxalq və regional geosiyasi rəqabət və Ermənistanın zəif geosiyasi mövqeyi onun son məğlubiyyətinə səbəb oldu. Bu amillər sırasında Avrasiyaya nəzarət uğrunda daha genişmiqyaslı Rusiya-Qərb rəqabəti də var, Vaşinqtonun Cənubi Qafqazda "soyuq müharibə"dən sonra formalaşmış iqtisadi və təhlükəsizlik strukturlarında Tehranın hansısa rolunun inkarı naminə 30 illik səyləri də. Üstəlik, Azərbaycanın Xəzər dənizi və Mərkəzi Asiyadan neft və qazın Qərb bazarlarına nəqli üçün boru kəmərlərini inşa etməsi də nəzərə alınmalıdır" kimi fikirlərin əksini tapdığı məqalədə o da bildirilib ki, Birləşmiş Ştatlar və Avropa öz məqsədlərinə çatmaq naminə, faktiki olaraq, Türkiyəyə Qafqazda və Mərkəzi Asiyada həm Mərkəzi Asiya dövlətləri tərəfindən nümunə götürüləcək bir modelə çevrilmək şansı, həm də Qərbin əsas regional tərəfdaşı kimi aparıcı rol verdi. Ermənistan müstəqillik illərində bu gedişatı görmədi, Türkiyə ilə razılığa gəlmək üçün Qərblə yaxınlaşmadı. Buna ermənilərin Osmanlı İmperiyası və Türkiyə ilə ədavəti maneçilik törətdi və İrəvan nəticə etibarilə Rusiya ilə daha sıx işlədi.

Məqalədə, eyni zamanda, bildirilib ki, Ermənistan Qərblə əlaqələri qoruyub saxlasa da, hətta NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulsa da, Qərblə dini və mədəni əlaqələrə, orada fəal diaspor strukturuna malik olsa da, İrəvanın illərlə Moskva ilə daha sıx əlaqələri Qərbin ona qarşı inamsızlığının davam etməsinə səbəb oldu. Zaman keçdikcə Azərbaycanın enerji resurslarının cazibəsi Qərbin müqavimət göstərə bilməyəcəyi qədər gücləndi.

Məqalədə Türkiyə və Azərbaycanın əhatəsində olan Ermənistanın müstəqillik illərində konstruktiv əlaqələr qurduğu İrana Azərbaycana potensial əks mövqedə dayanmış qüvvə kimi baxması vurğulanıb. Lakin ölkənin şimal-qərbində cəmləşmiş azərbaycanlı əhalisinə qarşı düşmənçilik etməkdən ehtiyatlanan və müsəlman və əsasən şiə ölkəsinin müqavimətindən narahat olan İranın İrəvana adekvat yanaşma tərzi məhdudiyyətli idi. Eyni zamanda, Moskva Ermənistanın Rusiyadan asılılığını artırmağa çalışaraq, İrəvanın Tehranla daha sıx iqtisadi və enerji əlaqələrini inkişaf etdirməsini çətinləşdirib. Bir sözlə, ABŞ-ın İranı cilovlaması və Rusiyanın Ermənistana nəzarət etmək istəyi İrəvanı alternativ dəstək mənbələrindən məhrum edib.

Məqalədə, diqqət çəkən məqamlardan biri də İsrail amilinə fokuslanmadır. Bildirilib ki, Yaxın Şərqin ən mühüm hərbi gücü və İran İslam Respublikasının düşməni olan İsrailin müdaxiləsi regiondakı vəziyyəti daha da mürəkkəbləşdirib. Müsəlman dövlətləri ilə diplomatik əlaqələrini genişləndirmək istəyi və İrana qarşı düşmənçiliyi İsraili Azərbaycana daha da yaxınlaşdırıb. Vaxt keçdikcə İsrail Bakının əsas silah tədarükçüsünə çevrilib və 2016-2020-ci illər arasında ən qabaqcıl silah sistemləri də daxil olmaqla, ümumi silah idxalının 69 faizini Bakıya yönəldib. Bütün bunlar 44 günlük müharibədə başlıca rol oynayıb.

Əlbəttə, məqaləni tam şəkildə obyektiv saymaq mümkün deyil. O cümlədən, orada Türkiyə ilə bağlı fikirləri. Həm də ona görə ki, qardaş ölkə hazırda regional və qlobal gücdür. Onun iddiaları tamamilə əsaslandırılmışdır. O ki qaldı, Zəngəzur dəhlizi məsələsinə, Türkiyənin bütün türk xalqlarını birləşdirəcək birbaşa quru yolu həyata keçirməyə ümid bəsləməsi qanunauyğundur. Bir məqam da var ki, bu yolda yalnız Ankara maraqlı deyil. Məsələ dünya üçün də önəmlidir. Mövcud xüsusda Ermənistanın dirənişi isə tam anlamsızdır. Həm də ona görə ki, ölkənin Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolun açılmasını təmin etməklə bağlı öhdəliyi var. Söhbət Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatından gedir. Daha doğrusu, sənədin 9-cu bəndindən.

Məqalədə bildirilir ki, Qarabağ cəbhəsində tam qələbə diqqəti Zəngəzur dəhlizi istiqamətinə yönəldəcək. Mövcud xüsusda Türkiyənin hədəflərini nümayiş etdirən ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 25-də Naxçıvana səfəri önə çəkilib. Həmin səfər zamanı Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevlə görüşməsi və Zəngəzur dəhlizinin açılmasından danışılması üzərində dayanılıb. Məqalədə vurğulanıb ki, bütün bu hadisələr İranı narahat edir. Ümumən İran uzun müddətdir Azərbaycanın öz ərazisinə İsrail-Amerika hücumu üçün potensial meydança ola biləcəyindən narahatdır.

Məqalədə, həmçinin bildirilib ki, İran regionda istənilən digər ərazi dəyişikliyinə, xüsusən də onun Ermənistanla ümumi sərhədini ləğv edəcək dəhlizin yaradılmasına qarşı olduğunu açıq şəkildə bildirib. Oktyabrın əvvəlində İran Prezidenti İbrahim Rəisi bu fikri Ermənistanın və Azərbaycanın rəsmilərinə deyib. Əvvəllər isə ölkə parlamentinin üzvləri İranın Ermənistanla sərhədində hər hansı dəyişikliyə dözməyəcəyi barədə xəbərdarlıq etmişdilər və Tehranın nüfuzlu "İran diplomatiyası" nəşrində dərc olunmuş məqalədə hətta İrana birtərəfli qaydada Qarabağ, Naxçıvan və Zəngəzurda 20 millik bufer zona yaratmağı təklif etmişdilər. Məqsəd bu idi ki, İran ərazisinə hansısa müdaxilənin qarşısı alınsın. Buna görə də bir il əvvəl İran Azərbaycanla sərhədində genişmiqyaslı hərbi təlimlər keçirərək, onun zərərinə gələcək ərazi dəyişikliklərinə müqavimət göstərmək əzmini nümayiş etdirmişdi.

Bütün bu kimi məqamların vurğulandığı məqalədə belə nəticəyə gəlinib ki, son Qafqaz münaqişəsi hələ bitməyib və qarşıda daha böyük toqquşmalar ola bilər. Xüsusən də Azərbaycan Türkiyə və İsrailin dəstəyi ilə İrana qarşı inciklikləri davam etdirərsə. Məqalədə son vaxtlar Bakı və Tehranın ikitərəfli münasibətləri normallaşdırmağa çalışdığı və hətta İrandan keçməklə Naxçıvana yeni tranzit marşrutunun açılmasını müzakirə edildiyi barədə xəbərlərin yayılmasına və bunun Tehranın bəzi əsas narahatlıqlarını azalda biləcəyi vurğulansa da, əlavə edilib ki, İran və Azərbaycan arasında köklü gərginlik mənbələrinin tez bir zamanda həlli ehtimalı azdır və mövcud səbəbdən potensial münaqişə riski yüksək olaraq qalır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Paşinyan Avropaya daha çox əl açır

## Hay baş nazirin Strasburqa dünənki səfəri bununla yadda qaldı

**Ermənistan rəhbərliyi Azərbaycan torpaqlarını işğal altında saxladığı müddətdə xaricdəki erməni diasporundan külli miqdarda pul qoparırdı. Qarabağ məsələsi ölkənin hakim zümrəsi üçün yaxşıca qazanc mənbəyinə çevrilmişdi.**



Uzun illər Qarabağ adına pulların yığılması ilə əsasən 1994-cü ildə erməni diasporunun kompakt yaşadığı Kaliforniya ştatının Los-Anceles şəhərində yaradılan "Hayastan" ümumerməni fondu məşğul olub. Əsas ofisi ABŞ-da yerləşən fondun 15 ölkədə (Kanada, Braziliya, Argentina, Böyük Britaniya, Fransa, Niderland, Almaniya, İsveç, İsveçrə, Avstriya, Yunanıstan, Kipr, Livan, Suriya və Avstraliya) törəmə müəssisəsi var idi. Fond 1997-ci ildən etibarən telemarafonlar keçirirdi. Bütün dünyada yayımlanan telemarafonlar vasitəsilə ianələr toplanırdı. Dünyanın müxtəlif ölkələrindəki varlı ermənilər, iş adamları, eləcə də sadə ermənilər fonda vəsait köçürürdülər. Toplanan vəsait, guya, Qarabağda infrastrukturun bərpasına – Ermənistanın müxtəlif şəhərləri ilə Qarabağ arasında yolların çəkilişinə, xəstəxanaların, məktəblərin inşasına, əhalinin içməli su ilə təminatına sərf olunurdu. Yeri gəlmişkən, 2020-ci il oktyabrın 10-da – İkinci Qarabağ müharibəsi ilə əlaqədar vəsait toplamaq üçün xüsusi telemarafon keçirilmişdi. Bu zaman 30 milyon dollardan çox vəsait yığılmışdı.

Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfər, deyəsən, "Hayastan" fondunun da "Miatsum", separatizm kitabı kimi bağlanmasına səbəb olub. Deyəsən, bu fond da Qarabağın statusunun yanına gedib. Hər halda 2020-ci ildən sonra "Hayastan"dan heç bir əsər-əlamət yoxdur. Onun sonuncu telemarafonu da elə 2020-ci ildə keçirilib. Halbuki, Vətən müharibəsindən sonrakı 3 il ərzində Qarabağın kiçik bir hissəsinə hələ də separatçılar nəzarət edirdilər. "Hayastan" fondu isə proseslərdən tamamilə çəkilmişdi. Bu da səbəbsiz deyildi. Görünür, fonda köçürmələr edən ermənilər başa düşmüşdülər ki, onların uzun illər ödədikləri vəsait əhali üçün hansısa işlərin görülməsinə sərf olunmayıb, tam əksinə, Ermənistanı idarə edən mafiozların ciblərinə axıb.

"Hayastan" fondu ilə bağlı məsələni xatırlatmağımız təsadüfi deyil. Qeyd etdiyimiz kimi, Qarabağ məsələsi Ermənistanı idarə edənlər üçün gəlir mənbəyi idi. Azərbaycan sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirləri keçirərək Qarabağın qalan hissəsini azad etsə də, separatçı rejim özünü buraxsa da, oktyabrın 15-dən Xankəndinin mərkəzində Dövlət Bayrağımız dalğalansa da, rəsmi İrəvanın Qarabağ manipulyasiyası bitmək bilmir. Onlar indi də Qarabağdan könüllü köç edən əhalinin adından yararlanaraq, Avropanın müxtəlif ölkələrinin hökumətlərindən, nüfuzlu maliyyə institutlarından pul dilənməklə məşğuldurlar.

Ermənistan baş naziri Nikol Paşinyanın oktyabrın 17-də "Avropanın parlament paytaxtı" olan Strasburq şəhərinə (1949-cu ildən Avropa Şurasının, 1992-ci ildən Avropa Parlamentinin iqamətgahı burada yerləşdiyi üçün şəhər 1992-ci ildən "Avropanın parlament paytaxtı" statusuna malikdir – S.H.) işgüzar səfəri zamanı keçirdiyi görüşlər zamanı səsləndirdiyi fikirlər belə deməyə əsas verir.

Paşinyanı Avropa Parlamentinin binasının girişində qurumun sədri, maltalı siyasətçi Roberta Metsola qarşılayıb. Bu zaman Nikolun Strasburqa üç qızı ilə gəldiyi məlum olub. Bunun nə məqsəd daşıdığı müəmmalı olaraq qalıb.

İkitərəfli görüşün sonunda birgə mətbuat konfransı keçirilib. Paşinyan Qarabağ erməniləri üçün vəsait istədiyini mətbuat konfransında dilə gətirib: "Biz bir sıra problemlərin aradan qaldırılmasında Avropa İttifaqının əhəmiyyətli dəstəyini gözləyirik. Söhbət həm də 100 mindən çox ermənin Qarabağdan məcburi köçürülməsi (?) nəticəsində Ermənistanda yaranmış humanitar problemlərin aradan qaldırılmasından gedir. Burada təcili dəstəyə ehtiyacımız var".

Qeyd edək ki, Ermənistan baş naziri Qarabağ ermənilərinə daha çox pul ayrılması üçün bütün platformalardan istifadə etməyə çalışır. Bunun ən mühüm örnəyi Avropa Siyasi Birliyinin oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilən III sammiti oldu. Həmin sammit zamanı N.Paşinyan Almaniya Kansleri, Avropa İttifaqı Şurasının prezidenti, Avropa Komissiyasının sədri, Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi, Avropa Parlamentinin sədri, Yunanıstanın, Norveçin, Finlandiyanın, İslandiyanın, Niderlandın, Xorvatiyanın, Latviyanın baş naziri, Fransanın, Litvanın, Monteneqronun, Ukraynanın və Makedoniyanın prezidentləri ilə qısamüddətli danışıqlar aparmışdı. Ermənistan hökuməti N.Paşinyanın yardım istəməsini "görüşdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən Qarabağdan erməni əhalinin köçməsi nəticəsində yaranmış vəziyyət müzakirə olunub" sözləri ilə pərdələməyə çalışmışdı. Ancaq hər kəs Paşinyanın bu şəxslərlə görüşlərdən umacağının nə olduğunu yaxşı bilirdi.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Paşinyanla görüşdə qeyd etmişdi ki, Avropa İttifaqı Qarabağ ermənilərinin humanitar problemlərinin həllinə kömək etmək üçün Ermənistana lazımi dəstəyi verməyə hazırdır. O bildirmişdi ki, Mülki müdafiə və humanitar yardım üzrə Avropa Komissarı gələcək ehtiyacları qiymətləndirmək üçün Ermənistana səfər edəcək.

Bundan əlavə, oktyabrın 6-da İrəvanda Avropa İttifaqının Böhranların idarə edilməsi üzrə komissarı Yaneş Lenarçiçi qəbul edən Paşinyan bildirmişdi ki, "100 mindən çox Qarabağ ermənisinin məcburi köçkünə çevrilməsi nəticəsində yaranmış böhranın aradan qaldırılması üçün" beynəlxalq ictimaiyyətin maliyyə dəstəyinə ehtiyac var. Y.Lenarçiç yaranmış problemlərin yüngülləşdirilməsi və aradan qaldırılması üçün Aİ-nin Ermənistan hökumətinə və Qarabağ ermənilərinə yardım göstərmək öhdəliyini bir daha vurğulamışdı.

Beləliklə, N.Paşinyanın Strasburqa – Avropa Parlamentinin iqamətgahına dünənki səfərinin "qoca qitə"dən daha çox dilənməklə yadda qaldığını desək, heç də səhv etmərik.

***

Ancaq səfəri "yaddaqalan" edən başqa məqamlar da var. Bunlardan biri də Nikolun "Avropanın parlament paytaxtı"nda Rusiyadan uzaqlaşmaq kursu götürdüyünü növbəti dəfə nümayiş etdirməsi olub. Yada salmaq yerinə düşər ki, bu, Paşinyanın ay ərzində Avropaya ikinci işgüzar səfəridir. Qranadadan sonra Rusiyanın dominant mövqeyə malik olduğu MDB-nin Dövlət Başçıları Şurasının Bişkekdə keçirilən görüşünə qatılmayan Paşinyanın Strasburqa yollanması xüsusi məna kəsb edir.

Paşinyan birgə mətbuat konfransında deyib ki, bugünkü tədbir Aİ–Ermənistan münasibətləri üçün vacibdir və onun yüksək dinamikasından xəbər verir. "Münasibətlərimizin ümumi dəyərlər sisteminə əsaslandığını və demokratiyanın bizim üçün şəraitin diktə etdiyi seçim deyil, strateji seçim olduğunu vurğulamaq vacibdir. Biz Aİ ilə münasibətlərimizi dərinləşdirmək istəyirik. Ermənistan Respublikası Aİ-nin mümkün hesab etdiyi qədər Avropa İttifaqına yaxınlaşmağa hazırdır. Bunun heç bir şəkildə regional münasibətlərimizin dərinləşməsi və inkişafı ilə ziddiyyət təşkil etməsini istəmirik", – deyən baş nazir əlavə edib ki, onun hökuməti Ermənistan–Aİ hərtərəfli və genişləndirilmiş tərəfdaşlıq sazişinin tam icrasına sadiqdir. Həmçinin bildirib ki, Aİ institutları arasında Ermənistanla münasibətləri dərinləşdirmək üçün konsensus var.

Onun sözlərinə görə, Ermənistanın Aİ ilə əlaqələrinə yeni element – təhlükəsizlik əlavə olunub. Söhbət Aİ-nin Ermənistan-Azərbaycan şərti sərhədində müşahidə aparan mülki missiyasından gedir.

Paşinyan Rusiyada böyük narazılıqla qarşılanmış Roma statutunun təsdiq olunmasından da danışıb. Deyib ki, parlametin oktyabrın 3-də Roma statutunu ratifikasiya etməsi Ermənistanın beynəlxalq hüquq sisteminin təşviqində, beynəlxalq hüquqi nizamın stimullaşdırılması və inkişaf etdirilməsində maraqlı olmasının göstəricisidir.

Bundan sonra Paşinyan Avropa Parlamentində geniş çıxış edib. Burada Rusiyanın adını çəkməsə də, Kremli nəzərdə tutaraq deyib: "Yüz min ermənin Qarabağdan Ermənistana qaçdığı bir vaxtda təhlükəsizlik üzrə müttəfiqlərimiz nəinki bizə kömək etmədilər, hətta açıq şəkildə Ermənistanda hakimiyyətin dəyişdirilməsinə, demokratik hakimiyyətin devrilməsinə çağırdılar. Lakin Ermənistan xalqı öz müstəqilliyi, suverenliyi, demokratiyası naminə birləşdi və dövlətimizə qarşı növbəti sui-qəsd iflasa uğradı".

Bundan sonra Paşinyan yenə yardım istəməyə başlayıb: "Biz Qarabağdan olan məcburi köçkünlərə (?) dəstək üçün 100 milyon dollara yaxın vəsait ayırmalıyıq. Bizim beynəlxalq yardıma, o cümlədən büdcə dəstəyinə ehtiyacımız var".

Sözsüz ki, onun çıxışının bir hissəsi də Azərbaycanla münasibətlərlə bağlı olub. Paşinyan Ermənistanın Mehri dəmir yolu xəttini bərpa etməyə hazır olduğunu bildirib: "Bu dəmir yolu Ermənistanı Azərbaycanla, Ermənistanın cənub rayonlarını şimal-qərb rayonları ilə, Azərbaycanın cənub-şərq rayonlarını Naxçıvanla, Ermənistanı Türkiyə ilə, Azərbaycanı Türkiyə ilə, Gürcüstan, Azərbaycan və Ermənistanı İranla, Xəzər dənizindən Aralıq dənizinə qədər Şərqlə Qərbi birləşdirəcək". Baş nazir onu da əlavə edib ki, Ermənistan öz ərazisindən Azərbaycan mallarının daşınması və azərbaycanlıların hərəkətinin təhlükəsizliyini təmin etməyə hazırdır".

Azərbaycanla sülh müqaviləsinin imzalanması istiqamətində aparılan danışıqlara toxunan N.Paşinyan deyib: "Avropa Parlamentinin sədri Roberta Metsolanın da bildirdiyi kimi, bu ay Azərbaycan tərəfi ilə Brüsseldə görüşmək barədə razılığa gəlmişik. Artıq qeyd etdiyim prinsiplər bu görüşdə təsdiqlənərsə, o zaman Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin ilin sonunadək imzalanması yüksək dərəcədə realdır".

Paşinyan, qətiyyətlə sülhə doğru irəliləməyin vacibliyinə toxunub: "Bunun üçün siyasi iradə vacibdir və iqtidarda olan partiya olaraq bizim siyasi iradəmiz var. Eyni zamanda, beynəlxalq ictimaiyyət, o cümlədən Avropa İttifaqı bizə dəstək verməlidir ki, biz bu imkandan istifadə edək, bunu Azərbaycan və Ermənistan üçün reallaşdıraq". Baş nazir, həmçinin qarşılıqlı şəkildə müharibədə saxlanılanların mübadiləsinə, minalarla, eyni zamanda, itkin düşən şəxslərin taleyinin araşdırılması ilə bağlı sıx əməkdaşlığa hazır olduqlarını vurğulayıb və əlavə edib ki, indiyə olan məlumata görə, 1016 Ermənistan vətəndaşı itkindir.

O, BMT Təhlükəsizlik Şurasında Qarabağla bağlı üç iclasın keçirildiyini xatırladıb. Bu müzakirələrin heç bir praktiki nəticə vermədiyini etiraf edib.

Beləliklə, N.Paşinyanın Strasburqa səfəri Avropanın mühüm institutundan yardım istəməsi ilə yadda qaldı. Bu səfər, həmçinin onun Rusiyadan uzaqlaşmasının daha bir göstəricisi oldu. Paşinyanın kommunikasiyaların açılması və sülh müqaviləsi üzrə dediklərində isə ciddi yenilik olmadı. Rəsmi İrəvanın sülhə gerçəkdən hazır olub-olmadığını isə qarşıdakı Brüssel görüşü və o vaxtadək baş verən proseslər göstərəcək.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



**İlyas HÜSEYNOV, siyasi şərhçi**

– Belə görünür ki, Paşinyan Qərb müstəvisində görüşlərin keçirilməsinə müsbət yanaşır. Maksimum çalışır ki, Rusiyanın dominantlığı altında heç bir görüş baş tutmasın və ya belə görüşlər olacaqsa, orada iştirak məhdudlaşdırılsın. Bilavasitə Kremlin vasitəçiliyi ilə görüşlərin keçirilməsi Ermənistan üçün məqbul hesab olunmur. Məhz bu səbəbdən Paşinyan Qranadaya uçur, lakin Bişkekdə MDB-nin tədbirinə qatılmır.

Eyni zamanda o, Avropa Parlamentində də çıxış edir. Burada çox incə bir detal diqqətimi çəkdi. Nikol Paşinyan bildirdi ki, İrəvan Avropa İttifaqının mümkün hesab etdiyi qədər həmin təşkilata yaxınlaşmağa hazırdır. Bu, Paşinyanın Rusiya və Avropa qarşısında rəzil durumunu özündə əks etdirir. Yəni, Avropa Ermənistanı çox yaxına buraxmayacaq. Rusiyaya mesaj verir ki, mən gedə bildiyim qədər Avropa ilə yaxınlaşacağam. Paşinyanın bu çıxışı Makronu da, Mişeli də, Şoltsu da çox pis vəziyyətdə qoyur. Çünki Nikol etiraf edir ki, Avropa ilə çox da yaxınlaşa bilməyəcək.

Paşinyan Strasburqda sülh istiqamətində də mesajlar verdi. Biz onun sülhdən danışmasından sonra, adətən, təxribatların baş verməsinə də alışmışıq.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 366** **Bakı şəhəri, 16 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 fevral tarixli 44 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hərbi Ovçuluq İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 fevral tarixli 44 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 199; 2016, № 3, maddə 582; 2017, № 9, maddə 1757; 2019, № 3, maddə 562, № 4, maddə 756, № 5, maddə 952; 2020, № 5, maddə 653; 2022, № 2, maddə 186; 2023, № 3, maddə 442) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Hərbi Ovçuluq İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsi"nin 3.2.10-cu yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 367** **Bakı şəhəri, 16 oktyabr 2023-cü il**

***"Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747; 2012, № 8, maddələr 827, 830; 2013, № 3, maddə 347, № 7, maddə 886, № 8, maddə 1017, № 10, maddə 1218; 2014, № 1, maddələr 51, 69, № 2, maddə 201, № 4, maddə 441, № 5, maddələr 572, 594, № 6, maddə 747, № 8, maddə 1015, № 12, maddələr 1658, 1666; 2015, № 2, maddə 227, № 11, maddə 1417; 2016, № 3, maddə 609, № 4, maddə 831, № 5, maddə 955, № 7, maddə 1353, № 8, maddə 1437, № 9, maddələr 1585, 1589, № 12, maddə 2241; 2017, № 5, maddə 966, № 10, maddələr 1890, 1919, № 11, maddə 2168, № 12 (II kitab), maddələr 2476, 2487, 2507; 2018, № 3, maddələr 588, 632, № 6, maddə 1374, № 7 (II kitab), maddə 1668, № 8, maddə 1807, № 9, maddə 1906, № 10, maddələr 2142, 2172, № 11, maddə 2426; 2019, № 3, maddələr 529, 563; 2020, № 2, maddə 204, № 4, maddə 500, № 5, maddə 652, № 8, maddə 1123, № 9, maddə 1217, № 10, maddələr 1258, 1296, № 11, maddə 1405, № 12 (V kitab), maddə 1616; 2021, № 2, maddə 203, № 3, maddələr 265, 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 682; 2022, № 1, maddə 59, № 3, maddə 277, № 4, maddələr 387, 411, № 5, maddə 544, № 6, maddə 683, № 7, maddə 811, № 9, maddələr 1083, 1109, № 11, maddə 1356, № 12, maddələr 1552, 1560; 2023, № 5, maddə 734, № 7, maddə 1073; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 270 nömrəli, 12 sentyabr tarixli 320 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin Normaları"nın 4-cü hissəsinin ikinci abzasında "Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat" sözləri "Nəqliyyat" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 368** **Bakı şəhəri, 16 oktyabr 2023-cü il**

***"Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 2109 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

"Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 2109 nömrəli Fərmanının 4.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320, № 4, maddə 588, № 5, maddə 737; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 iyul tarixli 226 nömrəli, 19 iyul tarixli 233 nömrəli, 4 avqust tarixli 265 nömrəli və 5 avqust tarixli 286 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 191-ci hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316; 2021, № 2, maddə 203, № 4, maddələr 416, 418, № 9, maddə 1064, № 12, maddə 1510; 2022, № 4, maddə 381, № 6, maddə 685, № 11, maddə 1351, № 12, maddələr 1550,1552; 2023 № 3, maddə 420, № 5, maddə 741) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın 6-cı hissəsinin 68-ci sətri ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 22 yanvar tarixli 25 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 1, maddə 76) ilə təsdiq edilmiş "Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması Qaydası"nın 1.5-ci bəndinin birinci cümləsində "Bakı Nəqliyyat Agentliyinin" sözləri "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 369** **Bakı şəhəri, 16 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikasının "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 20 dekabr tarixli 743-VIQD nömrəli qanunlarının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 20 dekabr tarixli 743-VIQD nömrəli qanunlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 yanvar tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 62; 2008, № 2, maddə 130; 2016, № 11, maddə 1976; 2017, № 5, maddə 1003; 2019, № 3, maddə 515, № 7, maddə 1320; 2021, № 3, maddə 272) ilə təsdiq edilmiş "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi Qaydaları"na aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilsin:

"5-1. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 14 oktyabr tarixli 242 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 10, maddə 931; 2009, № 10, maddə 846; 2016, № 11, maddə 1975; 2017, № 5, maddə 1004; 2018, № 7 (II kitab), maddə 1666; 2019, № 7, maddə 1320; 2021, № 3, maddə 280, № 10, maddə 1164; 2022, № 4, maddə 393) ilə təsdiq edilmiş "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzinə aylıq müavinətin təyin edilməsi və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Aylıq müavinətin təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.";

2.2. 5-ci hissəyə "qəbul etdikdən" sözlərindən sonra "(bu Qaydanın 4-1-ci hissəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 360 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1504; 2016, № 11, maddə 1976; 2017, № 5, maddə 1009; 2019, № 7, maddə 1318; 2021, № 3, maddə 273; 2022, № 8, maddə 973) ilə təsdiq edilmiş "Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması və ödənilməsi Qaydası"na aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Təqaüdün təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1225; 2016, № 7, maddə 1343, № 11, maddə 1977; 2017, № 12 (II kitab), maddə 2552; 2018, № 2, maddə 354, № 12 (II kitab), maddə 2730; 2019, № 5, maddə 983, № 7, maddələr 1318, 1330; 2020, № 5, maddə 633, № 10, maddə 1269, № 11, maddə 1411; 2021, № 3, maddələr 281, 287, 289, № 4, maddə 404, № 5, maddə 525, № 9, maddə 1080, № 10, maddə 1163; 2022, № 8, maddə 973, № 9, maddə 1100, № 11, maddə 1339, № 12, maddə 1552; 2023, № 3, maddə 434; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 iyul tarixli 243 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 4.9-cu bənd əlavə edilsin:

"4.9. Müavinət, təqaüd və kompensasiyanın təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.";

4.2. həmin Qaydalara 7 nömrəli əlavə - "Müavinət, təqaüd və kompensasiyanın təyin edilməsi üçün tələb olunan sənədlərin siyahısı"nın 1-ci hissəsinə "tələb olunur" sözlərindən əvvəl və 2-ci hissəsinə "təqdim edilməlidir" sözlərindən əvvəl "(bu Qaydaların 4.9-cu bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Milli Məclisdə**

# Xankəndidə Azərbaycan Bayrağının qaldırılması ədalətin təntənəsidir

## *Parlamentin iclasında bu barədə geniş müzakirə aparıldı*

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirildi. Sədr iclasın ölkəmizin və xalqımızın həyatında dönüş yaradan tarixi bir gün ərəfəsində keçirildiyini bildirdi. Dedi ki, oktyabrın 18-də Müstəqilliyin Bərpası Gününü qeyd edəcəyik. Diqqətə çatdırdı ki, son yüz ildən artıq dövrdə Azərbaycan xalqı siyasi müstəqillik imkanına iki dəfə nail olmuşdur. 1918-ci il mayın 28-də qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşaya bilmişdir.**



1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən dövlətimiz üçün də, əslində, eyni tale yazılmışdı. O zaman hakimiyyətə gəlmiş iqtidar cəmi bir il ərzində Azərbaycanı siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə salmışdı. Ölkə vətəndaş müharibəsi və dağılmaq həddinə gəlib çıxmışdı. Müstəqil Azərbaycan dövlətinin iflasa uğramaq təhlükəsi yaranmışdı. Lakin taleyin hökmü ilə bu dəfə Heydər Əliyev fenomeni dövlət müstəqilliyinin itirilməsinə yol vermədi. 1993-cü il iyunun 15-də ali dövlət rəhbərliyinə qayıdan Ümummilli lider qüdrətli zəkası və müdrikliyi, yenilməz iradəsi və qətiyyəti sayəsində Azərbaycanın siyasi varlığını qoruyub saxlaya bildi.

Parlamentin Sədri Ulu öndərin anadan olmasının 100 illiyi münasibəti ilə bu il mayın 16-da və iyunun 14-də Milli Məclisin xüsusi iclaslarının keçirildiyini xatırlatdı və bugünkü müasir Azərbaycanın Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının parlaq nişanəsi olduğunu bildirdi.

Ümummilli liderin inkişaf strategiyasını yeni çağırışlar şəraitində yaradıcı surətdə davam etdirən möhtərəm Prezident İlham Əliyevin daxili və xarici siyasəti ölkəmizə heyrətamiz uğurlar qazandırmışdır. Milli Məclisin oktyabrın 12-də keçirilən xüsusi iclasında da vurğulandığı kimi, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxmışdır. Cəmiyyət və dövlət həyatının bütün sahələrində yeniləşmə və yüksəliş dövrü yaşanmışdır. Dövlət idarəçiliyi sistemi təkmilləşdirilmiş, Birinci vitse-prezidentlik institutu təsis edilmişdir. Möhtərəm cənab Prezidentin ən yaxın silahdaşı olan görkəmli siyasi və dövlət xadimi Mehriban xanım Əliyeva bu məsul və şərəfli vəzifəni layiqincə yerinə yetirir.

Sahibə xanım oktyabrın 15-də cənab İlham Əliyevin Xankəndi, Ağdərə, Xocavənd, Xocalı şəhərlərində, Əsgəran qəsəbəsində Dövlət Bayrağını ucaltmasını xatırlatdı və dedi ki, xalqımız bu unudulmaz hadisəni böyük qürurla izlədi. Üç il öncə eyni duyğuları Şuşada, Laçında, Ağdamda, Kəlbəcərdə və digər şəhərlərdə bayrağımız yüksələrkən yaşadığımızı vurğuladı.

Möhtərəm Prezidentin Xankəndi şəhərində etdiyi proqram xarakterli çıxışından danışan parlamentin rəhbəri bunu dövlət başçısının ulu öndər Heydər Əliyev və xalqımız qarşısında bir növ hesabatı adlandırdı. Cənab Prezidentin rəhbərliyi ilə 20 il ərzində görülən işlər Azərbaycanın iqtisadi, siyasi və hərbi potensialının artırılmasına, torpaqlarımızın işğaldan azad edilməsinə, xalqımızın firavan həyatının qurulmasına yönəlmişdir. Həyata keçirilən dövlət siyasəti milli maraqlarımızın qorunmasını və irəli aparılmasını təmin etmişdir. Düşmən üzərində qazanılan möhtəşəm qələbə Ulu öndərin 100 illik yubileyinə ən böyük töhfə olmuşdur. Prezidentin qaldırdığı Dövlət Bayrağı bu qədim diyarımızda əbədi dalğalanacaqdır.

Sonra Milli Məclis Müstəqilliyin Bərpası Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubları ünvanlamağı qərara aldı.

S.Qafarova üç il öncə bu gün erməni silahlı birləşmələrinin Gəncə şəhərinin mərkəzini qadağan olunmuş silahlar, o cümlədən ballistik raketlər ilə atəşə tutduğunu, nəticədə, 15 nəfər dinc sakinin həyatını itirdiyini 79 mülki şəxsin isə yaralandığını xatırlatdı. Gəncə şəhərində, eləcə də Azərbaycanın digər yaşayış məntəqələrində erməni terroru nəticəsində həlak olmuş dinc sakinlərin xatirəsi anıldı.

Cari məsələlərin müzakirəsi zamanı deputatlar dövlət başçımızın Xankəndiyə və digər ərazilərimizə səfərindən söhbət açdılar. Qeyd edildi ki, 15 oktyabr 2023-cü il tarixi ədalət təntənəsinin rəmzi olmaqla, Azərbaycan xalqının yaddaşına əbədi həkk olunacaq. Məhz bu tarixdə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev ölkəmizə rəhbər seçilməsinin 20-ci ildönümündə Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Əsgəranda və Sərsəng su anbarının ərazisində Dövlət Bayrağımızı qaldırmaqla Azərbaycan xalqının çoxillik əzablarına, iztirablarına, həyəcanına son qoydu, torpaqlarımızın hər bir qarışına sahib çıxdı, regionda tüğyan edən separatçılığın kökünü kəsdi, ölkəmizin tarixi Zəfərini rəsmiləşdirdi.

Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli dedi ki, onun artıq bir müxalifət partiyasının rəhbəri kimi torpaqlarımızı işğaldan azad edib Azərbaycanın ərazi bütövlüyünü təmin edən, suverenliyini bərpa edən, bütün İslam dünyasının lideri olan Prezident İlham Əliyevə qarşı çıxmağa haqqı yoxdur. Belə bir problemləri həll edən liderə qarşı necə müxalif mövqedə olmaq olar?

S.Qafarova gündəliyə 16 məsələ daxil edildiyini bildirdi. "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" qanun layihəsi barədə məlumat verən komitə sədri Siyavuş Novruzov qeyd etdi ki, sənədə əsasən, Binəqədi qəsəbəsinin ərazisindən 1 213 ha torpaq sahəsi, Abşeron rayonunun inzibati ərazisində yerləşən 375 ha və 2 min 223,67 ha torpaq sahəsi Sumqayıt şəhərinin inzibati ərazisinə verilir. Bu Sumqayıtın daha da inkişafı məqsədi ilə həyata keçirilir.

Qanun layihəsinin qəbulundan sonra S.Qafarova bildirdi ki, gündəlikdəki digər 12 məsələ ikinci oxunuşda təqdim edilib.

Qanun layihələri müzakirələrdən sonra qəbul edildi.

Birinci oxunuşda təqdim edilən 3 qanun layihəsinin müzakirəsindən sonra müvafiq qərar qəbul olundu. Bununla da Milli Məclis öz işini bitirdi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Bakıda dövlətlərarası rabitə üzrə iclas

**Oktyabrın 17-də Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı ölkələrinin Dövlətlərarası Hökumət Rabitəsi üzrə Koordinasiya Şurasının 30-cu iclası Bakıda keçirilib.**

İclasda MDB üzv dövlətlərinin xüsusi xidmət orqanlarının şifrələmə və qapalı rabitə xidmətləri üzrə nümayəndə heyətləri iştirak edib. 30-cu iclas Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin sədrliyi ilə həyata keçirilib.



Daha sonra, tədbir iştirakçıları qarşısında açılış nitqi ilə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayev çıxış edərək Azərbaycan Respublikasının rəhbərliyi adından iclas iştirakçılarını salamlayıb.

İclas iştirakçıları hökumət, qapalı və xüsusi rabitə sistemləri, eləcə də şifrələmə vasitələri üzrə əldə edilmiş təcrübə, elmi-texniki nailiyyətlərin tətbiqi, dövlətlərarası əməkdaşlığın genişləndirilməsi, müvafiq ixtisaslı kadrların hazırlanması və digər məsələləri müzakirə ediblər.

Koordinasiya Şurasının 30-cu iclası zamanı səsvermə əsasında sözügedən şuranın sədrinin müavini və aparatının sədri seçilib, iclasın yekunlarına dair protokol imzalanıb.

***XQ***

# Qarabağ və Şərqi Zəngəzur öz nuruna qərq olur

## 11 kiçik SES bərpa edilib, 16-sı isə qurulur

**Prezident İlham Əliyev respublikaya rəhbərlik etdiyi ötən 20 il ərzində ölkəmizin elektroenergetika sistemi daim diqqət mərkəzində saxlanılıb. Bu müddətdə mövcud sahədə genişmiqyaslı layihələr gerçəkləşdirilib, yenidənqurma, tikinti işləri böyük vüsət alıb. Dövlətimizin başçısının tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində energetika sistemi əsaslı şəkildə modernləşdirilib, "itirilmiş" generasiya gücləri bərpa edilib.**

Ölkə rəhbərinin 25 oktyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi haqqında" sərəncamı da respublikamızın elektrik enerjisi ilə fasiləsiz təminatını daha da gücləndirmək, təhlükəsizliyin maksimal səviyyədə əldə olunmasını şərtləndirmək baxımından mühüm önəm daşıyıb.

Adıçəkilən sənəddə ölkəmizin enerji dayanıqlığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi kimi məsələlərin həlli qarşıya mühüm vəzifə kimi qoyulub.

Sərəncamın imzalanmasından ötən bir ilə yaxın müddətdə bu sahədə müsbət nəticələr əldə edilib. Bu, statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, cari ilin yanvar–avqust ayları üzrə operativ məlumatlara əsasən, ölkədə elektrik enerjisinin istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 154,2 milyon kVt/saat, yəni 0,8 faiz artaraq 19 245,2 milyon kVt/saat olub. Səkkiz ay ərzində elektrik enerjisi istehsalı istilik elektrik stansiyalarında 17 milyard kVt/saat, su elektrik stansiyalarında 1 milyard kVt/saat, digər mənbələr üzrə isə 249 milyon kVt/saat təşkil edib. Bu dövrdə külək elektrik stansiyalarında 41 milyon kVt/saat, günəş elektrik stansiyalarında 46 milyon kVt/saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 160 milyon kVt/saat elektrik enerjisi istehsal edilib.

Qeyd edək ki, 2023-cü ilin avqust ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2 milyard kVt/saat olub. Elektrik enerjisinin idxalı 11 milyon kVt/saat, ixrac isə 253 milyon kVt/saat təşkil edib.

Yeri gəlmişkən, ölkəmizdə yaxın perspektivdə "yaşıl enerji" sahəsində də yüksək göstəricilərin əldə ediləcəyi proqnozlaşdırılır. Hazırda bu istiqamətdə genişhəcmli layihələr gerçəkləşdirilir. Respublikamızın bərpaolunan enerji istehsalı sahəsində böyük potensialının olması da bir çox təşəbbüslərin həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Onu da xatırladaq ki, Azərbaycanın hədəfi bərpaolunan enerji payının ümumi enerji istehsalında 2025-ci ildə 24 faizə, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.

Bu məqsədin reallaşması üçün ölkəmizin Xəzər dənizində təsdiqlənən 157 QV, quruda isə 135 QV külək enerjisi potensialı, ümumilikdə 290 QV-dan çox bərpaolunan enerji ehtiyatı var. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da alternativ və bərpaolunan enerji mənbələri ilə diqqət çəkir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyevin düşməndən təmizlənən yaşayış sahələri ilə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda həmin iqtisadi ərazilər "yaşıl enerji" zonasına çevriləcək əsas istiqamətlərdən biri hesab olunur.



Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərdə 4 min MVt-dan artıq günəş, 500 MVt-dək külək enerjisi potensialının mövcud olması əsasında aparılan quruculuq işlərində məhz "yaşıl enerji" layihələrinə üstünlük verilir. Eyni zamanda, Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas iqtisadi rayonlardan biridir.

Regiondakı digər mühüm enerji obyektləri Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində inşası hazırda davam etdirilən və qoyuluş gücü 200 MVt olan "Xudafərin" və 80 MVt olan "Qız Qalası" su elektrik stansiyalarıdır. Hər iki stansiyanın tikintisi hazırda davam etdirilir və inşasının 2-2,5 il ərzində yekunlaşdırılması nəzərdə tutulur.

"AzərEnerji" ASC tərəfindən işğaldan azad edilən ərazilərdə 2020-2023-cü illər ərzində 11 yenidən qurulan və bərpa edilən kiçik su elektrik stansiyasında indiyədək, ümumilikdə, 110 milyon kilovat/saat (kVts) "yaşıl enerji" istehsal olunub. Kəlbəcər, Laçın və Zəngilan rayonlarında 7 SES-in tikintisinin yaxın aylarda yekunlaşacağı planlaşdırılıb. Bu günlərdə isə Kəlbəcər və Laçında daha 9 SES-in qurulmasına başlanılıb.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayevin mediaya verdiyi məlumata əsasən, "Sərsəng" SES və suverenliyimiz bərpa edilən digər ərazilərdə mövcud enerji potensialı 80 MVt-a yaxındır. "Yaşıl enerji"nin digər növlərinin də işğaldan azad edilən ərazilərdə, o cümlədən ölkəmizin digər yerlərində potensialı olduqca böyükdür. Bu potensial Azərbaycanın beynəlxalq aləmə çıxışını daha da genişləndirir və ölkəmizə böyük dividendlərin gətirilməsinə "yaşıl işıq" yandırır.

"Azərenerji" prezidenti daha sonra bildirib ki, Abşeron rayonu ərazisində 240 meqavatlıq günəş və 240 meqavatlıq külək, həmçinin Cəbrayıl rayonunda 240 meqavatlıq günəş, Kəlbəcər rayonunda 100 meqavatlıq külək elektrik stansiyalarının, eyni zamanda, yeni kiçik su elektrik stansiyalarının yaradılması ilə alınan generasiya gücləri ekoloji cəhətdən təmiz enerji hesabına Azərbaycanın elektrik enerjisinin ixrac potensialının ixraca yönəldilməsinə imkan verəcək.

Baba Rzayevin sözlərinə görə, bugünə kimi "Azərenerji" ASC Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə yarımstansiya tikərək istismara verib. Bundan başqa, 700 kilometrdən artıq 330 və 110 kV-luq yüksəkgərginlikli ötürmə xətti çəkilərək bütün işğaldan azad edilən ərazilərə 100 faiz enerji çatdırılıb. Ən əsası isə bütün yarımstansiyalar Azərbaycanın ümumi enerji sisteminə qoşulub.

B. Rzayev qeyd edib ki, bu il sentyabrın 20-də həyata keçirilən antiterror tədbirlərindən cəmi 4 gün sonra Xankəndi şəhərinin Ermənistanın enerji sistemindən ayrılaraq Azərbaycan enerji sisteminə qoşulması təmin edilib.

Artıq Xankəndi və ətraf ərazilərdə Azərbaycan işığı yanır. Hazırda "Azərenerji" tərəfindən sözügedən ərazilərdəki elektrik stansiyaları və yarımstansiyalarda təmir-bərpa işləri həyata keçirilir.

***XQ***

# Avropadan Asiyaya böyük yol

## Orta Dəhlizlə Şərqdən Qərbə 840 milyard dollarlıq yük daşınacaq




**Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu mətbuata müsahibəsində ölkəsi ilə Azərbaycan arasında birbaşa dəmir yolu və avtomobil nəqliyyatını reallaşdıracaq Zəngəzur Dəhlizi layihəsinin həyata keçirilməsinin bütün Orta Dəhliz dövlətləri üçün mühüm əhəmiyyət kəsb edəcəyinə inandığını vurğulayıb. Abdulkadir Uraloğlu, eyni zamanda, bu çərçivədə gerçəkləşdiriləcək Qars–Naxçıvan dəmir yolu təşəbbüsünün də bütün Avropanı Naxçıvan üzərindən İran, Azərbaycan, Türkmənistan və Pakistanla birləşdirəcəyini bildirib.**

Qardaş ölkə naziri, həmçinin artıq Bakı–Tbilisi–Qars xətti ilə Türkiyədən Avropanın bir çox nöqtəsinə, o cümlədən Qərbdə Bolqarıstan, Macarıstan, Almaniya, Avstriya, Polşa, Rumıniya, Çexiya, Slovakiya, Serbiya və Fransaya, Şərqdə İran, Əfqanıstan və Pakistana, Şimalda Rusiyaya, Asiyada Gürcüstan, Azərbaycan, Özbəkistan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Qazaxıstan və Çinə yük qatarları göndərildiyini, bu gün isə Zəngəzur Dəhlizi ilə yeni beynəlxalq xəttin həyata keçirilməsinin qarşıya önəmli məqsəd kimi qoyulduğunu diqqətə çatdırıb. O, Türkiyədə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə dəmiryolu sahəsində yeni dövr başlandığını qeyd edib, polad magistral şəbəkəsinin artıq 14 min kilometrə çatdırılğını bildirib.

Beynəlxalq əhəmiyyətli iqtisadi layihə olan Zəngəzur Dəhlizinin tərkibində əhəmiyyətli yer tutan Qars–İğdır–Aralıq–Dilucu–Sədərək–Naxçıvan–Culfa dəmir yolu xətti sadəcə Türkiyə və Naxçıvanı birləşdirmək məqsədi daşımır. Bu, daha qlobal xarakterə malikdir və Avropa ilə Asiyanın ticarət əlaqələrinin yeni mərhələsini şərtləndirir.

Qeyd edək ki, sözügedən layihənin rəsmiləşdirilməsi tədbirlərinə 2020-ci il fevral ayının 25-də Azərbaycan və Türkiyə respublikaları hökumətləri arasında Anlaşma Memorandumunun imzalanması ilə başlanılıb. Cari il sentyabr ayının 25-də isə Naxçıvan şəhərində prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars–Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu" imzalanılıb. Bu layihənin reallaşdırılması istiqamətində üçüncü addım isə iki qardaş ölkə arasında yaxın vaxtlarda müvafiq müqavilənin imzalanması ilə atılacağı nəzərdə tutulub.

Xatırladaq ki, Qars–Naxçıvan dəmir yolu layihəsinin tikintisinə dair texniki-iqtisadi əsaslandırma hesabatı artıq təsdiqlənib. 224 kilometr uzunluğunda və 5 stansiyadan ibarət olacaq dəmir yolunun tikintisinin 5 il müddətində başa çatdırılması planlaşdırılıb.

Ekspertlər tərəfindən Zəngəzur Dəhlizinin açılması ilə Orta Dəhlizin daha da canlanacağı və bu marşrutla il ərzində quru yolla Şərqdən Qərbə 840 milyard dollardan çox məhsul ixrac olunacağı bildirilir. Belə bir imkanın isə Çin və Avropa İttifaqı ölkələrində yüksək dəyərləndirildiyi vurğulanır.

Bu məqamda onu da deyək ki, Orta Dəhlizin vacib elementinə çevrilən Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin imkanlarının genişləndirilməsi üçün Azərbaycan dövlət büdcəsindən 100 milyon dollar vəsait ayrılıb. Həmin vəsaitlə dəmir yolunun illik yükötürmə qabiliyyətinin 1 milyon tondan 5 milyon tona qaldırılacağı və bununla da Orta Dəhliz vasitəsilə daha çox yükün daşınmasına imkan yaranacağı proqnozlaşdırılıb.

Yeri gəlmişkən, ekspertlər bildirirlər ki, Zəngəzur Dəhlizinin istismara buraxılması ilə Azərbaycan ərazisindən illik, təqribən, 35 milyon ton yükün daşınması mümkün olacaq. Ölkəmizin ərazisindən ötən il ərzində daşınan yükün həcmində 30 faizdən çox artımın qeydə alınması da Zəngəzur Dəhlizinə marağı daha da gücləndirib, beynəlxalq yükdaşımalarda respublikamızın mövqeyinə müsbət təsir göstərib.

Beləliklə, "Bir kəmər, bir yol"un Zəngəzur Dəhlizindən keçməsinin reallaşacağı təqdirdə illik xarici ticarət dövriyyəsi 6,3 trliyon dollardan çox olan Çindən Avropaya bir trliyon dollara qədər dəyərində yüklərin ən qısa quru yolla daşınması təmin ediləcək və bu marşrutla daşımalarda vaxtın 3 dəfəyə qədər qısalmasına, investorların qazancının isə 3 dəfəyə qədər artmasına şərait yaranacaq. Təbii ki, Ermənistan da Zəngəzur Zəhlizinin açılmasına əngəl törətməyəcəyi, bu yöndə qeyri-konstruktiv siyasətindən əl çəkəcəyi halda layihədən kifayət qədər faydalanacaq və acınacaqlı durumda olan iqtisadiyyatına əhəmiyyətli töhfə verə biləcək. Bir sözlə, Orta Dəhliz ideyasının həyata keçməsi və Zəngəzur Dəhlizinin fəaliyyətə başlaması Azərbaycana, eləcə də region ölkələrinə iqtisadi səmərə ilə yanaşı, siyasi zəmanət də verəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Orta Dəhliz dünya iqtisadiyyatının beynəlxalq nəqliyyat sistemində inqilabi xarakter daşıyan bir marşrutdur. Onun fövqəladə əhəmiyyət daşımasının geopolitik və iqtisadi səbəbləri var. Birincisi, iqtisadi əhəmiyyəti və səmərəsi ilə bağlıdır. Çinlə Avropa arasında göndəriləcək yüklər ənənəvi yoldan tez bir müddətdə mənzil başına çatdırıla bilər. Orta Dəhliz Çin və Avropa arasında üç beynəlxalq nəqliyyat dəhlizindən biridir. Dəhlizin avtomobil yolu ilə uzunluğu 4 min 256 kilometr, dəniz yolu ilə isə 508 kilometrdir. Orta Dəhliz Avropa və Asiya arasında ticarət yolu kimi Şimal Dəhlizinə nisbətən daha qənaətcil və sürətli və 2 min kilometr qısadır.

Bu marşrut vasitəsilə Çin malları 20-25 gün ərzində Avropaya çatır. Çin və Cənub–Şərqi Asiya ölkələrindən Suveyş kanalı ilə malların göndərilməsi isə 35-40 gün çəkir. Bu da nəqliyyat xərclərinin minimallaşdırılması ilə əmtəələrin daha rəqabətqabiliyyətli bir qiymətlə bazara çıxmasını şərtləndirir. Digər tərəfdən, mürəkkəb geopolitik vəziyyətlə əlaqədar Orta Dəhliz ən təhlükəsiz marşrut sayılır. Çinin iqtisadi rəqabətdə ABŞ qarşısında önə çıxmasını təmin edir və türk dövlətlərinin inteqrasiya etməsi halında dünya iqtisadiyyatındakı payını artırmaqla onları bir nüfuz mərkəzinə çevirir.

Belə ki, 2022-ci ildə ABŞ–Çin iqtisadi–ticarət əlaqələri 691 milyard dollar olub. Amma Çin və Avropa Birliyi (AB) arasına ticarət əlaqələri 938 milyard dollar təşkil edib. Göründüyü kimi, Avropa–Çin əlaqələri, ABŞ–Çin iqtisadi əməkdaşlığını üstələməyə başlayır. Bu baxımdan Orta Dəhliz vasitəsi ilə Çin–AB iqtisadi–ticarət əlaqələri artmaqla rəsmi Pekinin dünya liderliyinin önünü aça bilər. Eyni zamanda, türk dövlətlərinin Türk Dövlətləri Təşkilatı daxilində iqtisadi inteqrasiyasına zəmin yaradır, perspektivdə Avropa Birliyi modelli iqtisadi bloka çevrilməsini labüd edir.

Azərbaycan hökuməti bu gün Orta Dəhlizin tam gücü ilə işləməsi istiqamətində çalışır. Amma dəhlizin açılmaması üçün və bunun fonunda türk dövlətlərinin inteqrasiyasına qarşı dünyanın müxtəlif güc mərkəzləri siyasət aparır. Burada müxtəlif təxribat xarakterli addımlardan da söhbət gedir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Orta Dəhlizin tam gücü ilə fəaliyyət göstərəcəyinə isə heç bir şübhə yoxdur.

## Neft Fondunun büdcə gəlirləri 11 milyard manatı ötüb

**Cari ilin 9 ayı ərzində Dövlət Neft Fondunun (DNF) büdcə gəlirləri 11 milyard 366 milyon manat, büdcə xərcləri isə 6 milyard 567 milyon manat təşkil edib.**



Fondun məlumatında, həmçinin bildirilir ki, hesabat dövrü ərzində DNF-nin 2022-ci il büdcəsinin icrası çərçivəsində 6 milyard 542 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 8 milyon manat yönəldilib. DNF-nin idarə edilməsi ilə bağlı xərcləri isə 17 milyon manat təşkil edib.

## Kənd məhsullarının ixracı 33 faiz artıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın sentyabr sayına əsasən, cari ilin yanvar–avqust aylarında aqrar və aqrar–sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10 faiz artaraq 594 milyon dollara çatıb.**

Qeyd edilir ki, qeyri-neft-qaz ixracında əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 133 milyon dollar təşkil edib.

## Aqrar sektorda 9 milyard manatlıq məhsul yetişdirilib

**Bu ilin yanvar–sentyabr aylarında Azərbaycanda 9 milyard manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3 faiz çoxdur.**



Son 1 ildə ölkədə istehsal olunan bitkiçilik məhsullarının dəyəri 2,5 faiz artaraq 5 milyard manat, heyvandarlıq məhsullarının dəyəri isə 3,5 faiz artaraq 4 milyard manat təşkil edib.

Oktyabrın 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 3 min ton və yaxud ötən ilin eyni dövrünə nisbətən 1,7 faiz çox dənli və dənli paxlalı bitkilər, 182 min ton (0,1 faiz çox) üzüm, 962 ton (17,6 faiz çox) yaşıl çay yarpağı yığılıb.

9 ay ərzində quş əti də daxil olmaqla diri çəkidə 424 min ton ət, 15 min ton yun, 357 ton barama istehsal olunub. Bir il əvvələ nisbətən ət istehsalı 3,2 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 11,9 faiz, barama istehsalı 4,6 faiz artıb.

## Sahibkarlara 102 milyon manat güzəştli kredit verilib

**Sahibkarlığın İnkişafı Fondunun məlumatına görə, bu qurum tərəfindən iş adamlarına cari ilin yanvar–sentyabr aylarında 102 milyon manat güzəştli kredit verilib. Həmin vəsait sahibkarların 2105 layihəsinin maliyyələşdirilməsinə yönəldilib.**

Fondun ayırdığı kreditlər hesabına 1505 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

***XQ***

# Cəbrayıl dirçəldikcə bar-bərəkəti də artır

**İkinci Qarabağ müharibəsində Ermənistanın ağır məğlubiyyətə uğradılmasında Cəbrayıl rayonunun düşmən tapdağından azad edilməsi önəmli qələbə oldu. Bununla uzun illər işğal altında qalan Hadrut və Füzulinin, eləcə də Şuşanın azad olunmasına yol açıldı. Bu barədə hərbi ekspert, polkovnik Cəlil Xəlilov bildirdi:**



– Cəbrayılın geri alınması düşmənin müdafiə xəttinin yarılması, onun zərbə qüvvəsinin müəyyən bir hissəsinin məhv edilməsi ilə paralel şəkildə baş verdi. Rayonun işğalçıdan təmizlənməsi ordumuzun Cəbrayılın ətrafındakı strateji əhəmiyyətli nöqtələrə nəzarəti ələ keçirməsinə və sonrakı əməliyyatlara da müsbət təsirini göstərdi. Başqa sözlə, Cəbrayılın azadlığa qovuşması Xocavənd və Hadrutda uğurlu əməliyyatlar üçün də əlverişli şərait yaratdı.

Hazırda işğaldan azad edilən bütün ərazilərimizdə olduğu kimi, Cəbrayılda da genişmiqyaslı bərpa-quruculuq layihələri icra edilir. Əhalinin öz doğma torpaqlarında tezliklə məskunlaşması və bu regionda yüksək həyat şəraitinin yaradılması istiqamətində tədbirlər həyata keçirilir. İnfrastruktur, sosial obyektlər yeni nəsil texnologiyalar əsasında inşa edilir. İcra olunan layihələrin miqyas və sürəti Cəbrayıldan didərgin düşən insanların qısa zamanda öz dədə-baba yurdlarına qayıtmalarını tezləşdirməyə xidmət edir.



Rayon əhalisinin əsas məşğuliyyət sahələrindən biri kənd təsərrüfatı olub. Araz boyunca yerləşən, əlverişli iqlimi və bolsulu çayları ilə diqqət çəkən Cəbrayılın münbit torpaqlarının yenidən əkilib-becərilməsi rayonda kənd təsərrüfatının dirçəldilməsinə imkan yaradır.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, rayon işğaldan öncə üzümçülük, tütünçülük sahəsi üzrə ixtisaslaşmışdı. Əsasən də üzümçülük inkişaf etmiş sahələrdən idi. 1985-ci ildə 8 min 438 hektar sahədən 46 min ton məhsul yığılmışdı. Erməni vandalizminə məruz qalan Cəbrayılın üzümçülük infrastrukturu da yerlə-yeksan edilib. Hazırda bu sahənin bərpası istiqamətində tədbirlər görülür.

Rayonun aqrar sahədə aparıcı sahələrindən biri də taxılçılıq idi. 1988-ci ildə 5 min 699 hektar sahədən 20 min ton taxıl yığılmışdı. İşğaldan sonra rayonun minadan təmizlənmiş ərazisində ikiqat çox taxıl səpini həyata keçirilib. Ötən ilin payızında 18,8 min hektar sahədə payızlıq taxıl səpini aparılıb. 2021-ci ildə 13 min 261 ton, 2022-ci ildə isə 8 min 681 ton buğda yığılıb. Arpada bu göstəricilər isə müvafiq olaraq 3 min 112 və 4 min 554 ton təşkil edib. Gələn ilin məhsulu üçün rayonda 14 min hektar sahədə payızlıq taxıl səpini aparılır. Əkinlərin 1800 hektarı suvarılan əraziləri əhatə edir. Hazırda fermerlər tərəfindən 4 min 500 hektardan çox sahədə yay şumu aparılıb ki, bu da proqnozlaşdırılan əkinlərin 32,1 faizini təşkil edir. Ərazidə əkin aparan fermerlər üçün bölgəyə uyğun toxumlar tədarük edilir.

Cəbrayılda pambıqçılıq, tütünçülük və baramaçılığın yenidən dirçəldilməsi istiqamətində də işlər görülür. Bu sahələr iqtisadi cəhətdən səmərəliliyi, yeni iş yerlərinin yaradılması və əhalinin gəlirlərinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Əkin sahələrinin suvarma suyu ilə təmin edilməsində mövcud olan problemlər də aradan qaldırılır. Araz çayı üzərində tikilən "Xudafərin" su anbarı, ümumilikdə, 250 min hektardan çox sahənin suvarılmasını yaxşılaşdıracaq. "Qız qalası" anbarı isə 12 min hektarda su təminatını yaradır. Belə şərait isə Cəbrayılda əkin sahələrinin yüksək səviyyədə suvarılmasını şərtləndirəcək.

Cəbrayıl həm də arıçılıq rayonlarından biridir. Bu il ərazidə məskunlaşmış arıçılar 1393 arı ailəsindən 12 ton bal istehsal ediblər.

Yayı isti, qışı mülayim olan rayonda heyvandarlığın inkişaf etdirilməsi üçün geniş imkanlar var. 1988-ci ildə ət istehsalı 2 min 271 ton olub. Cəbrayıl işğaldan azad edildikdən sonra bu sahədə də artım nəzərə çarpır. 2021-ci ildə ət istehsalı 1275 ton, 2022-ci ildə isə 1295 ton ət istehsal edilib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## Naxçıvan xəbərləri

### Muxtar diyarda tramvay xətti çəkiləcək



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planında gələn il Naxçıvan şəhərində tramvay xəttinin layihələndirilməsi nəzərdə tutulur.

Tədbirlər planına əsasən, elektrik mühərrikli və hibrid nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə vergi–gömrük güzəştlərinin tətbiqi, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrindən (minik avtomobilləri, avtobuslar və s.) istifadənin artırılması, elektriklə işləyən nəqliyyat vasitələri üçün doldurma məntəqələrinin qurulması nəzərdə tutulur.

### Taxıl toxumu pulsuz verilir

Naxçıvan Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, muxtar respublikanın regional dövlət aqrar inkişaf mərkəzləri tərəfindən taxıl istehsalçılarına ilk dəfə dövlət dəstəyi hesabına payızlıq əkin üçün buğda və arpa toxumları verilir.

Bildirilir ki, ötən ilin payızlıq, cari ilin yazlıq əkinləri üzrə, ümumilikdə, 21 min 247 hektar sahədə taxıl əkinləri həyata keçirilib. 9 min 797 hektar sahədə biçin aparılıb, 49 min tondan çox taxıl əldə



edilib və orta məhsuldarlıq 24,9 sentner olub. 1450 hektar sahədə isə biçin aparılmayıb. Bu isə keyfiyyətli toxumlardan istifadə edilməməsi, aqrotexniki qulluq qaydalarının düzgün yerinə yetirilməməsi, eyni zamanda, quraqlıqla bağlı olub.

Bu ildən etibarən bütün istehsalçılarla taxıl əkinləri üzrə vaxtında şumun qaldırılması, əkinin həyata keçirilməsi, aqrotexniki qulluq qaydalarının göstərilməsi haqqında mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilib və bu istiqamətdə işlər davam edir.

Eyni zamanda, istehsalçıların tələbatlarının ödənilməsi üçün dövlət dəstəyi hesabına həm nağd formada subsidiyaların, eləcə də gübrələrin verilməsi təmin olunub. Bu istiqamətdə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən dövlət dəstəyi hesabına toxumluq "Alekseiç" buğda sortunun gətirilməsi reallaşdırılıb.

Qeyd edək ki, keçən il muxtar respublikanın müxtəlif bölgələrində bu sort toxumun əkini aparılıb və xüsusilə Şərurda yüksək nəticələr əldə edilib. Bu mövsümdə də həmin toxumun istifadəsi nəzərdə tutulub. Bundan başqa təsərrüfatçılara dəstək olaraq gübrə təminatı da diqqətdə saxlanılıb.

### Yeni emal müəssisələri yaradılacaq



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planında 2023-2024-cü illərdə muxtar respublikada kənd təsərrüfatı məhsullarının emal və qablaşdırma sahələrinin inkişaf etdirilməsi məqsədilə istehsal müəssisələrinin yaradılması nəzərdə tutulub.

Sənədə əsasən, muxtar respublikada kənd təsərrüfatı məhsullarının emalı üzrə müxtəlif təyinatlı (ət və süd emalı, meyvə və tərəvəz emalı, o cümlədən meyvəqurutma, bal və s.), eləcə də şəkər və nişasta istehsalı, dəri və yun qəbulu, o cümlədən dəri emalı müəssisələrinin və qablaşdırma və tara müəssisəsinin yaradılmasının təşviq edilməsi də planlaşdırılır.

***XQ***

# Aqrar elmin hədəfi kənddə bolluq yaratmaqdır

**Torpaq ta qədimdən ruzi çeşməsi, bərəkət mənbəyi hesab edilib. Dini dəyərlərimizdə, elmi inkişafımızda da bu amil həmişə əsas götürülüb, torpağı əkib-becərməyin, məhsuldarlığının ilbəil artırılmasının yolları axtarılıb.**



Torpağa münasibət bu gün də belədir. Sadəcə indi kənd təsərrüfatının özəyini təşkil edən torpağın becərilməsi daha çox innovativ yanaşma tələb edir. Sirr deyil ki, qlobal iqlim dəyişikliyi, mənşəyi bilinməyən xəstəliklər, eləcə də qəfil baş verən təbii fəlakətlər aylarla çəkilən zəhməti bir andaca məhv edə bilir. Deməli, kənd təsərrüfatı həm də riskli bir sahədir. Amma bütün bunlara baxmayaraq aqrar sahənin inkişafına elmi yanaşma, kimyəvi və üzvi preparatlardan vaxtında və düzgün istifadə əksər hallarda ümidləri doğruldur, məhsuldarlığı artırır.

Dövlət başçısı İlham Əliyevin dediyi kimi, ölkəmizdə kənd təsərrüfatının inkişafı, bu sahəyə göstərilən dövlət qayğısı yüksək ixtisaslı mütəxəssislərin yetişməsini də tələb edir. "Bu sahədə aparılan islahatlar sayəsində biz daha çox gəncin kənd təsərrüfatı üzrə mütəxəssis olmaq istədiyini və Aqrar Universitetdə bu peşəni seçmək istəyən gənclərin sayının artdığını görürük. Biz yeni elektron kənd təsərrüfatı sistemini həyata keçiririk. Bu, artıq bizə həyatımızın və iqtisadiyyatımızın mühüm sahəsinin səmərəliliyini artırmağa çox kömək edir. Çünki ölkə əhalisinin demək olar ki, 50 faizi kənd yerlərində yaşayır.

Beləliklə, əminəm ki, bu, bizim birgə həyata keçirə biləcəyimiz çox mühüm yeni layihə ola bilər. Ümumilikdə, Azərbaycan yeni texnologiyalara, innovasiyalara hazırdır. Biz artıq bunun üçün əhəmiyyətli insan kapitalı yaratmışıq və bizim dövlət xidmətləri, sosial xidmətlərlə bağlı texnologiyalarımız bu gün bəzi başqa ölkələr tərəfindən istifadə olunur. Ona görə də biz yeni texnologiyalara tam açığıq, çünki onlar yeni miqyasa, dinamizmə, tərəqqiyə, iş yerlərinə və rifaha gətirib çıxarır". Ölkə Prezidentinin bu sözləri hazırda Azərbaycan Dövlət Aqrar Universitetinin yol xəritəsidir və kollektivin qarşıdakı hədəflərə doğru inamlı addımlarının əsasını təşkil edir.

Təhsil prosesinin və idarəetmənin daha da təkmilləşdirilməsi, beynəlxalq standartlara cavab verməsi üçün kollektivimiz son bir ildə az iş görməyib. Bu baxımdan elektronlaşma universitetdə strateji idarəetmənin təşkili və operativ reaksiyaların verilməsi üçün olduqca mühüm əhəmiyyət daşıyır. Hazırda bu proses yekunlaşma mərhələsindədir. Daha sonra isə 6 min 500-dən çox tələbənin akademik fəaliyyətinin həyata keçirilməsi üzrə tədrisin təşkili, seçmə fənlərin təyin olunması, əvvəlki illərdən akademik borcu yaranmış tələbələrin alt və fərdi qruplarda yerləşdirilməsi, akademik fəaliyyəti haqqında elektron arayış və transkriptlərin verilməsi, adambaşına maliyyələşmə prinsipi əsasında təhsil haqqı ödənişi və təqaüd məbləğlərinin müəyyənləşdirilməsi və digər işlər elektron qaydada həyata keçiriləcək.

Bununla yanaşı, universitet rəhbərliyi uğurlu kadr potensialının əldə olunmasında kənd təsərrüfatı müəssisələri ilə əməkdaşlığa böyük önəm verir. Təkcə, ötən bir il ərzində 20-dən çox müəssisə rəhbəri ilə görüşlər keçirilib. "GP İmişli Cotton" MMC, "Şərqi CO LTD" MMC, "AgroFood" MMC, "AgroTradeSupply" MMC, "Azərtütün" ASC və "Tabaterra Leaf" QSC, "IBC İrrigation Systems", "Parlar" və digər şirkət nümayəndələri ilə birgə tədqiqat işlərinin aparılması, seminar və təlimlərin keçirilməsi, tələbələr üçün təcrübə proqramlarının təşkili, həmçinin, məzunların işə qəbul prosesi kimi bir çox məsələlər qarşılıqlı əməkdaşlıq çərçivəsində müzakirə olunub.

Təkcə onu göstərmək kifayətdir ki, Azərbaycan Dövlət Aqrar Universitetində son illərin ən yüksək qəbul göstəricisi (94,77 faiz) 2023-cü ildə olub. Bu isə abituriyentlərin aqrar təhsilə, kənd təsərrüfatı sahəsinə marağının artmasının bariz nümunəsidir. Təbii ki, uğurun əsasını yaradılan təhsil şəraiti təşkil edir. Qeyd edək ki, dövlətin xüsusi qayğısı isə hər an hiss olunur. Kənd təsərrüfatı ixtisaslarının dövlət tərəfindən maliyyələşməsi, əlavə təqaüdlərin verilməsi, yeni tədris korpusunun və tələbə evlərinin istifadəyə verilməsi bu uğuru şərtləndirən başlıca amillərdəndir.

Bəli, aqrar sahənin inkişafı dövlətin qarşısında duran ən vacib məsələlərdən biridir. Təbii ki, bu işin uğurlu icrasının bir ağır yükü də Aqrar Universitet komandasının üzərinə düşür və kollektiv bu məsuliyyəti yaxşı dərk edir.

***Elcan MƏMMƏDOV,***
***Azərbaycan Dövlət Aqrar Universiteti mətbuat şöbəsinin müdiri***

# 20 ildə taxıl istehsalı 1,5 dəfə artıb

**Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdov mediaya açıqlamasında ötən 20 ildə taxılçılığın inkişafının diqqət mərkəzində saxlanıldığını, kənd təsərrüfatının bu mühüm sahəsində mühüm nəticələr əldə olunduğunu bildirib. O, ölkədə taxıl istehsalının 2003-cü illə müqayisədə 2022-ci il 1,5 dəfə artaraq 3 milyon tonu keçdiyini vurğulayıb.**

Nazirliyin rəsmisi müqayisə olunan dövrdə taxılın məhsuldarlıq göstəriciləri barədə də məlumat verərək, buğdada 21,8 faiz, arpada 20,5 faiz, dən üçün qarğıdalıda isə 32,3 faiz artımın qeydə alındığını diqqətə çatdırıb.

İmran Cümşüdovun sözlərinə görə, taxılçılıqda istehsal və məhsuldarlıq göstəricilərinin artımını müasir texnologiyaların bu sahəyə tətbiq olunması şərtləndirib. O, fikrini pivot suvarma sistemlərinin tətbiq edildiyi, təqribən, 50 min hektardan çox iri taxılçılıq sahələrinin suvarılmasında səmərəli nəticələr əldə olunması ilə əsaslandırıb. Həmçinin bu sahədə işlədilən yüksək reproduktiv toxumlardan istifadə hesabına keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına nail olunduğunu qeyd edib.

Şöbə müdiri məlumatında, ölkədə taxılçılığın inkişafına müsbət təsir göstərən amillər sırasında bu sahə üzrə ixtisaslaşmış texnikanın sayının davamlı olaraq artmasını da xatırladıb. Bildirib ki, respublikada son 20 il ərzində müasir kənd təsərrüfatı texnikası, təqribən, 2,8 dəfə artılb. Belə ki, ötən il taxılyığan kombaynların sayı 3594-ə, taxıl toxumu səpən texnikaların sayı isə 3967-ə çatıb. Beləliklə, aqrar sektorda ixtisaslaşmış texnika ilə təminat səviyyəsi müqayisə olunan dövrdə 2,1 dəfə artıb. Hər min hektara düşən taxılyığan kombaynların sayı 1,8-dən 3,8-ə qədər yüksəlib.

Nazirliyin rəsmisi 20 il ərzində taxılçılıqda həyata keçirilən islahatlar barədə də fikirlərini bölüşüb. Bildirib ki, əhalinin ərzaq təhlükəsizliyinin təminatında əsas strateji sahə olan taxılçılığın inkişafı daim diqqət mərkəzində saxlanılıb. Taxılçılığın, o cümlədən buğda istehsalının sürətli inkişafı ilə əlaqədar müxtəlif normativ–hüquqi aktlar imzalanıb, bu məsələyə dövlət proqramları və hökumət strategiyalarında da geniş yer verilib. Eyni zamanda, Prezident İlham Əliyevin 2021-ci il 7 oktyabr tarixli fərmanı əsasında Dövlət Ehtiyatları Agentliyi publik hüquqi şəxsi yaradılıb. Bu quruma ölkəni strateji əhəmiyyətli mallarla, o cümlədən



ərzaqlıq buğda ilə təchizatının dayanıqlılığını gerçəkləşdirmək və daxili bazarda qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində mühüm vəzifələr tapşırılıb.

Bütün bunlarla bərabər, respublikada ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, habelə ərzaqlıq buğda istehsalının təşkili məqsədilə dövlət başçısının müvafiq fərmanına əsasən, ərzaqlıq buğdaya 2023-cü ildən etibarən 5 il müddətində məhsul subsidiyasının verilməsinə başlanılıb.

İ.Cümşüdov, eyni zamanda, qeyd edib ki, aqrar sığorta sisteminin təşkili, inkişafı və dayanıqlılığının təmin edilməsi məqsədilə 2019-cu ildə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Aqrar Sığorta Fondu təsis edilib və "Aqrar sığorta haqqında" Qanun qəbul olunub. Bununla da taxılçılıq məhsullarının sığortalanmasına başlanılıb.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri sonda işğaldan azad edilən ərazilərin əkin dövriyyəsinə cəlb edilməsi məsələsinə də toxunub. Bildirib ki, Vətən müharibəsi parlaq qələbəmizlə başa çatandan sonra Prezident İlham Əliyevin ilk tapşırıqlarından biri düşməndən təmizlənən torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi olub. Bunun üçün 200 min hektardan çox torpaq sahəsinin əkin üçün istifadə ediləcəyi nəzərdə tutulub.

***XQ***

# XİN: danışıqlar, görüşlər, şərhlər...

**Xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə dövlət katibi Ceyms Kleverli arasında telefon danışığı olub.**



Telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq gündəliyinin perspektivləri, habelə mövcud regional vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı durumu müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədəki mövcud vəziyyət barədə ətraflı məlumat verərək Qarabağ bölgəsində tərəfimizdən aparılan lokal antiterror tədbirləri nəticəsində regionda sülh quruculuğu və sa-



bitliyə davamlı təhdid törədən qanunsuz erməni silahlı qüvvələrinin mövcudluğuna son qoyulduğunu bildirib.

Ərazilərimizdəki qeyri-qanuni silahlı qüvvələrin tərk-silah edilməsi nəticəsində erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyası prosesinin qarşısında duran maneələrin aradan qaldırıldığı, bu xüsusda Azərbaycan Hökumətinin erməni sakinlərin sosial, humanitar, infrastruktur ilə bağlı ehtiyaclarının qarşılanması istiqamətində yerli erməni sakinlərin nümayəndələri ilə təmasda olduğu, bu istiqamətdə baxış və planlarımızın açıqlandığı və sözügedən planların həyata keçirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb.

Dövlət katibi Ceyms Kleverli bölgədə sülh və etimad quruculuğu səylərinin davam etdirilməsinin, bu xüsusda Azərbaycan və Ermənistan arasında sülh və normallaşma gündəliyi üzrə danışıqların davam etdirilməsinin vacibliyini vurğulayıb.

***

Dünən xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasında yeni təyin olunmuş səfiri Tomas Ştehlini qəbul edib.

Görüş zamanı səfir Tomas Ştehli etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Görüş zamanı Azərbaycan və İsveçrə arasında siyasi, iqtisadi, ticarət və bir sıra digər sahələri özündə ehtiva edən ikitərəfli münasibətlər gündəliyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, həmçinin cari regional vəziyyət müzakirə olunub.

İki ölkə arasında qarşılıqlı yüksək səviyyəli səfərlərin həyata keçirilməsinin, siyasi dialoqun və siyasi məsləhətləşmələrin mütəmadi əsasda aparılmasının vacibliyi vurğulanıb.

Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni sakinlərinin reinteqrasiyası istiqamətində müvafiq işlər aparıldığı və bu məqsədlə elektron portal yaradıldığı diqqətə çatdırılıb.

Səfir Tomas Ştehli ölkəsinin bütün sahələrdə Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu qeyd edərək, diplomatik fəaliyyəti müddətində ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

* * *

Oktyabrın 17-də Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Parlamentinin sessiyası zamanı səsləndirdiyi bəyanat, növbəti dəfə bu ölkənin Azərbaycana qarşı təcavüzkar ritorika və ittihamları davam etdirərək sülh sazişi ilə bağlı perspektivləri daha da sarsıtmaqda qərarlı olduğunu nümayiş etdirdi.

Bu barədə Azərbaycan XİN-in şərhində bildirilib.

Şərhdə deyilir: "Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialarından əl çəkmədiyi bir vaxtda özünü sülhsevər, demokratik, beynəlxalq hüquqa hörmət edən ölkə kimi təqdim edən Ermənistandan bu cür iddiaları eşitmək təhqiramizdir.

30 ilə yaxın müddət ərzində bir milyona qədər azərbaycanlının fundamental hüquqlarını pozan, azərbaycanlılara qarşı soyqırımı və kütləvi qırğınlar törətmiş bir ölkə olan Ermənistanın Azərbaycanı könüllü olaraq Ermənistana getmiş yerli ermənilərin "etnik təmizləməsi"ndə ittiham etməsi əsassız olmaqla yanaşı, regiona səfər edən, eləcə də Ermənistanda aktiv fəaliyyət göstərən BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları ilə açıq şəkildə ziddiyyət təşkil edir.

Qranada görüşünün yekun sənədindəki müstəqillik, suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, güc tətbiq edilməməsi və güc təhdidindən imtina prinsiplərinə istinad edən baş nazir Nikol Paşinyan, Ermənistanın bu prinsipləri baş nazirin hakimiyyətdə olduğu 5 il də daxil olmaqla 30 ildən artıq müddətdə pozmasına baxmayaraq, 44 günlük müharibədən dərhal sonra məhz Azərbaycanın Ermənistana 5 baza prinsipi təqdim etdiyini unudur.

Laçın yolunun guya "eksterritoriallığ"ı ilə bağlı baş nazirin iddialarına gəldikdə isə Ermənistanın məkrli addımlarının qarşısını almaq üçün sərhəd nəzarət-buraxılış məntəqəsini təsis etməklə hərəkətin təhlükəsizliyini təmin etmək öhdəliyini yerinə yetirən Azərbaycandan fərqli olaraq, Ermənistanın hər vəchlə baş nazirin də birgə imzaladığı üçtərəfli Bəyanata zidd olaraq, bu yoldan sui-istifadə etdiyini xatırlatmaq lazımdır.

Ermənistanın 30 ilə yaxın müddətdə Azərbaycana qarşı təcavüz törətdiyini və ərazilərimizi işğal etdiyini diqqətə alındıqda, Ermənistan baş nazirinin ərazi bütövlüyünə və delimitasiyaya hörməti kvadratkilometrlə ölçməyə çağırış etməsi ciddi deyil.

Ermənistanın Azərbaycan və Türkiyəni blokadada ittiham etməsinin reallıqla heç bir əlaqəsi yoxdur. Ermənistanın hərbi təcavüz və ərazi iddiaları səbəbindən regional layihələrdən təcrid olunması hər kəsə yaxşı məlumdur. Ermənistan tərəfi vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək, eyni zamanda, bu istiqamətdə təhlükəsizliyi təmin etmək öhdəliyinin mövcud olduğunu yaxşı bilir.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, Azərbaycanın Qarabağ regionunda qondarma erməni rejiminin və qanunsuz silahlı qüvvələrin yaratdığı təhlükəni aradan qaldırdıqdan sonra Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi imkanların yarandığı bir dövrdə, Ermənistan baş nazirinin davam edən aqressiv ritorikası sülh perspektivlərinə xələl gətirir".

***

Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində oktyabrın 17-də Suriya Ərəb Respublikasının ərazisində yerləşən düşərgələrdə saxlanılan 9 nəfəri uşaq və 1 nəfəri qadın olmaqla, 10 nəfər Azərbaycan vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib.

Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

***XQ***

# "Güclü lider: Müzəffər Ali Baş Komandan"

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin təşkilatçılığı ilə "Naxçıvansaray"da "Güclü lider: Müzəffər Ali Baş Komandan" mövzusunda toplantı keçirilib.**

Məclis iştirakçıları ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə, Prezident İlham Əliyevin Azərbaycan dövlətinə rəhbərliyinin 20 illiyinə və Qarabağ zəfərinə həsr edilmiş fotosərgiyə və videoçarxa baxıblar.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bildirib ki, 20 il əvvəl cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmizin tarixində yeni inkişaf və tərəqqi dövrünün əsası qoyulub. Ötən 20 ildə həyata keçirilən milli inkişaf doktrinasının əsas hədəfində, ilk növbədə, regionların inkişafı dayanır. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı ardıcıl 4 dövlət proqramı qəbul və icra olunub, güclü bazaya malik iqtisadi sistem qurulub, makroiqtisadi göstəricilərdə, ümumi daxili məhsulda və valyuta ehtiyatlarında dəfələrlə artıma nail olunub.

Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu öndər Heydər Əliyevin dövlətçilik kursunu davam etdirərək müstəqil xarici siyasət yürüdür, ölkəmiz dünyada etibarlı tərəfdaş kimi qəbul edilir. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına son illərdə sədrlik etməsi xarici siyasət strategiyamızın təntənəsidir.

Silahlı Qüvvələrimizin maddi-texniki bazasının, döyüş qabiliyyətinin və peşəkarlığının davamlı artırılması, döyüş arsenalının müasirləşdirilməsi son nəticədə güclü müdafiə potensialı formalaşdırmaqla yanaşı, 30 illik işğala da son qoydu, torpaqlarımız azad olundu. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edərək regionda yeni geostrateji reallıqlar yaratdı. Qələbəmizin ən mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılması sahəsində görülən işlərdir.

Fuad Nəcəfli dünyaşöhrətli siyasi xadim, qalib lider və tarixi şəxsiyyət cənab İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi münasibətilə muxtar respublika əhalisi və ictimaiyyəti adından təbrik edib, möhkəm cansağlığı, ali dövlətçilik fəaliyyətində uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Prezident İlham Əliyevin liderlik missiyasından və siyasi fəaliyyətinin müxtəlif istiqamətlərindən danışıblar.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Bişkekdə TDT-nin media toplantısı



**Bişkekdə Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə rəhbər şəxslərinin 5-ci toplantısı keçirilib.**

Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycan mediasının beynəlxalq informasiya məkanına inteqrasiyasının dünyamızın reallıqları fonunda daha böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O vurğulayıb ki, media məkanında milli maraqların birgə təşviqi və qorunmasına yönəlmiş ikitərəfli əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, təcrübə mübadiləsinin genişləndirilməsi, o cümlədən media sahəsində qarşılıqlı əlaqələrin yaradılması əsas məqsədlərdəndir.

Xatırladaq ki, TDT-nin media və İnformasiya üzrə məsul şəxslərinin 6-cı toplantısı Özbəkistanda keçiriləcək.

***

Həmin gün Əhməd İsmayılov ilə Özbəkistan Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin baş direktoru Asadjan Xocayevarasında görüş keçirilib.

Görüşdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

***XQ***

# Zərərçəkmişlər Vaqif Xaçaturyanın ömürlük həbs olunmasını istəyirlər



**Qanunsuz erməni silahlı birləşmələrinin üzvləri tərəfindən 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində soyqırımı törədənlərdən biri – Xaçaturyan Vaqif Çerkezin cinayət işi üzrə oktyabrın 17-də növbəti məhkəmə iclası keçirilib.**

Məhkəmə prosesində zərərçəkmiş şəxslər ifadə veriblər. Onlar ermənilər tərəfindən işgəncə və təhqirə məruz qaldıqlarını bildirib, Vaqif Xaçaturyanın ömürlük həbs olunmasını tələb ediblər.

Sonra prosesdə fasilə elan edilib. Fasilədən sonra məhkəmə iclasında zərərçəkmişlər Vaqif Xaçaturyanın onların başlarına gətirdiyi müsibətlərdən danışıblar.

Qeyd edək ki, məhkəmənin növbəti iclası oktyabrın 18-də keçiriləcək.

Xatırladaq ki, Vaqif Xaçaturyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilir.

***XQ***

# Energetika Nazirliyi ilə Çinin Milli Enerji Administrasiyası Anlaşma Memorandumu imzalayıb

**"Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu çərçivəsində Çində səfərdə olan energetika naziri Pərviz Şahbazov Çinin Milli Enerji Administrasiyasının rəhbəri Zhang Jianhua ilə görüşüb.**



Görüşdə iki ölkə arasında münasibətlərin inkişafına dair müzakirələr aparılıb.

"Bir kəmər, bir yol"u ilk gündən dəstəkləyən Azərbaycanın müxtəlif layihələrlə bu qlobal təşəbbüsün reallaşmasına töhfələrindən danışılıb. "Dövlət başçılarının dostluğu və strateji baxışlarının münasibətlərimizin hərtərəfli inkişafını təşviq etdiyi, əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu bildirilib. Çinə SOCAR tərəfindən Azərbaycan və digər mənşəli xam neft, neft məhsulları, neft-kimya məhsullarının, eləcə də mayeləşdirilmiş qazın (LNG) təchizatı, ölkəmizin apstrim, daunstrim layihələrində və elekroenergetika sektorunda Çin şirkətlərinin iştirakı uğurlu enerji əməkdaşlığının nümunələri kimi qeyd edilib.

Görüş zamanı elektrik enerjisi, neft-qaz, neft-kimya və bərpaolunan enerji sahələrində əməkdaşlığın inkişafı və enerji layihələrinə investisiyanın təşviqi məqsədilə "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında Anlaşma Memorandumu" imzalanıb.

***XQ***

# NATO ekspertlərinin Bakı seminarı



**Azərbaycan Müdafiə Nazirliyinin NATO-nun Beynəlxalq Dil Koordinasiya Bürosu ilə əməkdaşlıq çərçivəsində Bakı şəhərində beynəlxalq seminar başlayıb.**

Seminarda çıxış edərək iştirakçıları salamlayan Milli Müdafiə Universitetinin rektoru professor, general-leytenant Heydər Piriyev hərbi təhsil sahəsində görülən işlərin vacibliyini, o cümlədən, keçirilən görüş, seminar və kurslarda xarici və yerli mütəxəssislər arasında qarşılıqlı təcrübə mübadiləsinin önəmini xüsusi qeyd edib.

27 ölkədən 50-dən çox nümayəndənin iştirakı ilə keçirilən seminarın məqsədi NATO və tərəfdaş ölkələrin dil mərkəzi mütəxəssislərinin qiymətləndirmə meyarlarının qarşılıqlı standartlaşdırılması (STANAG 6001) və hərbi təhsil sahəsində ingilis dilinin tədrisində innovasiyaların tətbiq edilməsi ilə bağlı fikir mübadiləsinin aparılmasıdır.

***XQ***

# Səfirliyin Azərbaycan vətəndaşlarına müraciəti

**Azərbaycanın İsraildəki səfirliyi Azərbaycan vətəndaşlarına müraciət edib. Müraciətin mətni ölkəmizin İsraildəki səfirlinin "X" platformasındakı hesabında dərc edilib.**

"Israir Airlines" tərəfindən 20, 23, 25, 27, 30 oktyabr tarixlərində Təl-Əviv – Bakı istiqamətində olan uçuşlar üzrə biletlərin satışı elan edilib. Biletlər israir.co.il saytı üzərindən əldə oluna bilər", – deyə müraciətdə bildirilib.

***XQ***

Yaddaşlarda yaşayanlar

# Lütfiyar İmanov uzaqgörənliyi...

## Böyük sənətkar Tehranın səmimiliyinə o qədər də inanmamışdı



**Azərbaycan mətbuatının müstəqilliyin ilk illərindəki ab-havasını, ərzi-halını, yəqin ki, heç kəs unutmayıb. Hamı öz "fakt"ını həqiqət kimi təqdim edirdi. Həmin günlərdə xəbər yayılmışdı ki, SSRİ Xalq artisti Lütfiyar İmanov Almaniyaya qaçıb. (!?) Bir az insaflı müxbir isə yazmışdı ki, o, siyasətçi deyil ki, qaça, sadəcə, işləməyə gedib (Üç-dörd aydan sonra dəqiqləşdirərək yazdılar ki, sənətkar Almaniyada bir həftə qalaraq İzmirə gəlib və orada işləməyə başlayıb).**

Qərəz, mən də böyük sənətkarın bir Avropa ölkəsinə "qaçmasını" eşidən kimi o vaxt çalışdığım dövlət radiosundakı "Səhər" musiqili informasiya proqramı" adlı müəllif verilişində od püskürdüm: "Torpaqlarımızın işğal olunduğu, ölkədaxili qarşıdurmaların və müstəqilliyimizi gözü götürməyən xarici bədxahlarımızın



təhdidlərinin baş alıb getdiyi bir vaxtda dünya şöhrətli sənətkarımızın ölkədən getməsinə necə haqq qazandırmaq olar?"

Veriliş səhər saat 7-dən 8-ə qədər 1-ci proqramda gedir, 8-dən 9-a qədər isə "Araz" radiosu ilə təkrar yayılırdı. "Araz"dakı veriliş qurtarandan bir-iki saat sonra mənə dedilər ki, sənə xaricdən telefon zəngi var. Baş redaktorun otağına getdim. Lütfiyar İmanov idi: "Mən sizi tanımıram. Bəlkə də yaşlı adamsınız. Ancaq səsdən cavan adama oxşayırsınız. Demək istəyirəm ki, əvvəla, mən Almaniyada yox, Türkiyədəyəm. İkinci, Azərbaycanda mənə göstərilən münasibəti siz öz üzərinizdə hiss etsəydiniz Almaniyaya yox, Anqolaya qaçardınız. Mən Türkiyədə daimi qalmayacağam. Daimi olan sözdü, səsdi, mədəniyyətdi. Yayılan şayiələrə əsaslanıb danışanda sözü hörmətsiz edirsiniz. Sağ olun!"

... Sonra xalq Ulu öndəri siyasi hakimiyyətə gətirdi, ölkədə vəziyyət duruldu və Lütfiyar İmanov da Azərbaycana qayıtdı. Lap sonralar isə Heydər Əliyev onu "İstiqlal" ordeninə və Prezidentin fərdi təqaüdünə layiq gördü.

... İndi isə sərlövhədəki arqumentimiz barədə. Bəstəkar Tofiq Bakıxanov yaradıcılıq işində ölkədə gedən ictimai-siyasi prosesləri daim diqqət mərkəzində saxlayır. Onun ictimai-siyasi məzmunlu bir neçə musiqi əsəri var. Hətta, Xəzər neftçilərinin həyatını balet səhnəsinə gətirib. Ulu öndər Heydər Əliyevin 1994-cü il iyunun 29-dan iyulun 2-dək davam edən Tehran səfərində Azərbaycanla İran arasında müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan müqavilələr bağlanmış, Xarici işlər naziri Vilayəti ilə danışıqlardan sonra Ermənistanın təcavüzünü ittiham edən bəyanat imzalanmışdı. Tofiq müəllim isə İran mövzusunda mahnılar yazılması təşəbbüsü ilə çıxış etmişdi.

Bununla bağlı tarix elmləri doktoru, şair Şahin Fazil, Baba Pünhan və mən mahnı mətnləri yazdıq. Mənim sözlərimə yazılan mahnını Lütfiyar İmanov oxudu və Tofiq müəllim bu musiqinin Bakı, İstanbul, Ankara, Təbriz və Tehran radiolarının fonduna daxil edilməsinə nail oldu.

İş elə gətirdi ki, Bakı Musiqi Akademiyasında keçirilən tədbirlərin birində Tofiq müəllimin bir tərəfində Lütfiyar İmanov, digər tərəfində isə mən əyləşməli oldum. Tofiq müəllim məni müğənniyə təqdim edəndə böyük sənətkar yaddaşını eşələyirmiş kimi bir az dayandı və dedi ki, Xan, Mirzəbəyli ilə biz həm efirdən, həm də telefonla tanış olmuşuq. Lütfiyar İmanov Tofiq Bakıxanova, sadəcə, "Xan" deyə müraciət edirdi.

Başqa bir tədbirdə isə Lütfiyar İmanovun Tofiq Bakıxanovdan belə bir xahişi oldu: "Xan, əgər mümkünsə, oxumaq üçün mənə verəcəyin mahnının sözləri ilə əvvəlcədən tanış olum. Məsələn, bu dostunun (məni göstərdi) sözlərinə yazdığın mahnı nə zamansa bizi narahat edə bilər".

Tofiq müəllim öz addımını Heydər Əliyevin siyasəti ilə əsaslandırmağa çalışanda Lütfiyar İmanovun da öz arqumenti oldu: "Heydər Əliyev xalqı üçün sülhə can atır və nail olur. Ancaq sənin hansısa xarici siyasətçinin sözünə, vədinə, imzasına inanmağın düz deyil. Sabah yenə də həmin siyasətçilərlə 90-cı illərin əvvəlindəki kimi soyuqluq yaransa, biz xalqa nə deyəcəyik?"

Həqiqətən, böyük sənətkarın, təxminən, 25 il əvvəl narahatlıqla dilə gətirdiyi həmin proqnozların real həyatdakı təsdiqini sonralar dəfələrlə gördük. Hətta 44 günlük İkinci Qarabağ müharibəsində də həmin xarici siyasətçilər bizi deyil, işğalçı Ermənistanı dəstəkləmişdilər.

Allah Lütfiyar İmanova rəhmət eləsin!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Uzaq Saxada "Böyük qar alqışı"

## Həmyerlimiz Turan soraqlı şeir-sənət bayramında

**Tanınmış Azərbaycanı şairi Ramiz Qusarçaylı Saxa Respublikasında "Böyük qar alqışı" adlı VII Beynəlxalq Poeziya Festivalında ölkəmizi layiqincə təmsil edib.**



Ənənəvi festivalın başlıca məqsədi Şərqi Sibirin bu türk diyarı ilə MDB məkanı xalqlarının yazarlarının arasında əlaqələrin genişləndirilməsidir. Festivala, əsasən, saxa xalqının ədəbiyyatına maraq göstərən, bu sahədə yaradıcılıq planları olan şairlər və tərcüməçilər dəvət olunurlar. Həmin günlərdə çağdaş poeziya və tərcümə problemlərinə həsr olunan dəyirmi masalar təşkil edilir.



XQ-yə müsahibəsində Ramiz Qusarçaylı bildirib ki, gözümüzdən uzaq olsa da, ruhumuza çox yaxın olan, qədim türk diyarı Saxada bu festival iki ildən bir keçirilir: "Budəfəki poeziya bayramında yerli şairlərlə bərabər, Moskva, Mahaçqala, Arxangelsk, Ufa, Kazan, Astana və Bişkekdən də şair və tərcüməçilər gəlmişdilər. Bizi hava limanında Saxa Yazıçılar Birliyinin sədri Qavril Androsov və milli libaslı iki gənc əllərində duz-çörək və kumıs dolu çoronla qarşıladılar".

Müsahibimiz sonra respublikanın rəhbəri Aysen Nikolayevin qonaqları qəbul etdiyini bildirərək dedi ki, həmin görüşdə festivalın ideya müəllifi, yerli Yazıçılar Birliyinin fəxri sədri, Xalq şairi, RSFSR-in Əməkdar mədəniyyət xadimi Natalya Xarlampiyeva da iştirak edirdi: "Mən qəbulda çıxış edərək, xalqımızın adət-ənənələri, ədəbiyyatımız və öz yaradıcılığım barədə məlumat verdim. Saxa rəhbərinə 44 günlük Vətən müharibəsində qələbəmizi, eləcə də milli xalçalarımız və Quba alması təcəssüm etdirən buklet və suvenirlər bağışladım. O, bizim qələbə sevincimizə şərik olduğunu bildirdi və xalqımıza səmimi salamlarını çatdırmağı xahiş etdi".

M.K.Ammosov adına Şimal-Şərq Federal Universitetində keçirilən festivalın açılış mərasimində Ramiz Qusarçaylının rus və saxa dillərinə tərcümə olunmuş şeirləri ali təhsil ocağı tələbələrinin ifasında səslənib və alqışlarla qarşılanıb.

Xatırladaq ki, festivalın adı Xalq şairi Semyon Danilovun bir şeirindən götürülüb. Onun və nasir qardaşı Safron Danilovlun abidələrinin, eləcə də doğulduqları kənddəki ev-muzeyinin ziyarəti xüsusilə yaddaqalan olub. Saxa Media Holdinqdə yerli jurnalistlərlə, Yakutsk şəhərindəki iki orta məktəbdə şagirdlərlə və Berdiqestyaxda Semyon Danilovun adını daşıyan Mənəviyyat mərkəzində şəhər ictimaiyyəti ilə keçirilən görüşlər, Yakutsk–Qornıy Ulus yolunda yerləşən Şaman ocağına, rəmzi Los (Maral) heykəlinin qoyulduğu yerə səfərlər də qonaqlara unudulmaz təsir bağışlayıb.

"Festivalın rəsmi bağlanış tədbirində Saxanın Mədəniyyət və Mənəvi İnkişaf naziri Afanasi Noyev məni Azərbaycan və Saxa respublikaları arasındakı yaradıcı xidmətlərimə görə fəxri fərmanla təltif etdi. Saxa Yazıçılar Birliyinin rəhbərliyinin isə fəxri diplomuna və qiymətli hədiyyələrinə layiq görüldüm", – deyən Ramiz Qusarçaylı sonda bildirdi ki, Poeziya festivalında yerli mədəniyyət xadimlərinin, sənət ustalarının çıxışları bir daha Türk dünyasının mənəvi saflığından, Turan ruhunun böyüklüyündən soraq verirdi. Bütün bunlar, heç şübhəsiz, yeni yazılacaq ədəbi nümunələrdə öz əksini tapacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# "Ortaq türk tarixi"

## Dostluq və qardaşlıq dərsliyi

**Bizim qardaş türkdilli xalqlarla müştərək, eyni zamanda zəngin tariximiz var. Ayrı-ayrı mənbələrdə bu barədə kifayət qədər məlumat olsa da, son zamanlara qədər bu tarix bir fənn kimi məktəblərdə öyrənilməyib.**



Bildiyimiz kimi, keçən il Beynəlxalq Türk Akademiyasının Elmi Şurasının Nur-Sultanda keçirilən növbəti, 5-ci iclasında "Ortaq Türk tarixi", "Ortaq Türk ədəbiyyatı" və "Türk dünyasının coğrafiyası" dərsliklərinin mətni və proqramı üzv ölkələrin nazirləri ilə təşkilatın rəhbərliyi tərəfindən təsdiq olunub və müvafiq protokol imzalanıb. Artıq "Ortaq Türk tarixi" dərsliyi çap olunub. Müəllifləri Darxan Kıdırəli, Qaybulla Babayar olan dərsliyin qardaş Türkiyədə tədrisinə başlandığı bildirilir. Bəs, Azərbaycanda bununla bağlı hansı addımlar atılıb?

**Sualımızı orta məktəblər üçün "Azərbaycan tarixi" dərsliklərinin müəlliflərindən biri olan tarixçi Hafiz Cabbarov cavablandırdı.** O bildirdi ki, "Ortaq Türk tarixi" dərsliyinin hazırlanması və türkdilli dövlətlərdə tədrisi ideyası hələ 1990-cı illərin əvvəllərindən mövcud olub. Yəni o vaxt Azərbaycan da daxil olmaqla türkdilli respublikalar keçmiş SSRİ-nin tərkibindən ayrılıb müstəqil olduqdan sonra bu ideya ortaya çıxıb.

**Müsahibimiz daha sonra dedi:**

– Lakin ideya üzrə bir müddət əməli addım atılmayıb. Bu, elə müzakirə mövzusu olaraq qalıb. Yalnız 1994–1995-ci illərdə türk dövlətlərinin tarixçiləri ortaq türk mətnlərinin layihəsi üzərində işə başlayıblar. Ondan sonra da müəyyən fasilə yaranıb. Nəhayət, 2012-ci ildə Qırğızıstanda keçirilən Türk Şurasının zirvə görüşündə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin dövlət başçıları ortaq türk tarixi kursunun bu ölkələrin ümumtəhsil müəssisələrində tədrisi ilə bağlı birgə qərar qəbul ediblər. Növbəti ildə Qəbələ şəhərində keçirilən zirvə görüşündə, daha 1 il sonra Bodrumda keçirilən zirvə görüşündə qərar təsdiq olunub.

Ortaq türk tarixinin yazılması konkret olaraq Beynəlxalq Türk Akademiyasına həvalə olunub. Bu akademiyada işçi qrup yaradılıb və dərsliklər hazırlanıb. 2017-ci ildə Qazaxıstanın Astana şəhərində tədris vəsaitinin müzakirəsi keçirilib və 2019-cu ildən artıq sözügedən ölkələrdə "Ortaq Türk tarixi" tədris edilməyə başlanıb. Azərbaycanda bu fənn, səhv etmirəmsə 150-yə qədər pilot məktəbdə fakültətiv dərs kimi öyrədilir. "Or-




taq Türk tarixi" 8-ci siniflər üçün nəzərdə tutulub və ən qədim dövrdən XV əsrə qədər türk xalqlarının ümumi keçmişi, onların yaratdığı dövlətlərin inkişaf yolları, mədəniyyəti və dili haqda təsəvvür formalaşdırır. Bu da türk dünyasının inteqrasiyasında və onların qarşılıqlı hörmət çərçivəsində tarixlərinin tədrisində və bu tarixə sevgi formalaşmasında böyük rol oynamaqdadır.

**H.Cabbarov onu da qeyd etdi ki, 2022-ci ildə İstanbulda yeni bir görüş keçirilib və həmin görüşdə "Ortaq Türk tarixi" ilə bərabər, "Ortaq Türk ədəbiyyatı", "Ortaq Türk coğrafiyası" dərslikləri də müzakirə edilib:**

– Həmin görüşə mən də qatılmış və Azərbaycanı təmsil etmişəm. Göründüyü kimi, müvafiq dərsliklərin yazılması və təkmilləşməsi üzrə xeyli yol qət edilib. Bu il də analoji onlayn görüş keçirildi və "Ortaq türk tarixi" dərsliyinin daha da təkmilləşməsi məsələsi müzakirə olundu. Əməli debatlara artıq Özbəkistan da qoşulub. Orada da bu fənn tədris olunmağa başlayır. Gələcəkdə Macarıstan və Türkmənistanın da bu sıraya qoşulacağı ehtimalı böyükdür. Çünki Türk Dövlətləri Təşkilatı genişlənir və regionun ən mötəbər beynəlxalq qurumlarından birinə çevrilir. Bu amil təhsil sahəsində inteqrasiyanın genişlənməsinə şərait yaradır. Güman edirəm ki, bu layihə daha da uğurlu olar.

Gələcəkdə XV əsrdən müasir dövrə qədər olan hadisələr və proseslər də dərsliyə salınacaq və yuxarı siniflərdə tədris ediləcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

Bir konsertin təəssüratı

# Bakıda dünya caz təntənəsi

**Şərq mədəniyyətinə mənsub olan Azərbaycanda caz sənəti də özünə yer tapa bilib. Paytaxtımızda caz musiqisinə, xüsusilə də onun muğamla sintezindən yaranan improvizələrə böyük marağın olduğu hiss edilir. Bu günlərdə "Beynəlxalq Muğam Mərkəzi"ndə amerikalı cazmenlərin çıxışı buna misal ola bilər. Seyrçilər amerikalı truba ifaçısı cazmen və repçi Teo Krokerin canlı konsertini izləmək imkanı qazanmışdılar.**



Konsertdən öncə məşhur "Qaya" vokal kvartetinin solisti olmuş Xalq artisti, Prezidentin fərdi tədaüdçüsü Cavan Zeynallı ilə görüşdük. Maraqlı həmsöhbət olduğu üçün fürsətdən istifadə edərək, özünün caza vurğunluğu barədə sual verdim. Cavabında uşaqlıq və gənclik xatirələrindən bəhs etdi: "Atam musiqi məktəbində direktor idi. Öncə skiripka məni özünə cəlb etmişdi. O dövrdə cazla bağlı notlar, kitablar yox idi. Biz daha çox vallardan eşitdiyimiz musiqilərlə cazı ritmlərini yadımızda saxlayıb ifa edirdik. Daha sonra Vaqif Mustafazadəylə tanış oldum. Frank Sinatranın musiqilərini bildiyim üçün o, mənim həmin əsərləri ifa etməyimi istəyirdi. Mənsə onun yanında utanırdım. Çünki Vaqif Allah vergisi idi. Onun yanında cazla məşğul olmaq çətin idi… Bu günə gəldikdə isə, açıq deyim ki, Amerikada, İtaliyada da artıq caz geri getməkdədir. İndi sadəcə keçmiş günləri yada salmaq üçün bu konsertdə iştirak edirəm".

Konsert başlananda Teo Krokerin ifasından öncə Azərbaycanda cazın inkişaf tarixindən danışıldı. Xatırladıldı ki, Bakıda ilk caz konserti 1966-cı ildə "Yaşıl Teatr"da keçirilib. Yeri gəlmişkən deyək ki, caz motivli ifalar həmin il çəkilən "İstintaq davam edir" filmində də istifadə olunmuşdu. Daha sonrakı illərdə də bu, davam edib. "Soyuq müharibə" dövrü olmasına baxmayaraq, Azərbaycanın ABŞ-la caz sahəsində bir körpü yaratdığı qeyd olundu.

O da diqqətə çatdırıldı ki, Teo Krokerin babası da truba ifaçısı olub. Uşaq vaxtında babasının ifaları ona təsir edib, daha sonra musiqi təhsili alıb, özünü cazmen kimi tanıda bilib. Dünyanın bir neçə ölkəsində konsertləri təşkil olunub.

Amerikalı qonaq tamaşaçıları bizim ana dilimizdə salamlayıb ilk alqışları qazanandan sonra öz sənət məharətini göstərməyə başladı. Konsert boyu tramplet, drams və kontrabasın müşayiəti ilə uğurlu ifalar nümayiş olundu. Kollektiv ifalarla hər üç alətdə uğurlu performans göstərilirdi. Təbii ki, özəl performanslar qiymətini alqışlar şəklində alırdı. Bakıda ilk konsertini verən Teo Krokerin qənimət ifaları yaddaqalan oldu.

Konsertin seyrçiləri arasında, təbii ki, xarici qonaqlar da var idi. Braziliyalı musiqiçilər festivalın yüksək təşkil olunmasından, Bakının gözəlliyindən məmnuniyyətlə danışdılar. Bir daha sübut olundu ki, paytaxtımız istənilən mötəbər beynəlxalq mədəni tədbirə layiqli evsahibliyi edə bilər.

Festival günlərində müxtəlif konsertlər, musiqili müzakirələr davam edib. Musiqisevərlər caz ifalarını dinləməklə bərabər, bu modern sənət növü ilə bağlı məlumatlar da əldə edə biliblər.

Qeyd edək ki, builki festivalda 15 ölkədən musiqiçilər, o cümlədən "Gremmi" mükafatı laureatları olan ifaçılar, Amerikadan "Höte İnistut", arfa caz ifaçısı Edmar Castaneda və Gregori Maret də Bakıda gözəl performans nümayiş etdiriblər. Azərbaycan cazmenləri də böyük uğurla konsertlər veriblər. Festivalın əsas təşkilatçısı "Paşa Holding" idi. "Höte İnistut", ADA Universteti, İsveçin ölkəmizdəki səfirliyi və digərləri də tədbirlərə dəstək veriblər.

Bir sözlə, XVIII Beynəlxalq Caz Festivalı ən xoş xatirələrlə yadda qalıb.

***Ceyhun MİRZƏLİ***

BEYNƏLXALQ HƏYAT

# HƏMAS-İsrail savaşı: gərginlik günbəgün artır

## Co Baydenin bölgəyə gəlişi vəziyyətə necə təsir göstərəcək?

*(əvvəli 1-ci səhifədə)*

Dünən axşam TRT müxbiri hadisə yerindən xəbər verib ki, indi Qəzzanın dar küçələrində ən çox təcili tibbi yardım maşınları gözə çarpır. Onların biri şəhərin müxtəlif məhəllələrinə daxil olursa, digəri buradakı yaralıları götürüb çıxır. Yəni həkimlərin işi həddindən artıq çox və ağırdır.

Xəstəxanalar isə ağzına kimi doludur. Məlumdur ki, Qəzza sakinlərinə suyun, işığın və təbii qazın verilməsi tamamilə dayandırılıb. Bir sözlə, buradakı əhali hazırda faktiki olaraq humanitar fəlakət yaşayır.

İsrailin "Kanal 12" telekanalı ölkə silahlı qüvvələrinin oktyabrın 17-nə keçən gecə Qəzza zolağında onlarla hədəfi vurduğunu, müşahidə məntəqələrini, komanda mərkəzlərini və raket-buraxılış qurğularını məhv etdiyini iddia edib.

"Reuters" xəbər agentliyinin fələstinlilərə istinadən verdiyi məlumata görə, keçən gecə həyata keçirilən hava zərbələri Yaxın Şərqdə hərbi əməliyyatların başlanmasından bəri ən güclü hücumlar olub. İsrail Müdafiə Qüvvələri bu barədə görüntüləri yayımlayıb.

İsrail hərbçiləri oktyabrın 16-da Qəzza zolağındakı təxminən 250 hərbi obyektə zərbələr endirdiyini bildirib. Hədəflər HƏMAS və "İslami Cihad"ın hərbi qərargahları, müşahidə məntəqələri və bir neçə raket buraxılış məntəqəsi olub. Məlumatda o da bildirilib ki, əməliyyat zamanı HƏMAS-ın cənub milli təhlükəsizlik bölgəsinin komandiri Mataz Eyd öldürülüb.

Vəziyyətin gərginləşməsi fonunda İsrail ordusu "Hizbullah"ın Livanla sərhəddəki hədəflərinə də aviazərbələr endirib. Rəsmi məlumatlara görə, dünən bir neçə yerdə İsrail hərbçiləri ilə qruplaşmanın yaraqlıları arasında atışma olub.

Atışma zamanı BMT sülhməramlılarının qərargahına da zərər dəyib. İlkin məlumatlara görə, xəsarət alan olmasa da, mərminin hansı tərəfdən atıldığı məlum deyil. Yəni, aləm bir-birinə qarışıb.

Dünən axşam saatlarında qlobal mediada yayılan xəbərlərə görə, HƏMAS-İsrail müharibəsi başlanan gündən son ana qədər azı 2800 fələstinli həlak olub, 11 minə yaxın sakin isə yaralanıb. HƏMAS-ın əməliyyatları nəticəsində ölən İsrail vətəndaşlarının sayı isə artıq 1400 nəfərə çatıb.

Bu gün regionda hamı ABŞ Prezidenti Co Baydenin İsrailə bu gün başlanan səfərindən danışır. ABŞ-ın dövlət katibi Entoni Blinken deyib ki, Baydenin səfəri İsrail, region və bütün dünya üçün kritik məqama təsadüf edir.

Blinken həmçinin bildirib ki, ABŞ İsraildən Qəzzaya humanitar yardımın buraxılmasına dair zəmanət alıb, lakin yardımın nə vaxt və necə çatdırılacağı barədə ətraflı məlumat verməyib.

Bir çoxları bu səfərə böyük ümidlər bəsləyir, digərləri isə silahlı qarşıdurmanın davam edəcəyini, el dilində desək, bu xəmirin hələ çox su aparacağını düşünürlər.

Dünən İran indiyəqədərki ən sərt xəbərdarlıq edib. Bildirilib ki, yaxın saatlarda İsrailə qarşı "qabaqlayıcı tədbirlər" görülə bilər.

İranın xarici işlər naziri Hüseyn Əmir-Abdullahian deyib ki, İsrailin Qəzzada "fələstinlilərə qarşı hərbi cinayətləri" dayanmasa, "müqavimət cəbhəsi" yaxın saatlarda "qabaqlayıcı addım" həyata keçirə bilər.

BBC müxbiri yazır ki, ötən həftə Hizbullah və İsrail hərbçiləri Livan-İsrail sərhədi boyunca atışıblar və bu, müharibənin başqa bir cəbhəyə keçə biləcəyi ilə bağlı qorxuları artırıb.

Misir və Fələstinin Qəzza bölgəsi arasındakı "Rəfah" keçidinin yenidən açılması ehtimalı ilə bağlı diplomatik danışıqlar hələ də davam edir. Amma hələlik heç bir konkret müsbət addım atılmayıb.

Bu arada Misir və İordaniya rəsmiləri fələstinli qaçqınları qəbul etməyəcəklərini bildiriblər. İordaniya kralı vurğulayıb ki, münaqişəyə cəlb olunan tərəflər öz yüklərini başqalarının üzərlərinə atmamalıdırlar.

ABŞ-ın yüksək vəzifəli generalı Martin Griffitz elan olunmamış səfərlə İsraildədir. O, Yaxın Şərqdəki ABŞ qüvvələrinə nəzarət edir.

İsrail ordusu son 10 gündə yarım milyona yaxın israillinin təxliyə edildiyini bildirib. BMT rəsmisi deyib ki, evlərini tərk edən bir milyona yaxın fələstinli təcili qida, su və yardım




nacağa ehtiyac duyur.

Rusiyanın İsrail və Qəzza ilə bağlı humanitar qətnamə layihəsi BMT Təhlükəsizlik Şurasından keçməyib, ABŞ və Böyük Britaniya da daxil olmaqla, Qərb dövlətləri sənədin əleyhinə səs veriblər.

Prezident Bayden İsrailə yola düşməzdən əvvəl bildirib ki, HƏMAS hərəkatı məhv edilməlidir: "Bəli, mən belə hesab edirəm. Amma Fələstin administrasiyası olmalıdır. Fələstin dövlətinə gedən yol olmalıdır".

ABŞ prezidenti həmçinin xəbərdarlıq edib ki, "Hizbullah" və HƏMAS-ın məhv edilməsi zəruri olsa da, İsrailin Qəzzanı işğal etməsi səhv olardı.

Bayden İsrailin ABŞ ordusunun yardımına ehtiyacı olduğunu düşünmədiyini deyib. Prezidentin sözlərinə görə, hazırda İsrail ordusu dünyanın ən güclü ordularından biridir, lakin İsrailin şimal sərhədində Livanla artan toqquşmalar fonunda ABŞ-ın hərbi gəmiləri bölgəyə göndərilib.

Baydenin Yaxın Şərqə səfəri bölgəyə sülh gətirə bilərmi? Bu suala birmənalı cavab verməki çətindir. Hadisələrin bundan sonra hansı məcrada davam edəcəyini proqnozlaşdırmaq mümkün deyil.

Regiondakı bir sıra dövlətlər, eləcə də Türkiyə tərəflərin eskalasiyadan əl çəkərək sülh danışıqlarına başlamalarını təklif və tələb edirlər. Yəqin ki, indiki məqamda ən düzgün variant atəşkəsin elan olunması olardı.

**M.HACIXANLI**
**XQ**

# Şəhid ailələrinə ehtiram hər kəsin borcudur

**Cəlilabadda "Tək millət, tək ürək" Beynəlxalq Humanitar Platforması çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Mədəniyyət Nazirliyi və rayon icra hakimiyyətinin dəstəyi və şəhid ailələrinin iştirakı ilə görüş keçirilib.**

Heydər Əliyev Mərkəzində davam edən məclisdə rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun qazandığı parlaq Qələbədən söz açıb, hərbi qulluqçuların göstərdiyi misilsiz şücaətlərdən bəhs edib.

Müdafiə Nazirliyinin qadınlar və hərbi qulluqçuların ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova Vətən qurbanlarının xatirəsinin hər zaman böyük ehtiramla yad edildiyini diqqətə çatdırıb, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıdan danışıb.

Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi İdarə Heyətinin sədri Hüseyn Büyükfırat isə bildirib ki, "Tək millət, tək ürək" Beynəlxalq Platforması çərçivəsində indiyədək 2300 şəhid ailəsi və qazi ilə təmas qurulub, onlara xüsusi qayğı göstərilib. Diqqətə çatdırılıb ki, Ulu öndər Heydər Əliyevin dediyi "Təhsil millətin gələcəyidir" kəlamı rəhbər tutularaq, şəhid və qazi övladlarının Türkiyə universitetlərində təhsil almasını təmin etmək üçün addımlar atılıb. Belə ki, hazırda Sivas Cümhuriyyət Universitetində onların sponsorluğu ilə 19 azərbaycanlı gənc təhsil alır.

Dövlət Sosial Müdafiə Fondu ilə birgə hazırlanan "Qardaş ailə" layihəsi çərçivəsində isə 5 şəhid ailəsi Türkiyənin Sivas, Şanlıurfa, Bursa, Balıkesir və İsparta şəhərlərinə səfər edib, oradakı şəhid ailələri ilə qardaşlaşıblar. "Yaşat" Fondu ilə birgə hazırlanan layihə çərçivəsində isə 20 şəhid övladı İstanbul və Çanaqqala şəhərlərinə yay düşərgəsinə göndərilib. Çıxışlarda xüsusi vurğulanıb ki, göstərilən hərtərəfli diqqət şəhid ailələrinin halal haqqıdır.



Məclis konsert proqramı ilə davam edib.

**XQ**

# "Qarabağ" Avropa futbolunda inamla irəliləyir

**Azərbaycan futbolunu ölkə və qitəmiqyaslı turnirlərdə layiqincə təmsil edən Ağdamın "Qarabağ" klubu UEFA Avropa Liqasında uğurlu çıxışını davam etdirir. Azarkeşlərin "Qafqazın Barselonası" adlandırdıqları "Qarabağ" klubunun UEFA Avropa Liqasının qrup mərhələsinin ilk iki turunda Norveçin "Molde" və İsveçin "Hekken" klublarını eyni hesabla (1:0) məğlub etməsi Azərbaycan futbolunun sevindirici uğurudur.**

Bu qələbələr UEFA Avropa Liqasında "H" qrupunda çıxış edən Ağdam təmsilçisinin turnirin "pley-off" mərhələsinə çıxması üçün böyük şans yaradıb. İki görüşdən sonra 6 xalı olan "köhlən atlar" yalnız vurulan topların fərqinə görə Almaniyanın Leverkuzen şəhərinin "Bayer 04" komandasından geri qalırlar. III və IV turlarda "Bayer 04"lə münasibətlərə aydınlıq gətirmək lazım gələcək. Əgər "Qarabağ" Bundesliqa təmsilçisi ilə iki görüşdən birində qələbə əldə edərsə, bu, artıq Ağdam təmsilçisinin qrup ikincisi kimi "pley-off"a gedən yolda şanslarını daha da artırmış olacaq. Bu inamı yaradan iki rəqib komandanın keçirdikləri ilk matçlarda məğlub olmalarıdır.

Qeyd edək ki, sərgilədiyi oyunla hər zaman qitəmiqyaslı turnirlərdə rəqiblərindən geri qalmadığını, bəzən isə onlardan hətta üstün olduğunu ortaya qoyan "köhlən atlar" oktyabrın 26-da səfərdə "Bayer 04"lə qarşılaşacaqlar. Bundan iki həftə sonra isə Ağdam təmsilçisi rəqibini doğma divarlar arasında sınağa çəkəcək.

UEFA Avropa Liqasında tarix yazmağa davam edən təmsilçimiz "Bayer 04"lə münasibətlərə aydınlıq gətirdikdən sonra isə turnir çərçivəsində növbəti matçını noyabrın 30-da keçirəcək. Həmin görüş V tura təsadüf edir. Belə ki, noyabrın 30-da Azərbaycan çempionu "Molde"nin qonağı olacaq. İndidən deyə bilərik ki, "Qarabağ"ın son zamanlar nümayiş etdirdiyi inamlı oyunlar ağdamlıların həmin səfər matçından da alnıaçıq, üzüağ dönəcəklərini deməyə əsas verir.

Əlavə edək ki, "Qarabağ" dekabrın 14-də keçiriləcək sonuncu turda Bakıda "Hekken"lə haqq-hesab çəkəcək. Bəri başdan deyə bilərik ki, səfərdə "Hekken" üzərində minimal hesabla (1:0) qələbə qazanan "köhlən atlar"ın Bakıda baş məşqçi Qurban Qurbanovun tapşırığını layiqincə yerinə yetirəcəklərinə ümidlər böyükdür. Gözləntilərə görə, bu qarşılaşmalarda əldə ediləcək nəticələr "Qarabağ"ın ən azından qrup mərhələsini ikinci pillədə başa vuracağına təminat verir. Ancaq ağdamlıların elə qrup lideri kimi də bu mərhələni başa vurmaq şansları böyükdür. Bunu qarşıdakı oyunlar göstərəcək.

Xatırladaq ki, bu il biz Ağdam təmsilçisinin ardıcıl 10-cu dəfə avrokuboklarının qrup mərhələsində mübarizə apardığının şahidi oluruq. Bunun biri UEFA Çempionlar Liqasına, digərləri isə Avropa Liqası yarışlarına təsadüf edir. Dünyanın ən şöhrətli futbol komanları sayılan "Çelsi" (London), "Roma" (Roma), "Atletiko" (Madrid) kimi komandaları 2017-2018-ci illər mövsümündə ölkəmizə gətirən "Qarabağ"ın beynəlxalq yarışlardakı təcrübəsi bu gün eyni sırada qərarlaşdığı rəqiblərindən üstündür. Düzdür, həmin vaxt "Qarabağ" 4 oyunda uduzmaqla qrupu 4-cü pillədə başa vurmuşdu. Lakin "Atletiko" kimi rəqiblə hər iki görüşdə qeydə alınan heç-heçə indiyədək azarkeşlərin xatirindədir.




Şübhəsiz, "Qarabağ" "H" qrupunda hazırda ən güclü və təcrübəli rəqib sayılan və qrupun lideri olan "Bayer 04"lə görüşlərdə də özünü yaxşı tərəfdən göstərəcək. Qurban Qurbanovun yetirmələrini qrup üçüncülüyü belə qane edir. Belə ki, komandanın nəticələri yuxarıda qeyd etdiklərimiz kimi deyil, əksinə olarsa, qrupda üçüncü yerdə qərarlaşmaq "Qarabağ" üçün mübarizəni UEFA Konfrans Liqasında davam etdirmək hüququnu təmin edəcək. Lakin sadaladığımız ehtimallar özünü doğrultsa, "Qarabağ" tarixində üçüncü dəfə qitəmiqyaslı turnirlərin "pley-off" mərhələsində mübarizə aparacaq.

**Elçin ABBASOV**
**XQ**

# Mir Cəlalın "Füzuli sənətkarlığı" əsəri alman dilində

**Görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabı Almaniyanın tanınmış Erqon-Nomos nəşriyyatının "Bibliotheca Academica" - şərqşünaslıq sahəsində seçilmiş nəşrlər sırasında çap edilib. Əsəri alman dilinə Giesen Universitetinin dosenti, şərqşünas Mixael Raynhard Hess tərcümə edib.**

Alman alimin, Füzulinin dövrünün tələblərinə uyğun olaraq Azərbaycan, türk, ərəb və fars dillərini bilməsi ona Füzuli və Mir Cəlal yaradıcılığının dərinliklərini araşdırmağa və avropalı oxuculara təqdim etməyə imkan verib. Şərqşünas-alim Hess, həmçinin kitaba "Giriş sözü" yazaraq, həm Füzuli, həm də Mir Cəlal dövrünün ədəbi və tarixi-siyasi mühitinin elmi-tənqidi təhlilini aparıb.

Mixael Raynhard Hess bildirir: "Yazıldığı tarixdən 80 il keçməsinə baxmayaraq, Füzuli yaradıcılığı haqqında Mir Cəlalın elmi əsəri ilə müqayisə oluna biləcək dərinlik və müfəssəlliyə malik elmi əsər yazılmayıb. Bu gün də bu əsər Füzuli yaradıcılığının araşdırmaçıları üçün əvəzolunmaz mənbədir".

Füzuli dühasının araşdırılmasına həsr olunan bu monoqrafiyanın alman dilində nəşri Mir Cəlal yaradıcılığının avropalı oxuculara çatdırılmasına dəyərli töhfədir. Kitab Almaniyanın milli biblioqrafiyasına daxil edilib.




**XQ**

# Peyvənd təhlükəsizliyi ilə bağlı beynəlxalq dəstək davam edir

**Avropa İttifaqının maliyyələşdirdiyi "Vaksinasiyaya dəstək" layihəsi çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatı "İmmunizasiyadan sonrakı arzuolunmaz hallar (İSAH): epidemioloji müşahidə və səbəb-nəticənin qiymətləndirilməsində müasir yanaşmalar" adlı üçgünlük seminar təşkil edib. Tədbir ÜST-nin Avropa üzrə Regional Ofisinin ekspertlərinin İSAH sahəsi üzrə qabaqcıl təcrübəni iştirakçılara interaktiv yolla təqdim etdiyi təlim formatında keçirilib.**



Seminarın əsas məqsədi immunizasiyadan sonrakı arzuolunmaz halların aşkarlanması və səbəb-nəticə əlaqəsinin qiymətləndirilməsi üçün milli mexanizmləri möhkəmləndirərək, peyvənd təhlükəsizliyinə nəzarət üzrə ölkədaxili mövcud sistemlərin gücləndirilməsinə dəstək olmaqdır.

Tədbirdə açılış nitqi ilə çıxış edən ÜST-nin Azərbaycan Ofisinin rəhbəri Dr. Hande Harmancı və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin məsləhətçisi Vüsalə Səfərova İSAH-nin epidemioloji müşahidəsinin immunizasiya proqramının mühüm istiqamətlərindən biri olduğunu diqqətə çatdırıblar.

Tədbirdə 40 nəfərə yaxın milli immunizasiya proqramı və dərman nəzarəti orqanlarının nümayəndələri, habelə ilkin səhiyyə və xəstəxana xidmətləri, habelə tibb təhsili proqramları üzrə mütəxəssislər iştirak edib.

Seminar İSAH-nin qiymətləndirilməsi və idarə olunması üçün vacib olan mövzuları - epidemioloji və monitorinq üsulları, İSAH klasterlərinin araşdırılması, İSAH-nin epidemioloji nəzarəti üzrə ÜST təlimatlarının və resursalarının nəzərdən keçirilməsi, İSAH üzrə kommunikasiyanın qurulması yolları, peyvənd təhlükəsizliyinin şəffaflığı və s. məsələləri əhatə edib. Tədbirdə həmçinin onlayn formatda ABŞ, Estoniya və Gürcüstan mütəxəssisləri tərəfindən bu ölkələrdə İSAH üzrə qurulmuş epidemioloji nəzarət sistemi ilə bağlı uğurlu təcrübə haqqında iştirakçılara ətraflı məlumat verilib.

Seminarın son günü iştirakçılar 3 gün müddətində təqdim olunan informasiyanın təhlili məqsədilə qrup işinə cəlb olunub. Daha sonra qruplar əldə olunan məlumatlar əsasında ölkədə İSAH-la bağlı boşluqları müzakirə edib və gələcəkdə bu sahənin təkmilləşdirilməsi üçün əsas istiqamətlər müəyyən olunub. Seminarın sonunda iştirakçılar tədbirin keçirilməsini İSAH üzrə sistemlərin inkişaf etdirilməsi yolunda irəliyə atılan addım kimi qiymətləndirib və bu sayədə səhiyyə sistemi qarşısında yeni və əhəmiyyətli imkanlar yarandığını bildiriblər.

Xatırladaq ki, Azərbaycanda COVID-19 pandemiyasına qarşı mübarizə və rutin immunlaşdırma proqramlarının gücləndirilməsi məqsədilə ÜST-nin Azərbaycandakı Ölkə Ofisi 2021-ci ilin iyun ayından etibarən Avropa İttifaqının maliyyə dəstəyi ilə üç illik COVID-19 əleyhinə "Vaksinasiyaya Dəstək" layihəsini həyata keçirir. Layihə Avropa İttifaqı və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir.

**Z.BƏŞİRQIZI**
**XQ**




# Çimərlik güləşçilərimiz Egey sahillərində

## İbrahim Yusubov ikinci dəfə dünya çempionu olub

**Azərbaycan pəhləvanları dünyanın ən nüfuzlu yarışlarından olan dünya çempionatında daha bir uğur əldə ediblər. Bu dəfə çimərlik güləşi üzrə Türkiyədə keçirilən Dünya Seriyasının final mərhələsində təmsilçilərimiz parlaq nailiyyət qazanıblar.**



Muğla bölgəsinin Sarıgerme qəsəbəsində keçirilən final yarışında yığmamızın üzvlərindən İbrahim Yusubov (90 kq) gümüş medala sahib olub. Ramiz Həsənovla (70 kq) Oyan Nəzəriani (+90 kq) isə 4-cü yeri tutublar.

Bu yarış bitdikdən sonra seriyanın il ərzində baş tutan 5 mərhələsində toplanan xallar hesablanıb və hər çəkidə ümumilikdə ən çox xal yığan güləşçi müəyyənləşib. Seriyanın 5 mərhələsinin yekununa görə, rəqiblərini üstələyən Azərbaycan güləşçisi İbrahim Yusubov titulunu qoruyub və ardıcıl 2-ci dəfə dünya çempionu adına yiyələnib. Əvvəlki dünya çempionatlarında qızıl və gümüş medala sahib olan Oyan Nəzəriani bu dəfə üçüncü yeri tutub. Ramiz Həsənov isə yekun sıralamada 4-cü olub.

**Güləş üzrə gənclərdən ibarət yığma komandanın məşqçisi Nazim Əlicanov "XQ"yə açıqlamasında dünya çempionatında əldə edilən nəticənin böyük uğur olduğunu bildirdi. O qeyd etdi ki, bu idman növünün yaşı Azərbaycanda o qədər də çox deyil:** "Qısa müddət ərzində yüksək nəticələrin qazanılması gərgin zəhmətin bəhrəsidir. İbrahim Yusubov artıq ikinci dəfə dünya çempionu adına yiyələndi. O, 5 mərhələdən ibarət Dünya Seriyasının bütün turnirlərində yüksək nəticəyə imza atıb, yekunda qalib oldu. Ramiz Həsənov dünya reytinqində 1-2-ci sırada idi. Finalda çıxışı uğursuz oldu. Güləşçimiz turnirdə əzmkarlıqla mübarizə aparsa da, mükafatçılar sırasına düşə bilmədi və dördüncü yerlə kifayətləndi. Ağır çəkili pəhləvanımız Oyan Nəzərani dünya çempionatlarında bir neçə dəfə medal qazanıb. Çimərlik Oyunlarında 4-cü yerə çıxsa da, mükafatçıların birindən dopinq tapıldığına görə medalı ona verdilər".

Məşqçi onu da qeyd etdi ki, dünyanın ən güclü atletlərinin iştirak etdiyi yarış gərgin mübarizə şəraitində keçib. Komandamız təlim-məşqlərdə və yarışlarda ciddi səy göstərib.

**Qeyd edək ki, çimərlik güləşi üzrə millinin baş məşqçisi kimi də fəaliyyət göstərən Oyan Nəzəriani bu yarışdan sonra idmançı kimi karyerasını başa vurduğunu deyib. O qeyd edib ki, hər peşəkar idmançı üçün karyeranı başa vurmaq çətin olsa da, belə bir qərarı verməli olub:** "Beynəlxalq yarışlardan kənarda qalmaq, güləşə bilməmək kədərli haldır. Amma heç nə daimi deyil. Bu il idmançı karyeramı başa vurmaq qərarına gəldim".

Oyan Nəzəriani karyerasını bitirməsinin həm zədələrlə, həm də məşqçilik karyerası ilə bağlı olduğunu bildirib. Qeyd edib ki, müəyyən zədələri idmançı kimi karyerasını davam etdirməsinə çətinlik yaradıb. Digər tərəfdən məşqçi kimi karyerasına daha çox fokuslanmağı qərara alıb: "Bu qərarı verməyimizin digər səbəbi fərdi məşqlərdən çox, komanda məşqlərinə üstünlük verdiyim üçündür. Dünya Çimərlik Oyunlarına lisenziya qazandığım üçün bu yarışı gözləyirdim. Amma Oyunların təxirə salınmasından sonra idmançı kimi fəaliyyətimi dayandırmaq qərarına gəldim. Amma idmançı kimi bəlkə də, bir neçə il də güləşmək olardı. Düşünürəm ki, gənc pəhləvanlar yetişdirməklə ölkəmizdə bu sahəyə töhfələr verə bilərəm".

Oyan Nəzəriani Azərbaycan bayrağı altında yüksək nəticələr əldə etməyin onun üçün fəxr və böyük uğur olduğunu qeyd edib: "İdmançı kimi əldə etdiyim uğurlardan daha çox, Azərbaycan bayrağı altında çıxış etməyim məni qürurlandırır. Sevinirəm ki, Azərbaycanı təmsil etmək üçün mənə belə bir gözəl şans yaradılıb. Ən böyük arzum məşqçi kimi dünya şöhrətli pəhləvanlar yetişdirməkdir. Bunun üçün əlimdən gələni edəcəyəm".

***Leyla QURBANOVA***
***XQ***

# "Azərişıq"ASC

## Elektrik ötürücü xətlərində elektrik mühafizə və ölçmə avadanlıqlarının satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1. "Azərişıq"ASC-nin elektrik ötürücü xətlərində elektrik mühafizə və ölçmə avadanlıqlarının satın alınması.

İştirak haqqı 1500 manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Əlaqələndirici şəxs- Emil Əliyev.
Təşkilat- "Azərişıq" ASC
H/h- AZ83AIIB33020029441802068118
VÖEN- 9900069391
Benefisiarın Bankı "Kapital Bank"ın Gənclik filialı
Kod- 200189
VÖEN- 9900003611
M/h- AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
Əlaqə telefonu (şəhər)- 012 440 39 93 (daxili 92-62)
Elektron poçt: emil.aliyev@azerishiq.az
Ünvan- AZ1009. Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə. (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış. (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış; (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti; (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
7. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış; (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
8. İddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki).
10. İddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat.
11. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
12. İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün həmin sahədə peşəkarlığının, iş təcrübəsinin, texniki və maliyyə imkanlarının, elktrik mühəndislərinin əmək müqavilələrinin, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması vacibdir. Bununla yanaşı "SATICI" son üç ildə elektrik ötürücü xətlərində elektrik mühafizə və ölçmə avadanlıqlarının satın alınması üçün hər birinin ümumi məbləği 3 milyon manatdan az olmamaq şərtilə ən azı 3 oxşar layihənin icrasını başa çatdırmış olmalı və təsdiqedici sənədləri təqdim etməlidir.
13. Müvafiq lisenziya və icazələr.
14. Rəsmi distribyutor və diler müqaviləsi və ya məktub.
15. Ən azı 2 şirkətdən tövsiyyə məktubu təqdim olunmalıdır.
16. Satınalınan mal-materialların nümunələri təqdim olunmalıdır və təqdim edilən mal-materiallara 3-5 il ərzində zəmanət verilməlidir. (Çin Xalq Respublikasının mal-materialları təqdim edilməməlidir).
17. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
18. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)
19. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
20. Təklif olunan mallar əsas şərtlər toplusundakı parametrlərə tam cavab verməlidir.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 6 noyabr 2023-cü il saat 15.30-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 16 noyabr 2023-cü il saat 15.30-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 noyabr 2023-cü il saat 15.30-da Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan multikulturalizmi Texas festivalında

**ABŞ-ın Texas ştatının Piano şəhərində keçirilən XX Beynəlxalq multikultural festivalında Azərbaycan 2-ci dəfə təmsil olunub.**

Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, müxtəlif xalqların mədəniyyətlərinin, adət-ənənələrinin və milli mətbəxlərinin təbliği məqsədilə təşkil olunan festivalda Avropa, Asiya və Latın Amerikası ölkələrindən nümayəndələr iştirak ediblər.

Texas ştatında və Dallas şəhərində yaşayan azərbaycanlı icmasının fəalları Dürdanə Balakişiyeva, Züleyxa Əsədova, Ləman Hendriks və digər həmyerlilərimizin təşkil etdikləri Azərbaycan guşəsində ölkəmizin qədim tarixini, zəngin mədəniyyətini, turizm potensialını və adət-ənənələrini əks etdirən kitablar, suvenirlər, milli geyimlər, mətbəx nümunələri nümayiş olunub. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ingilis dilində nəşr edilmiş "Sirlər xəzinəsi" poeması da seyrçilərin marağına səbəb olub.



Festivalın əyləncəli proqramı çərçivəsində keçirilən beynəlxalq dəb şousunda Azərbaycan əsilli tanınmış rəqqasə Ləman Hendriks, milli balet və rəqslərimizin ifaçısı Vivyen Bennett çıxış ediblər. Onların ifasında "Naz eləmə", "Qaval", "Yüz biri" rəqsləri və görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Min bir gecə" baletindən parça təqdim olunub. milli rəqslərimizi və geyimlərimiz festival iştirakçılarına və amerikalılara xoş təsir bağışlayıb.

***XQ***




# Qarabağ "DOST"unun "1 pəncərə" xidməti

**BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Rezident Nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvo Bərdə şəhərinə səfəri çərçivəsində Böyük Britaniyanın ölkəmizdəki səfiri Ferqus Ouldla Qarabağ Regional DOST Mərkəzinə baş çəkib, vətəndaşlara xidmət prosesi ilə tanış olublar.**



DOST konsepsiyasının ölkəmizdə dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilməsinə şərait yaratdığı vurğulanıb.

Nümayəndə heyəti üçün konsepsiya barədə nümayiş etdirilən təqdimatda DOST mərkəzlərində vətəndaşlara sosial müdafiə və sosial təminat, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək və məşğulluq sahələri üzrə göstərilən xidmətlər barədə məlumat verilib.

***H.ZƏRİFƏ***
***XQ***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

balansında olan gəmiləri üçün Descalex™ təmizləyici maddənin (soyutma və isitmə sistemləri üçün köpük əleyhinə xüsusiyyətlərə malik güclü turşulu kirəc təmizləyici ) satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il oktyabrın 23-ü saat 16.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1047.

Ünvan- Bakı, M.Useynov küçəsi 2.

TƏKRAR

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin **Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

### Şəmkir şəhər Ə.Cavad adına 624 şagird yerlik tam orta məktəb binasının əsaslı təmiri və əlavə 22 sinif otağının tikintisi işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanib möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək lazımdır.

Əlaqələndirici şəxs – Z.Quliyev.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz manat) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
Kod - 805603
VÖEN - 9900001881
M/h – AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar açıq tender prosedurunda iştirak üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış təqdim edilməlidir),( notarial təsdiq edilməsi mütləqdir.)
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;( notarial təsdiq edilməsi mütləqdir.)
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, probasiya şöbəsi və ya müvafiq kommerisya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;
- iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;
- iddiaçının maddi - texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilində tərcümə edilməlidir).
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 13 noyabr 2023-cü il saat 11.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 21 noyabr 2023-cü il saat 11.00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 22 noyabr 2023-cü il saat 11.00-a Elm və Təhsil Nazirliyinin Təsrüffathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

### Füzuli şəhərinin xarici su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yaradılması işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs- Abışev Murad Çingiz oğlundan, telefon: + 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğlundan, telefon: + 99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az) ala bilərlər.

**İşlərin qısa təsviri:**

Su təchizatı, kanalizasiya və digər əlaqədar işlər.

Tenderdə iştirak haqqı 500,00 (beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
VÖEN - 9900001751
Bank - "Kapital bank" ASC-nin 1 saylı Nəsimi filialı
Kod - 200112
VÖEN - 9900003611
Yerli valyutada hesab nömrəsi AZ65AIIB33070019441100216111
Xarici valyutada hesab nömrəsi AZ55AIIB33170018401100216111
M/h: AZ37NABZ01350100000000001944
SWIFT AIIBAZ2X

İştirakçıları tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

Tenderdə iştirak etmək üçün ərizə.

İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri.

Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.

Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.

İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış.

Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (Ədliyyə Nazirliyindən alınmış müvafiq arayış).

Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış.

Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).

Mühasibat balansı, mənfəət və zərər haqqında hesabat. Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa).

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son beş il (1 yanvar 2018 - ci il 31 dekabr 2022-ci il ) ərzində ümumi məbləği 15 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnoloqiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər, son beş il (1 yanvar 2018 –ci il 31 dekabr 2022-ci il ) ərzində ən azı 10 milyon manat dövriyyə tələb olunur) və TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər ən azı bir müəssisə tərəfindən təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İştirakçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 noyabr 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 24 noyabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 27 noyabr 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 227 (30343) 18 oktyabr 2023-cü il, çərşənbə

# Səmərqənddə turizm çağırışları

**Səmərqənddə BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) 25-ci yubiley sessiyası öz işinə başlayıb. Tədbirdə dünyanın 130 ölkəsinin dövlət turizm təşkilatlarının rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri, turizm biznesinin təmsilçiləri, bu sahənin ekspertləri iştirak edir.**




Ölkəmizi Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.

Açılış mərasimində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev çıxış edərək yubiley sessiyasının iştirakçılarını təbrik edib, onlara uğurlar arzulayıb. Dövlət başçısı ölkədə bu sahədə görülən işlər, turizm sahəsində aparılan islahatlar haqqında məlumat verib.

Sonra BMT-nin Baş katibi Antonio Qutterişin sessiya iştirakçılarına videomüraciəti səsləndirilib.

ÜTT-nun baş katibi Zurab Pololikaşvili təşkilatın işi ilə bağlı geniş məruzə edib, 25-ci yubiley sessiyasının qədim Səmərqənd şəhərində keçirilməsindən məmnun olduğunu bildirib. O deyib ki, indiki sessiyada turizm sahəsində beynəlxalq əməkdaşlıq məsələləri də müzakirə ediləcək.

Qeyd edək ki, sessiya çərçivəsində investisiya və tədris forumları keçiriləcək, ən yaxşı "turizm kəndi" müəyyənləşdiriləcək. Sessiya çərçivəsində tədbirlər oktyabrın 20-dək davam edəcək.

***Qulu KƏNGƏRLİ***
***XQ-nin xüsusi müxbiri***
**Səmərqənd**

## İdman xəbərləri

### U-21 millimizin ilk uğuru

**Avropa çempionatının seçmə mərhələsində 21 yaşadək futbolçulardan ibarət Azərbaycan komandası növbəti matçını keçirib.**



F qrupunda yer alan millimiz Lüksemburqla üz-üzə gəlib. "Azərsun Arena"-da keçirilən qarşılaşma Azərbaycan komandasının 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Avtoqlun qeydə alındığı oyunda komandamızın digər qollarını 41-ci dəqiqədə penaltidən Nəriman Axundzadə və 90+1-ci dəqiqədə Ağadadaş Salyanski vurub.

Görüşü moldovalı Dumitri Muntean idarə edib.

Xatırladaq ki, U-21 millimiz ilk iki oyunda – səfərdə Serbiyaya 0:2, evdə isə Şimali İrlandiyaya 0:1 hesabı ilə məğlub olub.

### "Azərreyl" qələbə ilə başladı

**"Azərreyl" klubu avrokuboklarda 2023/2024 mövsümünə qələbə ilə start verib.**



Qadın voleybolçulardan ibarət komandamız Çelenc Kubokunun 1/32 final mərhələsinin ilk oyununda inamla çıxış edib. Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində Ukraynanın "Balta" klubunu qəbul edən "Azərreyl" rəqib üzərində 3:0 hesablı qələbə qazanıb.

Komandalar cavab oyununda eyni məkanda oktyabrın 18-də üz-üzə gələcəklər.

### Gimnastlarımız 7 medal qazanıblar



**Azərbaycan gimnastları Çexiyanın Yablonets nad Nisou şəhərində keçirilən "Friendship-2023" beynəlxalq turnirində uğurla çıxış edərək 7 medal qazanıblar.**

Azərbaycan Gimnastika Federasiyasından "XQ"yə bildiriblər ki, ənənəvi "Dostluq yarışı"nda batut gimnastikası üzrə milli komandamız Fərhad Mustafayev, Ayan Şabanova, İbrahim Mustafazadə, Ammar Baxşaliyev, Əli Niftəliyev, Hüseyn Abbasov, Mehdi Əliyev, Ömər Qasımlı, Samirə Hüseynova, Nicat Mirzəyev təmsil ediblər.

Gimnastlarımızdan sinxron proqramda çıxış edən Fərhad Mustafayev və Ömər Qasımlı, eləcə də Əli Niftəliyev və Mehdi Əliyev cütlüyü qızıl medallara sahib olublar. Hüseyn Abbasov və Nicat Mirzəyev gümüş medal qazanıblar. Hüseyn Abbasov fərdi proqramda ikinci yeri tutub.

### Avropa çempionatında 4 qızıl medal



**İspaniyanın paytaxtı Madriddə "Arnold Classic Europe" idman festivalı çərçivəsində keçirilən pauerliftinqin WRPF versiyası üzrə Avropa çempionatında Azərbaycan idmançıları 4 qızıl medal qazanıblar.**

Komandamızın üzvü Vüqar Namazov (140 kq) master kateqoriyasında "deadlift" hərəkəti üzrə 330 kiloqram nəticə ilə çempion adını qazanıb. Komandamızın aktivinə digər qızıl medalı yeniyetmələr arasında mübarizə aparan İlkin Namazov (125 kq) "benç press" hərəkətində 152,5, "deadlift"də isə 230 kiloqram nəticə göstərərək yazdırıb. Ramil Əhmədov (100 kq) "Open" kateqoriyasında, ümumilikdə 815 kiloqram göstərici ilə Avropa çempionu olub. O, "squat" hərəkətində 310, "benç press"də 205, "deadlift"də isə 300 kiloqramın öhdəsindən gəlib. Vüsal Ağalarov isə "Open" kateqoriyasında 100 kiloqram çəki dərəcəsində rəqiblərini üstələyərək 850 kiloqram göstərici ilə fəxri kürsünün ən yüksək pilləsində yer alıb.

***Leyla SABİRQIZI***
***XQ***

## Texnologiya yenilikləri

### "Apple"in milad sürprizi

**"Apple" şirkəti yeni mini "iPad"ı ilin sonuna qədər təqdim edəcək.**



Şirkətin yeni "iPad"ı əslində gələn il nümayiş etdirəcəyi gözlənilirdi. Ancaq "Apple" öz istifadəçilərinə Milad sürprizi etmək qərarına gəlib.

Məlumata görə, yeni yığcam "iPad"də planşet üçün lazım olan bəzi komponentlərin və ehtiyat hissələrinin tədarükü artıq kiçik həcmdə həyata keçirilir. Bu, "iPad mini 7"nin bu ilin dördüncü rübündə, yəni oktyabrdan dekabradək buraxılacağı bildirilir.

Yeni "iPad"lərdə indiki "A15" əvəzinə daha yeni "A16" çipset veriləcək. Həmçinin RAM və batareyanın istifadə müddətində bir qədər artım olacaq. Təqdim olacaq planşetlərdə yeni güclü M3 prosessoru və OLED displeyləri olacaq.

***XQ***

## Təbiət

### Tənha, uzaq ada...



**Atlantik okeanının cənubunda yerləşən "Tristan da Kunya" adası "Pasxa"dan sonra sivilizasiyadan uzaq ikinci ada hesab olunur.**

Adanın sahəsi 207 kvadrat kilometr təşkil edir. Əhalisinin sayi 300 nəfərdir. Sakinlərin bir qismi Edinburq qəsəbəsində yaşayır.

Qəribə olan budur ki, adada məktəb, kiçik xəstəxana, ərzaq mağazası, poçt şöbəsi, radiostansiya, kafe, üzgüçülük hovuzu, internet kafe və iki kilsə fəaliyyət göstərir. Həmçinin qəza, tibbi yardım və yanğınsöndürmə maşınları da əraziyə cəlb olunub.

Təkcə bir polisin nəzarət etdiyi adada kiçik liman da mövcuddur.

Bura səs-küylü şəhər həyatından bezənlər və tənhalığı xoşlayanlar üçün ideal məkandır.

Qeyd edək ki, Cənubi Afrika Respublikasına yaxın ərazidə yerləşən bu ada Birləşmiş Krallığın himayəsindədir.

***S. FİDAN***
***XQ***

## Sağlamlıq

### Qidaların "dostluğu"

***Fərqli qidalar birlikdə qəbul edildikdə orqanizmə daha çox fayda verir. Bu, qida maddələrinin sinergik təsiri adlanır. Hər gün istehlak etdiyimiz qidalarda olan minerallar, vitaminlər, fitokimyəvilər, lif və yağlar kimi müəyyən komponentlər bir-biri ilə qarşılıqlı əlaqədə sağlamlıq üçün inanılmaz faydalar verir.***



Ət, bəkməz, yumurta, soya, ispanaq, çəfəri kimi tərkibində dəmir olan qidalar, C vitamini ilə bol limon, qreypfrut, portağal və qırmızı bibərlə birlikdə yeyildikdə dəmir mineralı daha çox sorulur. Quru lobya ideal dəmir qaynağı olsa da, bitki mənşəli dəmir heyvan mənşəli qədər bədən tərəfindən udulmur. Lakin C vitamini ilə zəngin olan qırmızı bibərlə birlikdə yeyildikdə paxladakı dəmirin sorulması sürətlənir. Səhər yeməyi üçün proteinlə çox zəngin olan yumurta sarısı hədsiz faydalı dəmir qaynağıdır. Yumurtadakı dəmir C vitamini ilə bol 1 stəkan portağal suyu ilə daha yaxşı mənimsənilir.

Qida sinerjisinin digər yaxşı nümunələrinə qırmızı ət və salatın birləşməsi daxildir. Limon, göyərti və qırmızı bibər kimi C vitamini olan qidalar dəmir tərkiblilərlə birlikdə qəbul edildikdə, dəmir daha çox udulur.

### Narın qabığı da...

***Nar qabıqlarının tərkibində antioksidantlar, orqanik turşular, büzücü maddələr və s. boldur. Buna görə ondan xalq təbabətində müalicəvi vasitə kimi istifadə olunur.***

Nar qabıqları ürək əzələsini qoruyur, damarları möhkəmlədir və təmizləyir. Ürək xəstəlikləri zamanı 1 orta ölçüdə nar qabığının üzərinə 1 stəkan qaynar su əlavə edilib 30 dəqiqə ərzində dəmlənir. Süzdükdən sonra zövqə uyğun bal və zəncəfil əlavə edilib içilir.

Dəmləmə güclü büzücü təsirə malik olduğundan damaq problemləri zamanı da köməyə çatır. Damağı möhkəmlədir, qanamasını azaldır. Dəmləmə ilə ağız gün ərzində bir neçə dəfə qarqara edilir. Diş iltihabında, və ya çəkilməsindən sonra dəmləməyə 1 çay qaşığı duz töküb qarqara etmək lazımdır. Diş çəkiləndən sonra hərdən baş verən qanaxmada nar qabığının dəmləməsi prosesi dayandırır. Ağız boşluğunda istənilən iltihab, yara və s. zamanı da dəmləmə çox yaxşı kömək edir.



Nar qabıqlarının dəmləməsi qurdqovucu təsirə malikdir. Öskürək zamanı da yaxşı kömək edir. Qastrit və mədə xorasında iltihabı azaldır, xora və eroziyaların sağalmasını təzləşdirir, ishalı dayandırır. Onu uşaqlara da vermək olar.

***Z.HÜSEYNLİ***
***XQ***

## HAVA

### Hava yağıntılı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**

Gün ərzində yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək, səhər şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 11-14°, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 763 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 15-20° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-7° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## Hadisə

### Ayı demə, o dəxi bizim birimiz...

**ABŞ-nin Konnektikut ştatında iri qara ayı evin pəncərəsini sındıraraq mətbəxə daxil olub. Soyuducudan yemək oğurlayan ayı müşahidə kameralarına düşüb. Videogörüntülərdə ayının soyuducunun qapısını açıb oradan dondurulmuş toyuğu çıxardığı əks olunur.**



Ev sahibi hadisədən mobil telefonuna oğurluq barədə mesaj daxil olarkən xəbər tutub.

O bildirib ki, evə heç bir ziyan dəyməyib, sadəcə, ayı it yemi ilə dolu bir kisəni dağıdıb.

***F. SALMANOVA***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4818
SİFARİŞ 2712
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00